**“AZƏRALÜMİNİUM” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

31 dekabr 2019-cu il tarixinə
Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına
Uyğun Maliyyə Hesabatları və Müstəqil Auditorun
Hesabatı

**Mündəricat**


MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI ... 3

MÜSTƏQİL AUDİTOR HESABATI ... 4

MALİYYƏ HESABATLARI ... 6

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT ... 6

MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINA HESABAT ... 8

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT ... 10

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT ... 12

MALİYYƏ HESABATLARI ÜZRƏ ŞƏRHLƏR VƏ İZAHLI QEYDLƏR ... 14

1. GİRİŞ ... 14

2. MALİYYƏ HESABATLARININ HAZIRLANMASININ ƏSASI VƏ ƏSAS UÇOT PRİNSİPLƏRİNİN XÜLASƏSİ ... 16

3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR ... 26

4. YENİ VƏ YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN QƏBUL EDİLMƏSİ ... 29

5. DƏRC OLUNMUŞ, LAKİN, HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR ... 30

6. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ QALIQLAR VƏ ƏMƏLİYYATLAR ... 31

7. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR ... 32

8. MAL-MATERİAL EHTİYATI ... 32

9. DEBİTOR BORCLARI ... 33

10. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ ... 33

11. DİGƏR CARİ AKTİVLƏR ... 33

12. KREDİTOR BORCLARI VƏ DİGƏR ÖDƏNİLƏCƏK VƏSAİTLƏR ... 34

13. SAİR QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR ... 34

14. NİZAMNAMƏ KAPİTALI ... 35

15. ƏLAVƏ KAPİTAL QOYULUŞU ... 35

16. GƏLİRLƏR ... 35

17. XƏRCLƏR ... 36

18. MƏNFƏƏT VERGİSİ ... 37

19. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR ... 38

20. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ ... 38

21. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏR ... 41

22. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR ... 42

## MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 31 DEKABR 2019-CU İL TARİXİNƏDƏK TAMAMLANAN DÖVR ÜZRƏ

Bu bəyannamə "Azəralüminium" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun hazırlanmış maliyyə hesabatları ilə bağlı Cəmiyyət rəhbərliyinin və müstəqil auditorun göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik Cəmiyyətin 31 dekabr 2019-cu il tarixində tamamlanan il üzrə maliyyə vəziyyətini, fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:**

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və mülahizələrin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nın tələblərinə riayət olunması və;
- Əgər yaxın gələcəkdə, Cəmiyyətin normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

**Rəhbərlik həmçinin:**

- Cəmiyyətin daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun olaraq hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Azərbaycan Respublikasında qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin qorunmasının təmin edilməsi və;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

31 dekabr 2019-cu il tarixində tamamlanan il üzrə maliyyə hesabatları Cəmiyyətin rəhbərliyi tərəfindən 11 dekabr 2020-ci il tarixində təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI Məhdud Məsuliyyətli Cəmiyyəti azəralüminium Limited Liability Company AZERBAIJAN REPUBLIC

| | |
|---|---|
| **Maksim Cavadov** | **Cəlal Həbibov** |
| Direktor | Maliyyə direktoru |
| 11 dekabr 2020-ci il | 11 dekabr 2020-ci il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

## MÜSTƏQİL AUDİTOR HESABATI

**“Azəralüminium” Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarı və Rəhbərliyinə**

**Rəy**

Biz, “Azəralüminium” Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra “Cəmiyyət”) 31 dekabr 2019-cu il tarixinə Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS) əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə bitmiş il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat uçotu siyasətləri və digər izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixlərdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətinin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uygun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uygun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Bizim maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının “Etika məcəlləsinin” (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakimələrimizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyin formalaşdırılmasında bütövlüklə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uygun olaraq olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruru daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa alternativi olmadığı halda, Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsulyyət daşıyır.

**Maliyyə hesabatları üzrə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan

auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edimiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- MHBS-ə uyğun tərtib edilmiş maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində yaranmış əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edib qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində yaranmış əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsində yaranmış təhrifi aşkarlamamaq riskindən daha yüksəkdir, çünki, saxtakarlıq əlbir hərəkətlər, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda MHBS-ə uyğun tərtib edilmiş maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin, sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, MHBS-ə uyğun tərtib edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin MHBS-ə uyğun tərtib edilmiş maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk. Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Hesabat 11 dekabr 2020-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi təsərrüfat subyektinə təqdim edilir, ikincisi isə "ASON AUDİT" MMC-də saxlanılır.

**İcraçı: "ASON AUDİT" MMC-nin direktoru:** **O.S.Vəkilov**

**Auditor:** **T.A.Talıbov**

AZƏRBAYCAN RESPUBLİKASI AZERBAIJAN REPUBLIC ASON AUDİT LIMITED LIABILITY COMPANY MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**“Azəralüminium” Məhdud Məsuliyyətli Cəmiyyətinin**
**31 dekabr 2019-cu il tarixinə**
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**(Azərbaycan manatı ilə)**

| Bölmə/ Maddə №-si | Bölmə/Maddələrin adı | Uçot siyasəti və izahlı Qeydlərin № | Hesabat dövrü üzrə 31.12.2019 | Əvvəlki dövr üzrə 31.12.2018 |
|---|---|---|---|---|
| *1* | *2* | *3* | *4* | *5* |
| | **AKTİVLƏR** | | | |
| **1** | **Uzunmüddətli aktivlər** | | | |
| 10 | Qeyri-maddi aktivlər | 7 | 7,214 | 23,585 |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 7 | 223,052,833 | 216,479,953 |
| 12 | İnvestisiya mülkiyyəti | | | |
| 13 | Bioloji aktivlər | | | |
| 14 | Təbii sərvətlər | | | |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | |
| 16 | Təxirə salınmış vergi aktivləri | | | |
| 17 | Uzunmüddətli debitor borcları | | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | | |
| 19 | Sair uzunmüddətli aktivlər | | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **223,060,047** | **216,503,538** |
| **2** | **Qısamüddətli aktivlər** | | | |
| 20 | Ehtiyatlar | 8 | 53,797,268 | 63,820,231 |
| 21 | Qısamüddətli debitor borcları | 9 | 19,679,572 | 6,722,325 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 10 | 30,680,555 | 44,150,469 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | | |
| 24 | Sair qısamüddətli aktivlər | 11 | 12,309,699 | 21,534,568 |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **116,467,094** | **136,227,593** |
| | **CƏMİ AKTİVLƏR** | | **339,527,141** | **352,731,131** |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **3** | **Kapital** | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | 14 | 282,243,699 | 282,189,099 |
| 31 | Emissiya gəliri | | | |
| 32 | Geri alınmış kapital (səhmlər) | | | |
| 33 | Kapital ehtiyatları | | | |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 1,988,351 | (233,913) |
| | **CƏMİ KAPİTAL** | | **284,232,050** | **281,955,186** |
| **4** | **Uzunmüddətli öhdəliklər** | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | 18 | 727,996 | |
| 43 | Uzunmüddətli kreditor borcları | 12 | 11,121,268 | 51,595,386 |

| | | | | |
|---|---|---|---|---|
| 44 | Sair uzunmüddətli öhdəliklər | | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **11,849,264** | **51,595,386** |
| **5** | **Qısamüddətli öhdəliklər** | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | | 219,146 |
| 53 | Qısamüddətli kreditor borcları | 12 | 38,499,562 | 18,050,347 |
| 54 | Sair qısamüddətli öhdəliklər | 13 | 4,946,266 | 911,066 |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **43,445,828** | **19,180,560** |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | **55,295,091** | **70,775,946** |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **339,527,141** | **352,731,131** |

**Maksim Cavadov**

Direktor

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**Cəlal Həbibov**

Maliyyə direktoru

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**"Azəralüminium" Məhdud Məsuliyyətli Cəmiyyətinin**

**31 dekabr 2019-cu il tarixində başa çatan il üzrə**

# MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINA HESABAT

**(Azərbaycan manatı ilə)**

| Bölmə (maddə) və hesab №-si | Göstəricilərin adı | Uçot siyasəti və izahlı qeydlərin №-si | Hesabat dövrü üzrə 2019 | Əvvəlki dövr üzrə 2018 |
|---|---|---|---|---|
| *1* | *2* | *3* | *4* | *5* |
| 60 | Əsas əməliyyat gəlirləri | *16* | *203,197,292* | *18,939,486* |
| 70 | Satışın maya dəyəri üzrə xərclər | *17* | *179,812,060* | *16,324,752* |
| | **Ümumi mənfəət (zərər)** | | ***23,385,233*** | ***2,614,733*** |
| 61 və 73 | Sair əməliyyat gəlirləri | *16* | *4,220,172* | *4,436,837* |
| 71 | Kommersiya xərcləri | *17* | *5,406,524* | *494,615* |
| 72 | İnzibati xərclər | *17* | *15,449,533* | *6,784,649* |
| 73 və 61 | Sair əməliyyat xərcləri | *17* | *2,156,048* | |
| 62 və 74 | Fəaliyyətin dayandırılmasından yaranan mənfəətlər (zərərlər) | | | |
| | **Əməliyyat mənfəəti (zərəri)** | | ***4,593,300*** | ***(227,694)*** |
| 63 və 75 | Maliyyə mənfəəti (zərəri) | *17* | *(1,643,039)* | *(6,219)* |
| 64 və 76 | Fövqəladə mənfəət (zərər) | | | |
| 81 | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | | |
| | **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | | ***2,950,260*** | ***(233,914)*** |
| 90 | Mənfəət vergisi | | *727,996* | |
| **341** | **Hesabat dövründə xalis mənfəət (zərər)** | | ***2,222,265*** | ***(233,914)*** |
| | **O cümlədən** | | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | | |
| | Digər məcmu gəlir | | | |
| | Məcmu gəlir (xalis mənfəətin (zərərin) və digər məcmu gəlirin cəmi) | | | |
| | **O cümlədən** | | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | | |

AZƏRBAYCAN RESPUBLİKASI Məhdud Məsuliyyətli Cəmiyyəti azeralüminium Limited Liability Company AZERBAIJAN REPUBLIC

**Maksim Cavadov**

Direktor

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**Cəlal Həbibov**

Maliyyə direktoru

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**Xərclərin xüsusiyyətləri üzrə təsnifat əsasında əməliyyat xərcləri haqqında**
**MƏLUMAT**

| *Bölmənin/ maddənin №-si* | *Göstəricilərin adı* | *Uçot siyasəti və izahlı qeydlərin №-si* | *Hesabat dövrü üzrə* | *Əvvəlki dövr üzrə* |
|---|---|---|---|---|
| | *Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı artımlar (azalmalar)* | | | |
| | *Təşkilat tərəfindən yerinə yetirilmiş və kapitallaşdırılmış işlər* | | | |
| | *İstifadə edilmiş material ehtiyatları* | | | |

**Maksim Cavadov**

Direktor

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**Cəlal Həbibov**

Maliyyə direktoru

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**“Azəralüminium” Məhdud Məsuliyyətli Cəmiyyətinin**

**31 dekabr 2019-cu il tarixində başa çatan il üzrə**

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**(Azərbaycan manatı ilə)**

| | **Uçot siyasəti və izahlı qeydlərin №-si** | **Ödənilmiş nizamnamə kapitalı** | **Emissiya gəliri** | **Geri alınmış kapital (səhmlər)** | **Kapital ehtiyatları Yenidən qiymətləndirilmə üzrə ehtiyat** | **Məzənnə fərqləri üzrə ehtiyat** | **Qanunvericilik üzrə ehtiyat** | **Nizamnamə üzrə ehtiyat** | **Digər ehtiyatlar** | **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq | 14 | **282,189,099** | | | | | | | | **(233,914)** | **281,955,186** |
| Əvvəlki hesabat dövründə uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | | | | | |
| **Səhvlərin düzəldilməsindən sonra əvvəlki hesabat dövrünün əvvəlinə qalıq** | **14** | **282,189,099** | | | | | | | | **(233,914)** | **281,955,186** |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | | | | | | | | | | | |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | | | | |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | | | | | |
| Sair məcmu gəlir | | | | | | | | | | | |
| **Əvvəlki hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | | | | | | | | | | | |
| **Əvvəlki hesabat dövrünün sonuna qalıq** | **14** | **282,189,099** | | | | | | | | **(233,914)** | **281,955,186** |
| Hesabat dövründə uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə | | | | | | | | | | | |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| bağlı düzəlişlər | | | | | | | | | | | |
| **Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə qalıq** | **14** | **282,189,099** | | | | | | | | **(233,914)** | **281,955,186** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 15 | 54,600 | | | | | | | | 2,222,265 | 2,222,265 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | | | | 54,600 |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | | | | |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | | | | | |
| Sair məcmu gəlir | | | | | | | | | | | |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | **15** | **54,600** | | | | | | | | **2,222,265** | **2,276,865** |
| **Hesabat dövrünün sonuna qalıq** | **14** | **282,243,699** | | | | | | | | **1,988,351** | **284,232,050** |

**Maksim Cavadov**

Direktor

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

AZƏRBAYCAN RESPUBLİKASI Məhdud Məsuliyyətli Cəmiyyəti azeralüminium Limited Liability Company AZERBAIJAN REPUBLIC

**Cəlal Həbibov**

Maliyyə direktoru

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**"Azəralüminium" Məhdud Məsuliyyətli Cəmiyyətinin**

**31 dekabr 2019-cu il tarixində başa çatan il üzrə**

# PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

**(Azərbaycan manatı ilə)**

| Mədaxil və məxaric maddələri | Uçot siyasəti və izahlı qeydlərin №si | Hesabat dövrü üzrə 2019 | Əvvəlki dövr üzrə 2018 |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Malların satışından və xidmətlərin göstərilməsindən daxilolmalar | | 193,080,094 | 14,034,509 |
| Röyaltilər, yığımlar və komisyon haqları üzrə daxilolmalar | | 60,817 | - |
| Digər gəlirlərdən daxilolmalar | | 2,634,205 | 4,881 |
| **Əməliyyat fəaliyyətindən cəmi daxilolmalar** | | **195,775,116** | **14,039,390** |
| Mallar və xidmətlərə görə xaricolmalar | | 165,281,024 | 26,142,961 |
| İşçilərin mükafatlandırılması ilə əlaqədar ödənişlər | | 11,951,638 | 2,298,082 |
| Mənfəət vergisi ödənişi üzrə xaricolmalar | | | |
| Digər vergilərə görə xaricolmalar | | 5,698,434 | 1,046,783 |
| Əməliyyat fəaliyyətindən yaranan faiz ödənişləri üzrə xaricolmalar | | 891,748 | 307,620 |
| Digər ödənişlərə görə xaricolmalar | | - | 287,970 |
| **Əməliyyat fəaliyyətindən cəmi xaricolmalar** | | **183,822,843** | **30,083,417** |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | **11,952,272** | **(16,044,027)** |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | 6,122,240 | 805,604 |
| digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının satılmasından yaranan pul vəsaitlərinin daxilolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdətutulmuş alətlərüzrə pul vəsaitlərinin daxilolmaları istisna olmaqla); | | | |
| digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının əldə edilməsi üçün ödənilən pul vəsaitlərinin xaricolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdə tutulmuş alətlər üzrə pul vəsaitlərinin xaricolmaları istisna olmaqla); | | | |
| digər tərəflərə verilmiş borcların qaytarılmasından pul vəsaitlərinin daxilolmaları; | | | |
| digər tərəflərə verilmiş borclara görə pul vəsaitlərinin xaricolmaları; | | | |
| fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin daxilolmaları; | | | |
| fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin ödənişləri; | | | |

| | | | |
|---|---|---|---|
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları. | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(6,122,240)** | **(805,604)** |
| Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti | | | |
| səhmlərin və digər kapital alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | | 61,000,100 |
| müəssisənin öz səhmlərinin əldə edilməsi və ya yenidən alınması nəticəsindəpul vəsaitlərinin xaricolmaları | | | |
| təminatsiz istiqrazların, borc sənədlərinin, veksellərin, istiqraz vərəqələrinin, girov kağızlarının buraxılmasından və digər qısamüddətli və uzunmüddətli borcların alınmasına görə pul vəsaitlərinin daxilolmaları; | | | |
| borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | 20,638,151 | |
| məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | | 2,970,204 | |
| məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | | |
| maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları | | | |
| dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | | |
| faizlər şəklində pul vəsaitlərinin xaricolmaları | | 1,632,000 | |
| Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(19,299,947)** | **61,000,100** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **(13,469,915)** | **44,150,469** |
| | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | | **44,150,469** | |
| **il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **(13,469,915)** | **44,150,469** |
| **xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri** | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | | **30,680,555** | **44,150,469** |

**Maksim Cavadov**

Direktor

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**Cəlal Həbibov**

Maliyyə direktoru

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

## 1. GİRİŞ

Hazırki maliyyə hesabatları 31 dekabr 2019-cu il tarixinə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq “Azəralüminium” Məhdud Məsuliyyətli Cəmiyyəti (“Cəmiyyət”) üçün tərtib edilmişdir.

### 1.1. Cəmiyyət haqqında ümumi məlumat

Cəmiyyət 2018-ci ildə təsis edilmiş və 16 aprel 2018-ci il tarixində Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən 1305481501 vergi eyniləşdirmə nömrəsi ilə məhdud məsuliyyətli cəmiyyəti kimi qeydiyyatdan keçmişdir.
Cəmiyyət Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərinin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən 16 aprel 2018-ci il tarixdə qeydiyyata alınaraq Əlavə Dəyər Vergisi ödəyicilərinin Dövlət Reyestrinə daxil edilmişdir. Cəmiyyətin təşkilati hüquqi forması Məhdud Məsuliyyətli Cəmiyyətdir və bütün paylar Azərbaycan Sənaye Korporasiyası Açıq Səhmdar Cəmiyyətinə məxsusdur.
Hesabat tarixinə Cəmiyyətin fəaliyyətinin idarəedilməsi və nəzarət Direktoru Cavadov Maksim Yaqub oğlu, Maliyyə direktoru Həbibov Cəlal Mahir oğlu tərəfindən aparılır.

### 1.2. Cəmiyyətin fəaliyyəti

Cəmiyyət Azərbaycan Respublikasının əlvan metallurgiya sənayesinin aparıcı şirkəti, həmçinin Cənubi Qafqazda yeganə ilkin aluminium istehsalçısıdır. Cəmiyyətin əsas fəaliyyəti alüminium kompleksində və digər obyektlərdə cəmləşdirilmişdir. Bu fəaliyyətə istehsal prosesində müasir texnologiyaların yeniliklərindən istifadə edərək fasiləsiz tökmə rulonlar, külçələr və soyuqyayma məhsullar kimi ilkin alüminium və əlavə məhsulların istehsalı daxildir. Ümumilikdə istehsal prosesi ən yüksək beynəlxalq standartların tələblərinə cavab verdiyindən dünyanın müxtəlif bazarlarında geniş istifadə və tətbiq olunur.

### 1.3. Qeydiyyat ünvanı və fəaliyyət yeri

Cəmiyyət Azərbaycan Respublikasında təsis edilmişdir. Cəmiyyətin qeydə alınmış hüquqi ünvanı Yasamal rayonu, Tbilisi prospekti, mənzil 35, Bakı, Azərbaycan Respublikasıdır. Cəmiyyətin əsas iş yeri Azərbaycan Respublikası, Gəncə şəhəri, AZ2000, Yevlax Şossesi 53-dür..

***Bank rekvizitləri:***

Azərbaycan Beynəlxalq Bank ASC-nin
KOD:
VÖEN: 9900001881
M/h AZ03NABZ01350100000000002944
S.W.İ.F.T.BİK İBAZAZ2X
Hesab №-si:

### 1.4. Təsisçi haqqında məlumat

31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin səhmdar strukturu aşağıdakı kimidir:

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyəti | Mülkiyyət, % | Mülkiyyət, % |
| | 100 | 100 |
| **Cəmi** | **100** | **100** |

“Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 2017-ci il tarixli Fərmanına uyğun olaraq təsis edilmiş və Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən qeydiyyata alınmışdır. Cəmiyyət 8 dekabr 2017-ci il tarixində 1305305281 saylı vergi eyniləşdirmə nömrəsi ilə açıq səhmdar cəmiyyəti kimi qeydiyyatdan keçmişdir. ASK ASC 100% Azərbaycan Respublikasına (“Hökümət”) məxsusdur.

Cəmiyyətin əsas prinsipləri və fəaliyyət istiqamətlərinə dövlət əmlakının idarəedilməsində effektivliyin artırılması, törəmə müəssisələr arasında faydalı kooperativ əlaqələrin qurulması, dəyər zəncirlərində istehsal potensialının artmasına nail olmaq, sənaye istehsalının həcminin və qeyri-neft sektorunun artım sürətinin gücləndirilməsi daxildir.

31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin ən üst nəzarət subyekti “Azərbaycan Sənaye Korporasiyası” ASC-dir.

### 1.5. Cəmiyyətin fəaliyyət mühiti

Cəmiyyət öz fəaliyyətini Azərbaycan Respublikasında həyata keçirir. Azərbaycan hökuməti iqtisadi islahatları və ölkənin hüquqi, vergi və qanunvericilik çərçivəsində inkişafını davam etdirir. Azərbaycan iqtisadiyyatının gələcək davamlı inkişafı, əsasən bu islahatlardan və sektordakı tərəqqidən, eləcə də hökumət tərəfindən iqtisadi, maliyyə və pul siyasəti üzrə həyata keçirilmiş tədbirlərdən və Azərbaycan manatı ilə xam neftin sabit qiymətlərindən asılıdır.

2015-ci il ərzində Azərbaycanın iqtisadiyyatı neft qiymətlərinin aşağı düşməsi və Azərbaycan manatının devalvasiyası nəticəsində mənfi təsirlərə məruz qalmışdır. Bu isə kapital çıxışının azalmasına, kapital xərclərinin artmasına, inflyasiya və iqtisadi inkişaf ilə bağlı qeyri-müəyyənliklərə səbəb olmuşdur. Bu geriləmənin qarşısını almaq üçün Azərbaycan hökuməti islahatların sürətləndirilməsi və maliyyə sisteminin dəstəklənməsi üçün tədbirlər planı hazırlamışdır. Azərbaycan Respublikasının Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə “Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” təsdiq edilmişdir. Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışını özündə ehtiva edir.

Bundan əlavə, 2018-ci ildə hökumət Azərbaycan manatının sabitliyi ilə əlaqədar olaraq pul siyasətini davam etdirmiş və Azərbaycan manatının sabitləşdirilməsi üçün xarici valyuta ehtiyatlarından istifadə etmişdir. Bu siyasət 2019-cu ildə makroiqtisadi sabitliyin qorunması məqsədi ilə davam etdirilmişdir.

Cəmiyyətin rəhbərliyi makroiqtisadi mühitdəki dəyişiklikləri izləyir və yaxın gələcəkdə Cəmiyyətin fəaliyyətinin dayanıqlığını və inkişafını dəstəkləmək üçün zəruri hesab etdiyi tədbirləri görür.

Beynəlxalq kredit reytinq agentlikləri mütəmadi olaraq Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. Fitch və S&P Azərbaycan Respublikasının reytinqini “BB+” olaraq qiymətləndirmişdir. Moody’s Investors Service, ölkə üçün “Ba2” kredit reytinqini təyin etmişdir.

Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı əsasən hökumətin vergi, hüquq, tənzimləyici və siyasi islahatlarla birlikdə həyata keçirdiyi iqtisadi, maliyyə və pul tədbirlərinin səmərəliliyindən asılıdır. Rəhbərlik Cəmiyyətin fəaliyyətinə təsir göstərəcək iqtisadi mühitdəki bütün islahatları və nəticədə onların Cəmiyyət maliyyə vəziyyətinə necə təsir göstərə biləcəyini proqnozlaşdırmaq iqtidarında deyil. Rəhbərlik hazırda müxtəlif alüminium qiymətləri üzrə həssaslıq təhlili həyata keçirir və biznesin davamlılığını təmin etmək üçün müvafiq tədbirlər planı hazırlayır.

## 2. MALİYYƏ HESABATLARININ HAZIRLANMASININ ƏSASI VƏ ƏSAS UÇOT PRİNSİPLƏRİNİN XÜLASƏSİ

**Giriş**
Cəmiyyətin maliyyə ili dekabr ayının sonuncu günündə başa çatır. Cəmiyyət 31 dekabr 2019-cu il tarixinə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olaraq maliyyə hesabatını təqdim edir.

**Təqdimatın əsasları**

Cəmiyyətin MHBS əsasında hazırlanmış maliyyə hesabatları yuxarıda göstərilən tarixdə hazırlanmış və qəbul edilmişdir. Cəmiyyət maliyyə hesabatlarını Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsi (“MUBSK”) tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olaraq hazırlanmışdır. Bu maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilmiş əsas uçot prinsipləri aşağıda təqdim edilir. Bu prinsiplər təqdim edilmiş bütün dövrlərə ardıcıl şəkildə tətbiq edilmişdir.

**Fasiləsizlik prinsipi**

MHBS əsasında hazırlanmış maliyyə hesabatları Cəmiyyətin fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik hesab edir ki, Cəmiyyət yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Cəmiyyətin likvidasiyasına nə istək, nə də ehtiyac olacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcuddur. Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət gedişində Cəmiyyətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatda əks etdirilmişdir.

Bəzi maliyyə hesabatı standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələblərin, nəzərə alınmalı olan müəyyən məsələlərin və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Rəhbərliyin fasiləsizlik prinsipi üzrə ehtimalının qiymətləndirməsi müəyyən bir müddətdə, hadisələrin və ya şərtlərin gələcək inkişafı ilə əlaqədar subyektiv qərarların qəbul edilməsini nəzərdə tutur.

**Cari və uzunmüddətli təsnifləşdirmələr**

Cəmiyyət aktiv və öhdəlikləri cari/uzunmüddətli təsnifləşdirmələr olaraq, MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv sayılır:

- Adi əməliyyat dövründə satılması və ya istehlak edilməsi nəzərdə tutulan və ya satılması ehtimal edildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı 12 ay ərzində satılması ehtimal edildikdə; və ya
- Hesabat tarixindən ən azı on iki ay sonra öhdəliyin ödənilməsi üçün mübadilə edilməsi və ya istifadə edilməsi üçün məhdudlaşdırılması halları istisna olmaqla, pul vəsaitləri və onların ekvivalanetləri formasında olduqda.

Digər bütün aktivlər uzunmüddətli aktivlər sayılır. Öhdəlik aşağıdakı hallarda cari öhdəlik sayılır:

- Adi əməliyyat dövrü ərzində ödənilməsi gözlənildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı 12 ay ərzində satılması ehtimal edildikdə; və ya
- Hesabat dövründən sonra ən azı on iki ay müddətində öhdəliyin ödənilməsini təxirə salmaq üzrə qeyri-şərtsiz hüquqa malik olmadıqda.

Cəmiyyət bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər olaraq təsnif edir.
Təxirə salınmış vergi aktivi və öhdəliyi uzunmüddətli aktiv və öhdəliklər kimi təsnif edilir.

**Təqdimatın digər əsasları**
MHBS əsasında hazırlanmış maliyyə hesabatları, başqa cür qeyd edilmədiyi hallarda Azərbaycan Manatı (“AZN”) ilə ifadə edilir. MHBS əsasında hazırlanmış maliyyə hesabatları şərti dəyər kimi ədalətli dəyərdə qeydə alınan əmlak, tikili və avadanlıqlar istisna olmaqla tarixi dəyər əsasında tərtib edilmişdir.

**Əmlak, tikili və avadanlıqlar**
Əmlak, tikili və avadanlıqlar, peşəkar müstəqil qiymətləndiricilərin apardığı qiymətləndirmə ilə bazara əsaslanan sübutlardan formalaşmış yenidən qiymətləndirmə tarixindəki ədalətli dəyərdən sonradan yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla, MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda şərti dəyər olaraq ədalətli dəyərdə qeydə alınır.

Faydalı istifadə müddəti üzrə təxminlər, qalıq dəyərləri və amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv əsasda tətbiq edilir.

Cari dövr üzrə əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti aşağıdakı kimidir:

**CƏMİYYƏTİN AMORTİZASİYA NORMALARI**

| S/S | Əsas vəsaitin kateqoriyası | Faydalı istifadə müddəti (il) | Maksimal son qalıq % |
|---|---|---|---|
| 1 | Binalar | 20-70 | 20-25% |
| 2 | Maşın və avadanlıqlar | 7-20 | 25% |
| 3 | Nəqliyyat vasitələri | 5-7 | 25% |
| 4 | Qurğular (sobalar, borular, kabel xətləri, ötürücü qurğular, hasarlar, hovuzlar, asfalt yollar, talvarlar, çənlər, qüllələr və s.) * | 10 | 25% |
| 5 | Mebel | 7 | 25% |
| 6 | Ofis və laboratoriya avadanlıqları | 5 | 25% |
| 7 | Kompüter avadanlıqları və hesablama texnikası | 5 | 25% |
| 8 | İstehsal alətləri (ləvazimatları) və təsərrüfat inventarları | 3 | 25% |
| 9 | Xüsusi geyimlər | 2 | 25% |
| 10 | İstehsalat Avadanlıqları | 10 | 25% |
| 11 | Qeyri maddi aktivlər** | 0-10 | 25% |
| 12 | Digər əsas vəsaitlər*** | 5 | 25% |

***Qeyd:***

** Hər bir müəssisə əvvəlki təcrübəsinə, istehsalat xarakteristikasına, avadanlığın istehsalatda istifadə imkanlarına əsaslanaraq uyğun amortizasiya normaları müəyyən edə bilər*

*** Məhdud isitsmar müddətli qeyri-maddi aktivlərin amortizasiya normaları müqavilə əsasında hesablanır, istismar müddəti qeyri-məhdud müddətdə olduqda amortizasiya hesablanmır*

**** Hər bir müəssisə yuxarıda qeyd edilən aktivlərdən fərqli kateqoriya aktivi olarsa həmin aktivi digər bölməyə aid edərək aktivə amortizasiya norması müəyyən edir*

***** Başa çatdırılmamış tikililər və quraşdırılmaqda olan maşın və avadanlıqlar üzrə amortizasiya hesablanmır.*

Cəmiyyət hər bir hesabat tarixinə aktivlərin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa və ya fərdi aktiv üçün illik dəyərsizləşmə üzrə təhlil tələb edilirsə Cəmiyyət aktivin əvəz olunması dəyərini təxmin edir. Aktivin əvəz olunma dəyəri, onun digər aktivlərdən müstəqil şəkildə pul vəsaitləri yaratmaq qabiliyyətinin olduğu hallar istisna olmaqla, aktivin və ya pul vəsaiti yaradan vahidin ən yüksək ədalətli dəyərindən satış xərcləri və istifadədə dəyəri çıxılması nəticəsində yaranan dəyərə bərabərdir.

Əgər aktivin (və ya nağd pul yaradan vahidin) bərpa edilə bilən məbləği onun qalıq dəyərindən azdırsa, aktivin (və ya nağd pul yaradan vahidin) qalıq dəyəri onun bərpa edilə bilən məbləğinə qədər azaldılmalıdır. Aktiv yenidən qiymətləndirilmiş məbləğdə uçota alınıbsa aktivin dəyərsizləşməsi yenidən qiymətləndirmə rezervinin azalması kimi tanınır, əks halda dəyərsizləşmə zərəri dərhal gəlir və ya zərər hesabatlarında tanınır.

**Mal-material ehtiyatları**

Mal-material ehtiyatları maya dəyəri və ya xalis satış dəyərinin ən aşağı səviyyəsində uçota alınır. Mal-material ehtiyatlarının dəyəri orta çəkili dəyər prinsipinə əsaslanır və ehtiyatların əldə edilməsinə çəkilən xərcləri, eləcə də istehsal və ya emal xərclərini və bu aktivləri mövcud yerlərinə və vəziyyətinə gətirmək üçün çəkilən digər xərcləri əhatə edir. İstehsal edilmiş ehtiyatlar və tamamlanmamış işlərə münasibətdə isə, maya dəyəri adi iş qabiliyyətinə əsaslanan istehsal xərclərinin müvafiq hissəsini əhatə edir.

Xalis satış dəyəri, təxmini tamamlama və satış xərcləri çıxılmaqla, adi iş müddətində ehtimal olunan satış qiymətidir.

**Maliyyə alətləri**

Cəmiyyət maliyyə aləti üzrə müqavilə tərəflərindən biri olduqda, maliyyə alətləri və maliyyə öhdəlikləri onun MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda tanınır. Maliyyə aktivləri və öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə ölçülür. Maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin alınması və ya yaranması ilə birbaşa əlaqəli olan əməliyyat xərcləri (mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülən maliyyə aktivləri və maliyyə öhdəliklərindən başqa) əlavə edilir və ya ilkin tanınmada maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin ədalətli dəyərindən, müvafiq olaraq əlavə edilir və ya çıxılır. Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə tanınan maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin alınmasına birbaşa aid olan əməliyyat xərcləri dərhal mənfəət və ya zərərdə tanınır.

**Maliyyə aktivləri**

Maliyyə aktivlərinin müntəzəm şəkildə satın alınması və ya satılması satış tarixi əsasında tanınır və ya xitam verilir. Bütün tanınmış maliyyə aktivləri sonradan, maliyyə aktivlərinin təsnifatına əsasən, amortizasiya edilmiş dəyərdə və ya ədalətli dəyərdə bütünlüklə ölçülür.

*Maliyyə aktivlərinin təsnifatı*

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan amortizasiya olunmuş dəyərlə ölçülür:

- Maliyyə aktivi müqavilə ilə pul vəsaitləri axınını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli daxilində saxlanılır; və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülür (DMGVƏD):

- maliyyə aktivi müqavilə şərtlərinə uyğun olaraq pul vəsaitləri axınının yığılması və maliyyə aktivlərinin satışı məqsədi daşıdıqda, biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Adətən bütün digər maliyyə aktivləri sonradan mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülür (MZVƏD).

Yuxarıda göstərilənlərə baxmayaraq, Cəmiyyət maliyyə aktivinin ilkin tanınmasında aşağıdakı qəti seçimi/təyinatı həyata keçirə bilər:

- Müəyyən meyarlar qarşılanmadıqda Cəmiyyət kapital investisiyası üzrə müvafiq ədalətli dəyərdə dəyişikliyin digər məcmu gəlirdə təqdimatı üçün qəti tədbirlər həyata keçirə bilər; və
- Cəmiyyət uçot sistemində uyğunsuzluğu əhəmiyyətli dərəcədə azaltmaq məqsədilə, amortizasiya edilmiş maya dəyərində və ya DMGVƏD ölçülmə meyarlarına cavab verən borc investisiyasını əks keçid etməmək şərtilə MZVƏD edə bilər.

*Amortizasiya olunmuş dəyər və effektiv faiz dərəcəsi metodu*

Effektiv faiz dərəcəsi metodu borc alətinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəlirinin müvafiq dövr üzrə bölgüsü üsuludur. Satın alınan və ya yaranan kredit zərərinə məruz qalmış maliyyə aktivlərindən (yəni ilkin tanınma zamanı dəyərsizləşmiş aktivlər) başqa maliyyə aktivləri üzrə effektiv faiz dərəcəsi, ehtimal edilən kredit zərərləri istisna olmaqla borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz hissəsini təşkil edən ödənilmiş, yaxud alınmış bütün haqqlar, ödənişlər, əməliyyat xərcləri və ya mükafatlar) ilkin tanınma anında xalis qalıq məbləğinədək diskontlaşdıran dəqiq dərəcədir.

Alınmış və ya yaranmış kredit dəyərsizləşməsi üzrə maliyyə aktivləri üçün, kreditlə tənzimlənən effektiv faiz dərəcəsi, gözlənilən gələcək pul vəsaitlərinin hərəkətini, ehtimal olunan kredit zərərləri daxil olmaqla, ilkin tanınma zamanı borc alətinin amortizasiya olunmuş dəyərinə diskontlaşdırılmaqla hesablanır.

Maliyyə aktivinin amortizasiya olunmuş dəyəri ilkin tanımada maliyyə aktivinin əsas ödəniş çıxılmaqla, hər hansı zərər üzrə düzəliş edilməklə həmin ilkin dəyər ilə ümumi dəyər arasındakı fərq üzrə effektiv faiz dərəcəsini istifadə etməklə məcmu amortizasiya əlavə olunmaqla, maliyyə aktivinin ölçüldüyü dəyərdir. Maliyyə aktivinin ümumi qalıq dəyəri hər hansı bir zərər öhdəliyinə düzəliş edilməzdən əvvəl maliyyə aktivinin amortizasiya olunmuş dəyəri hesab olunur.

Faiz gəliri daha sonra amortizasiya edilmiş dəyərdə və DMGVƏD ilə qiymətləndirilən borc alətlərinin effektiv faiz metodundan istifadə edilməklə tanınır. Alınmış və ya yaranmış kredit dəyərsizləşməsi üzrə yaranmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivləri üçün, faiz gəliri sonradan kredit itkisinə məruz qalmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivinin ümumi qalıq dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır.

Cəmiyyətin maliyyə aktivlərinin əksəriyyəti daha sonra amortizasiya edilmiş dəyərlə ölçülmüş maliyyə aktivləri kimi təsnif edilmişdir. Cəmiyyətin maliyyə öhdəlikləri daha sonra amortizasiya olunmuş dəyərlə ölçülmüş maliyyə öhdəlikləri kimi təsnif edilmişdir. Cəmiyyət mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə ölçülmüş hər hansı maliyyə öhdəliyinin təsnifatını seçmir.

*Maliyyə aktivlərinin dəyərsizləşməsi*

Cəmiyyət ehtimal olunan kredit zərəri modelini amortizasiya edilmiş dəyərlə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülmüş maliyyə aktivlərinə tətbiq edir.

İlkin tanımadan sonra maliyyə aktivi üzrə kredit riski əhəmiyyətli dərəcədə artıqda, bu maliyyə aktivi üçün ehtimal olunan kredit zərəri üzrə ehtiyat ömürlük ehtimal olunan kredit zərərinə bərabər dəyərdə ölçülür.

Əgər hesabat tarixində maliyyə aktivi üzrə kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmamışdırsa, bu maliyyə aktivi üçün ehtimal edilən kredit zərəri (sadələşdirilmiş yanaşmanın seçildiyi kreditor borcları istisna olmaqla) 12 aylıq ehtimal edilən kredit zərərlərinə bərabər dəyərdə ölçülür. Kreditor borcları və alınacaq digər vəsaitlər üçün, əhəmiyyətli bir maliyyələşdirmə komponentinin olub olmamasından asılı olmayaraq, ömür boyu ehtimal olunan kredit zərəri əsasında ölçülür.

Cəmiyyət ehtimal olunan kredit zərərini qiymətləndirmək üçün daxili modeldən istifadə edir. Model 9 saylı MHBS-ə uyğun olaraq tərtib edilmiş və qarşı tərəflərin kredit risklərinin qiymətləndirilməsi üçün maliyyə sisteminin xüsusiyyətlərini nəzərə alaraq, qarşı tərəflərə hesab sistemini təyin etməklə hazırlanmışdır. Təyin edilmiş bal (reytinq) fərdi şəkildə hesablanmış Defolt Ehtimalıdır (DE).

Aktivin bir bal qrupundan daha aşağı bal qrupuna keçməsi digər meyarlar arasında kredit riskinin əhəmiyyətli artımı hesab olunur.

**Ədalətli dəyərin ölçülməsi**

Ədalətli dəyər ölçülmə tarixində əsas bazarda və ya əsas bazar olmadıqda həmin tarixdə Cəmiyyətin daxil ola biləcəyi daha sərfəli bazarda bazar iştirakçıları arasında intizamlı əməliyyatda aktivi satmaq üçün qəbul edilmiş və ya öhdəliyi ötürmək üçün ödəniləcək qiymətdir. Ədalətli dəyərin ölçülməsinə əsasən, aktivin satılması və ya öhdəliyin ötürülməsi üzrə əməliyyat:

- aktiv və ya öhdəlik üçün əsas bazarda; və ya
- əsas bazarın yoxluğu şəraitində aktiv və ya öhdəlik üçün ən əlverişli bazarda baş verir.

Əsas bazar və ya ən əlverişli bazar Cəmiyyət tərəfindən əlçatan olmalıdır. Aktiv və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçılarının öz iqtisadi maraqlarına uyğun hərəkət etdiklərini nəzərə alaraq aktiv və ya öhdəliklərin ədalətli dəyərini müəyyənləşdirərkən bazar iştirakçılarının aktiv və ya öhdəliyin ölçülməsində istifadə etdikləri mülahizələrdən istifadə edilir. Qeyri-maliyyə aktivlərinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivin ən çox və ən yaxşı istifadə tətbiqindən yararlanmaqla ondan istifadə etmək və ya başqa bazar iştirakçısına satmaq yolu ilə iqtisadi mənfəəti artırmaq bacarığı nəzərə alınır.

Cəmiyyət həmin şəraitdə müvafiq olan və ədalətli dəyərin ölçülməsi üçün mövcud olan məlumatlar üzrə müvafiq müşahidə edilən gəlirlərin istifadəsini artıran və müşahidə edilə bilməyən gəlirlərin istifadəsini azaldan qiymətləndirmə üsullarından istifadə edir.

Ədalətli dəyəri ölçülən və maliyyə hesabatında açıqlanmış bütün aktivlər və öhdəliklər aşağıda təsvir edilmiş və bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün mühüm olan ən aşağı səviyyədə məlumatlara əsaslanmış ədalətli dəyər iyerarxiyasında təsnifləşdirilir:

- Səviyyə 1 – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- Səviyyə 2 – aktiv və ya öhdəlik üçün birbaşa və ya dolayısı ilə müşahidə edilə bilən məlumatlar olan ilkin məlumatlardan istifadə edilir;
- Səviyyə 3 – aktiv və ya öhdəlik üçün müşahidə edilə bilməyən məlumatlar olan ilkin məlumatlardan istifadə edilir.

Maliyyə hesabatında dövrü əsasda tanınmış aktivlər və öhdəliklər üzrə Cəmiyyət hər hesabat dövrünün sonunda yenidən təyin edilmiş təsnifatla (bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün zəruri olan ən aşağı səviyyəli məlumata əsaslanmış) iyerarxiyada Səviyyələr arasında köçürmələrin olubolmamasını müəyyən edir.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Cəmiyyət yalnız aktiv üzrə pul daxil olmaları ilə bağlı müqavilə hüquqlarının vaxtı bitdikdə, yaxud maliyyə aktivini və aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün risk və imtiyazları əsas etibarilə digər müəssisəyə ötürdükdə maliyyə aktivinin tanınmasını dayandırır.

**Maliyyə öhdəlikləri və kapital**

*Borc və ya kapital aləti olaraq təsnifləşdirmə*

Borc və kapital alətləri müqavilə razılaşmalarının məzmununa və maliyyə öhdəliyi ilə kapital alətinin təriflərinə uyğun olaraq ya maliyyə öhdəliyi, ya da kapital kimi təsnif edilir.

*Kapital alətləri*

Kapital aləti müəssisənin bütün öhdəlikləri çıxıldıqdan sonra qalan aktivlərində hər hansı bir pay əldə etmək hüququ verən istənilən bir müqavilədir. Cəmiyyət tərəfindən buraxılan kapital alətləri birbaşa buraxılma xərcləri çıxılmaqla əldə edilən vəsaitlərin cəmi məbləğində tanınır.

Cəmiyyətin öz kapital alətlərini satınalması, kapitalı azaldan bir əməliyyatdır və nəticəsi kapital bölümündə tanınır. Cəmiyyətin öz kapital alətlərinin satınalması, satılması, buraxılması və ya ləğv edilməsi ilə bağlı yaranmış mənfəət və zərər məbləğləri mənfəət və zərər hesablarında tanınmamalıdır.

*Maliyyə öhdəlikləri*

Bütün maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə etməklə və MZVƏD əsasında tanınmaqla amortizasiya olunmuş dəyərlə ölçülür.

Maliyyə öhdəliyi (i) biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olduqda, (ii) ticarət və ya (iii) MZVƏD üçün nəzərdə tutldduğu halda maliyyə öhdəlikləri MZVƏD üzrə təsnif edilir.

(i) Biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olmayan, (ii) ticarət və ya (iii) MZVƏD üzrə təsnif edilməyən maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə edərək amortizasiya olunmuş dəyərdə ölçülür. Effektiv faiz metodu maliyyə aktivi və ya maliyyə öhdəliyinin, yaxud maliyyə aktivləri və ya öhdəlikləri qrupunun amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəliri, yaxud faiz xərcinin müvafiq dövr üzrə bölüşdürülməsi üsuludur. Effektiv faiz dərəcəsi borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz hissəsini təşkil edən məntəqələrdə ödənilmiş, yaxud alınmış bütün haqqlar, əməliyyat xərcləri və digər mükafat yaxud endirimlər) ilkin tanınma anında xalis balans məbləğinədək dəqiqliklə diskontlaşdıran dərəcədir.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Cəmiyyət maliyyə öhdəliyini MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda (və ya maliyyə öhdəliyinin bir hissəsini) yalnız bu öhdəlik ləğv edildiyi halda, məsələn müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə və ya ləğv olunduqda və ya müddəti başa çatdığı zaman çıxarır.

Əsaslı şərtlərlə borc alətləri üzrə mövcud debitor və kreditor arasında mübadilə aparılması halları ilkin maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi nəzərə alınır. Eynilə, mövcud maliyyə öhdəliyinin və ya onun bir hissəsinin (debitorun maliyyə çətinlikləri ilə əlaqəli olmasından asılı olmayaraq) şərtlərinin əhəmiyyətli şəkildə dəyişdirilməsi, ilkin maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi tanınır.

Yeni yaradılmış maliyyə öhdəliyinin şərtlərinə əsasən, o cümlədən alınmış hər hansı haqqlar üzrə nağd ödənilmiş haqqlar və ilkin effektiv faiz dərəcəsi ilə diskontlaşdırılmış ödənişlər də daxil olmaqla, pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyəri, ilkin maliyyə öhdəliyi üzrə qalan pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyərindən ən az 10 faiz fərqləndikdə, yeni müddəaların əhəmiyyətli dərəcədə fərqli olması hesab edilir. Borc alətlərinin mübadiləsi və ya şərtlərin dəyişdirilməsi öhdəliyin ləğvi olaraq nəzərə alınırsa, çəkilmiş xərclər və ya haqqlar ləğvetmə üzrə gəlir və ya zərərin bir hissəsi kimi tanınır. Mübadilə və ya dəyişdirmə öhdəliyin ləğvi olaraq nəzərə alınmırsa, hər hansı xərclər və ya haqqlar öhdəliyin qalıq dəyərində düzəliş olaraq tanınır və dəyişdirilmiş öhdəliyin qalan müddəti ərzində amortizasiya olunur.

**Maliyyə alətlərinin əvəzləşdirilməsi**

Maliyyə aktivləri və öhdəlikləri yalnız Cəmiyyətin aktiv və öhdəliklərin əvəzləşdirilməsi üçün müəyyən edilmiş hüququ olduqda, eləcə də Cəmiyyətin müqavilə üzrə əvəzləşdirməni aparmaq və eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda əvəzləşdirilə bilər

**Debitor borcları və digər alınacaq vəsaitlər**

Debitor borcları gözlənilən pul axınlarını effektiv faiz dərəcəsi üsulundan istifadə etməklə amortizasiya dəyərində uçota alınır. Cəmiyyət debitor borcları və müqavilə aktivləri üçün ehtimal olunan kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir. Ehtiyat dərəcələri oxşar zərər modellərinə malik olan müxtəlif müştəri seqmentləri üzrə (yəni, coğrafiya, məhsul növü, müştəri növü və reytinqi, akkreditiv və digər kredit növləri ilə əhatəsi) qruplarda vaxtı keçmiş günlərə əsaslanır.

Ehtiyat cədvəli ilkin olaraq Cəmiyyətin tarixən müşahidə olunmuş defolt dərəcələrinə əsaslanır. Cəmiyyət tarixi kredit zərəri təcrübəsini perspektiv məlumatlarla uyğunlaşdırmaq üçün cədvələ düzəlişlər edir. Məsələn, əgər istehsal sektorunda defolt sayının artmasına gətirib çıxaran proqnozlaşdırılan iqtisadi şərtlər (yəni, ümumi daxili məhsul) gələn il ərzində pisləşəcəkdirsə, bu zaman tarixi defolt dərəcələrinə düzəliş edilir. Hər bir hesabat tarixində tarixi müşahidə olunmuş defolt dərəcələri yenilənir və gələcək perspektiv ehtimallar təhlil edilir. Tətbiq olunduğu hallarda Cəmiyyət qarşı tərəflərin xarici dərəclərindən əldə edilmiş faiz dərəcələrinə əsaslanır.

Tarixi müşahidə olunmuş defolt dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və ehtimal olunan kredit zərəri arasında korrelyasiyanın qiymətləndirilməsi əhəmiyyətli dərəcədə təxminlərdən ibarətdir. Ehtimal olunan kredit zərərinin məbləği şərtlərdə və iqtisadi şəraitdə dəyişikliklərə həssasdır. Cəmiyyətin tarixi kredit zərəri üzrə təcrübəsi və iqtisadi şəraitin proqnozu da gələcəkdə müştərinin faktiki defolt vəziyyətini tam şəkildə əks etdirə bilməz.

**Pul vəsaitləri və onların ekvivalentlər**

Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul vəsaitləri, tranzit pul vəsaitləri, banklardakı cari hesablar və ilkin ödəmə müddəti üç ay və ya daha az olan banklardakı qısamüddətli depozitlər, ƏDV depozit hesabı daxildir.

**Kreditor borcları və digər ödəniləcək vəsaitlər**

Kreditor borcları və digər ödəniləcək vəsaitlər qarşı tərəf müqavilədə nəzərdə tutulmuş öhdəliklərini icra etdiyi zaman tanınır və effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərdə uçota alınır.

**Təchizatçılara verilmiş avans ödənişləri**

Təchizatçılara verilmiş avans ödənişləri zərər üzrə ehtiyat çıxılmaqla ilkin dəyərlə tanınır. Avans ödənişləri ilə bağlı mal və ya xidmətlərin bir ildən sonra əldə ediləcəyi ehtimal olunduqda və ya ilkin tanınma zamanı aktivlə bağlı avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edildikdə hesabat tarixində bu avans ödənişləri

uzunmüddətli aktiv olaraq təsnif edilir. Uzunmüddətli avans ödənişləri maliyyə vəziyyəti haqqında hesabatda əmlak, tikili və avadanlıqların təchizatçılarına avans ödənişləri olaraq təsnif və təqdim edilir.

Aktivlərin əldə olunması üçün ödənilmiş avanslar Cəmiyyət aktivin nəzarətini ələ keçirdikdən sonra aktivin qalıq dəyərinə köçürülür və aktivlə bağlı gələcək iqtisadi səmərələrin Cəmiyyətə daxil olacağı ehtimal olunur. Avans ödənişlərinə aid olan mal və ya xidmətlər əldə olunan zaman digər əməliyyatlar üzrə avans ödənişləri mənfəət və zərər hesablarına silinir. Avans ödənişləri ilə bağlı aktivlər mal və ya xidmətlərin əldə olunmadığına dair göstərici olduqda, avans ödənişlərinin qalıq dəyəri müvafiq olaraq silinir və müvafiq dəyərsizləşmə zərəri məcmu gəlir haqqında hesabatda qeydə alınır.

**ƏDV depozit hesabı**

Əlavə Dəyər Vergisi (“ƏDV”) depozit hesabı sistemi Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən ƏDV ilə bağlı neqativ halların qarşısını almaq məqsədilə tətbiq olunan sistemdir. 1 yanvar 2008-ci il tarixindən Vergilər Məcəlləsinə edilmiş düzəlişlərə əsasən, ƏDV ödənişinin məbləği təqdim olunmuş ƏDV hesab-fakturalarına uyğun olaraq vergi ödəyicisinin ƏDV depozit hesabında aparılan əməliyyatlar çərçivəsində bu hesaba ödənilmiş olduğu vergi məbləğidir.

Bu modulun köməkliyi ilə, vergi ödəyicisi ƏDV hesab fakturasında qeyd olunmuş ƏDV məbləğini digər vergi ödəyicisinin ƏDV depozit hesabına ödəyir. Eyni zamanda dövlət büdcəsi qarşısında bütün növ vergi öhdəlikləri və Gömrük Komitəsinə ödənilməli olan idxal əməliyyatları ilə bağlı ƏDV məbləğləri vergi ödəyicisi tərəfindən ƏDV depozit hesabı vasitəsilə ödənilə bilər. Ödənilmiş məbləğlər barəsində məlumat vergi orqanı tərəfindən Baş Dövlət Xəzinədarlığına və daha sonra Azərbaycan Respublikası Mərkəzi Bankına (“ARMB”) ötürülür. Mərkəzi Bank Baş Dövlət Xəzinədarlığı (“BDX”) tərəfindən təqdim olunmuş məlumat əsasında məbləğlərin müvafiq yerli xəzinədarlıq orqanlarına köçürülməsini təmin edir. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti təqdim olunmuş məlumatda qeyd edilən məbləğlərin vergi ödəyicisinin şəxsi faylına daxil edilməsini təmin edir. Cari sistem Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi Məlumatı Sisteminə qoşulmuşdur. Eyni zamanda BDX-də və ARMB-də elektron məlumat mübadiləsi təşkil olunmuşdur.

ƏDV depozit hesabının tətbiqi ödənişlərə və qaytarılan ƏDV məbləğlərinə vaxtlı-vaxtında nəzarət etmək imkanı verir. Vergi borcları olan vergi ödəyiciləri bu məbləğləri yalnız Dövlət Büdcəsinə köçürə bilər. Vergi ödəyiciləri banklara getmədən dövlət büdcəsinə, digər vergi ödəyicilərinin ƏDV depozit hesabına və Gömrük Komitəsinə depozit hesabı vasitəsilə ödəniş edə bilərlər. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti xüsusi proqram təminatından istifadə etməklə depozit hesabıyla aparılan bütün əməliyyatlara avtomatik şəkildə nəzarət edir.

ƏDV depozit hesabındakı vəsaitlərdən istifadə məhdudlaşdırılmışdır və yalnız ƏDV və digər müvafiq vergilərlə bağlı əməliyyatlar üçün istifadə edilə bilər.

**Vergilər**

**Təxirə salınmış vergi**

Təxirə salınmış vergi aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun qalıq dəyərləri ilə onların vergiyə uyğun qalıq dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlər əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivinin qalıq dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa məcmu gəlir hesabında əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır.

Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək xalis şəkildə təqdim edilə bilər:

- Cəmiyyətin cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edildikdə və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olduqda.

**Əlavə Dəyər Vergisi**

Ödəniləcək ƏDV və iddia olunan əvəzləşdiriləcək ƏDV arasındakı fərq hesabat ayından sonra 20 gün ərzində dövlət büdcəsinə ödənilir. Satış ilə əlaqədar ödəniləcək əlavə dəyər vergisi vergi orqanlarına bu satışların qarşılığında ödəniş alındıqda ödənilir. Əvəzləşdiriləcək ƏDV bir qayda olaraq elektron ƏDV hesab fakturası alındıqdan sonra ödəniləcək ƏDV ilə əvəzləşdirilir. Vergi orqanları ƏDV-nin xalis əsaslarla hesablanmasına icazə verir.

Satış və alış ilə əlaqədar olan ƏDV maliyyə vəziyyəti hesabatında ümumi məbləğdə uçota alınır və aktiv və öhdəlik kimi ayrıca olaraq açıqlanır. Alınacaq vəsaitlərin dəyərsizləşməsi ilə əlaqədar ehtiyat yaradıldıqda, dəyərsizləşmə zərəri ƏDV daxil olmaqla borcluya aid olan ümumi məbləğin tərkibində uçota alınır.

**Əmlak vergisi**

Əmlakın qalıq dəyərini aşan dəyərində sığortalanması və əmlak vergisinin bazar dəyəri ilə hesablanması halları istisna olmaqla, daimi nümayəndəliyi olan rezident hüquqi şəxslər və qeyrirezident hüquqi şəxslər üçün vergi tutulan baza onların əsas vəsaitlərinin orta illik qalıq dəyəridir. Bununla belə hüquqi şəxslərin mülkiyyətində olan əsas vəsaitlərin orta illik qalıq dəyəri 1% nisbətində əmlak vergisinə cəlb olunur. Eyni zamanda, rezident və qeyri-rezident fiziki şəxslərə münasibətdə vergi tutulan baza, əmlak vergisinin dərəcəsinin sahib olduğu aktivin növünə görə dəyişdiyi tikililər və onların hissələri, habelə rezident fiziki şəxslərin su və hava nəqliyyatı vasitələrindən ibarətdir.

Hesabat dövrü təqvim ilinə bərabərdir. Əsas vəsaitlərə sahib olan hüquqi şəxslər, vergi bəyannaməsini hesabat dövründən növbəti ilin 31 mart tarixindən gec olmayaraq təqdim etməlidirlər. Əmlak vergisi ödəyicisi hüquqi şəxslər vergiləri hər rübün ikinci ayının 15-nə qədər avans ödənişləri yolu ilə (keçən il əmlak vergisinin 20%-i) yuxarıda qeyd olunan sənəd tarixindən gec olmayaraq son balanslaşdırma ödənişi ilə ödəyirlər.

Azərbaycan Respublikasında, həmçinin Cəmiyyətin fəaliyyətinə görə hesablanan müxtəlif vergilər mövcuddur. Bu vergilər məcmu gəlirlər haqqında hesabata daxil edilir.

**Nizamnamə kapitalı**

Nizamnamə kapitalı Cəmiyyətin səhmdarının qoyduğu kapitalın məbləğidir. Cəmiyyət nizamnamə kapitalını səhmdarın təsdiqi çərçivəsində artıra və ya azalda bilər.

**Xarici valyuta əməliyyatları**

Cəmiyyətin funksional valyutası fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin funksional valyutası ABŞ dollarıdır (“USD”).

Monetar aktiv və öhdəliklər ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan, rəsmi valyuta məzənnəsinə əsasən hər bir müəssisənin funksional valyutasına çevrilir. Xarici valyuta əməliyyatları əməliyyat tarixində mövcud olan məzənnə ilə uçota alınır.

İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızların ədalətli dəyərinə təsiri ədalətli dəyər üzrə yenidən qiymətləndirmə nəticəsində gəlir və ya xərclərin bir hissəsi kimi qeydə alınır.

Maliyyə hesabatının hazırlanması zamanı Cəmiyyət aşağıda göstərilən valyuta məzənnələrindən istifadə etmişdir:

| | | **31.12.2019** | **31.12.2018** |
|---|---|---|---|
| **Valyuta** | **Kod** | **Məzənnə** | **Məzənnə** |
| 1 ABŞ dolları | USD | 1.7000 | 1.7000 |
| 1 Avro | EUR | 1.9035 | 1.9468 |
| 1 Rusiya rublu | RUB | 0.0274 | 0.0245 |

**Şərti öhdəliklər və aktivlər**

Şərti öhdəliklər MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Onlar iqtisadi cəhətdən səmərəli resursların məxarici ehtimalı olmayanadək MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatın qeydlərində açıqlanır.

Şərti aktivlər MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda qeyd olunmur, lakin, iqtisadi mənfəət əldə edilməsi ehtimalı olduqda maliyyə hesabatında açıqlanır.

**Gəlirlər**

Gəlir müəssisənin adi fəaliyyətindən yaranan mədaxildir. Mədaxil dövr ərzində səhmdarların əlavə kapital qoyuluşları istisna olmaqla, aktivlərin daxil olması, böyüməsi və ya öhdəliklərin azalması səbəbindən müəssisənin kapitalının artması ilə nəticələnənən iqtisadi faydalardır.

Gəlir hesablama metodu ilə tanınır. Gəlirin tanınması onunla bağlı pul vəsaitinin ödənilməsi heç də əsas şərt deyil. Məhsulların satışından əldə edilən gəlirlər adətən həmin məhsulların yükləndiyi zaman məhsullar üzərində nəzarətin ötürüldüyü anda qeydə alınır. Gəlir ƏDV, aksiz, güzəştlər və satışdan tutulan digər vergilər (əgər mövcuddursa) çıxılmaqla göstərilir.

Gəlir məhsul və ya xidmətlərin müştərinin nəzarətinə verildikdə tanınır. Nəzarət alıcının aktivdən qalan faydaya sahib olma və ondan istifadəyə əsaslanır. Müəssisə kontrakt bağlanarkən məhsul və ya xidmət üzərində nəzarətin dövr üzrə və ya konkret vaxt anında keçdiyini təyin etməlidir.

Cəmiyyət gəliri dövr üzrə aşağıdakı şərtlər daxilində tanıya bilər:

- Cəmiyyət öhdəlikləri icra etdikcə alıcı faydanı qəbul edir və istehlak edir – adətən xidmət müqavilələrinə şamil edilir, məsələn təmizlik xidmətləri
- Cəmiyyət müştərinin nəzarət etdiyi aktivləri yaradır və ya artırır – belə hallar adətən müəssisə məhsulu istehsal etdikcə müştərinin onu əldə etməsi hallarında olur

- Cəmiyyətin yaratdığı aktivin alternativ istifadəsi yoxdur və müəssisə işin görüldüyü tarixə ödənişi almağa hüququ var – bu şərt əməliyyatın yuxarıdakı iki hala uyğun olmadığı halda nəzərdən keçirilir.

Əgər öhdəlik dövr üzrə icra olunmursa müəssisə gəliri konkret vaxt anında tanıyır.

Nəzarətin Cəmiyyətdən alıcıya keçməsini aşağıdakı indikatorlar göstərir:

- Cəmiyyətin ödənişi almaq hüququ yaranıb
- Cəmiyyət aktivin hüquqi titulunu müştəriyə ötürüb
- Aktivin fiziki sahibliyi müştəriyə ötürülüb
- Cəmiyyət əməmiyyətli riskləri və mükafatları müştəriyə ötürüb
- Müştəri aktivi qəbul edib.

Gəlirin tanınması üçün yuxarıdakı meyarların hamısının eyni zamanda yerinə yetirilmiş olması zəruri deyil. Cəmiyyətdə iş və xidmətlərin göstərilməsi zamanı gəlirlər hazırkı tarixədək çəkilmiş məsrəflərin əməliyyat üzrə qiymətləndirilmiş ümumi məsrəflərə faiz nisbəti metodundan istfadə edərək tanınırlar.

**Xərclər**

***Müqavilə xərclərinin tanınması***
Cəmiyyət müqaviləni əldə etmək üçün çəkdiyi marjinal xərcləri bərpa edəcəyinə əmindirsə onu aktiv kimi tanımalıdır. Artan (marjinal) xərclər müqaivləni əldə etməklə əlaqədar ortaya çıxan xərclərdir. Müqavilədən asılı olmayaraq mövcud olan xərclər isə kapitallaşdırılmamalıdır. Əgər kapitallaşdırılan xərclərin amortizasiya müddəti bir ildən az olarsa Cəmiyyət belə xərcləri yarandıqca silə bilər.

***Xərclərin uçotu***
Xərc gəliri əldə etmək üçün çəkilən məsrəfdir. Xərc ödəmə vaxtından asılı olmayaraq müəssisənin ödəmə öhdəliyi yarandığı və resursların müəssisədən kənara getməsi əminliyi yarandığı anda tanınır.
Müəssisələrdə istehsal xərclərinin uçotu (məhsulun maya dəyərinin kalkulyasiyası) normativ metodu ilə aparılır.
Dolayı (ümumistehsal) xərclər istehsal olunan məhsullar arasında material xərclərinə mütənasib bölünür.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Cəmiyyətin MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatın hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verməsini tələb edir.

Nəticədə biznes fəaliyyətlərinin qeyri-müəyyənliyi nəticəsində MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda bir çox maddələrin dəqiq qiymətləndirilməsi mümkün olmur və yalnız müəyyən ehtimallar irəli sürülə bilər. Ehtimallar MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabat hazırlanarkən ən son məlumatlara əsaslanan mühakimələri nəzərdə tutur. Gələcək hadisələr haqqında mövcud vəziyyət və ehtimallar Cəmiyyətin nəzarətindən kənarda yaranan bazar dəyişiklikləri və ya şəraitə görə dəyişə bilər. Bu cür dəyişikliklər baş verdikləri zaman Cəmiyyət tərəfindən edilən təxminlərdə öz əksini tapır.

Ən əhəmiyyətli təxminlər əmlak və avadanlıqların amortizasiya dövrü, maliyyə və qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi, maliyyə alətlərinin ədalətli dəyəri, köhnəlmiş mal və material ehtiyatları üzrə ehtiyatlar ilə bağlıdır. Faktiki nəticələr həmin təxminlərdən fərqli ola bilər.

**Mülahizələr**

Cəmiyyətin mühasibat uçotu siyasətinin tətbiq edilməsi prosesində rəhbərlik MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatında tanınmış məbləğlər üzrə nəzərə alınmış əhəmiyyətli təsiri olan təxminlərdən başqa aşağıdakı mülahizələri edir.

***Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlər üzrə ədalətli dəyər***

Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin Cəmiyyətə təhvil verildiyi tarixə hesablanmış şərti dəyər olaraq ədalətli dəyərlə ölçülmüşdür.

Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin bazar dəyəri, 13 saylı MHBS-ə əsasən əmlakın, tikili və avadanlıqların ədalətli dəyərinə bərabər olan bənzər əmlak, tikili və avadanlıqlar üçün bazar satış qiymətlərinin təhlilini əhatə edən bazar yanaşması metodu ilə qiymətləndirilmişdir.

***Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti***

Cəmiyyət hər maliyyə ilinin sonunda əmlak, tikili, avadanlıqlar və qeyri-maddi aktivlərin qalan faydalı istifadə müddətini qiymətləndirir. Bu aktivlərin nəzərdə tutulan faydalı istifadə müddəti ötən ilin qiymətləndirilməsindən fərqli olduqda, 8 saylı MUBS “Uçot Siyasətləri, Uçot Qiymətləndirmələrində Dəyişikliklər və Xətalar” standartına müvafiq olaraq uçot təxminlərində dəyişiklik olaraq uçota alınır. Belə təxminlərin əmlak, tikili və avadanlıqların qalıq dəyərlərinin məbləğləri və mənfəət və zərərdə tanınmış amortizasiya üzrə təsirləri olur.

***Əmlak, tikili və avadanlıqların və digər qeyri-maliyyə aktivlərin dəyərsizləşməsi***

Cəmiyyət hər bir hesabat tarixinə aktivlərin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa və ya fərdi aktiv üçün illik dəyərsizləşmə üzrə təhlil tələb edilirsə Cəmiyyət aktivin əvəz olunması dəyərini təxmin edir. Aktivin əvəz olunma dəyəri onun digər aktivlərdən müstəqil şəkildə pul vəsaitləri yaratmaq qabiliyyətinin olduğu hallar istisna olmaqla, aktivin və ya pul vəsaiti yaradan vahidin ən yüksək ədalətli dəyərindən satış xərcləri və istifadə dəyəri çıxılması nəticəsində yaranan dəyərə bərabərdir. Aktivin ədalətli dəyəri onun əvəzolunma dəyərindən artıq olduqda aktiv dəyərsizləşmiş hesab edilir və onun qalıq dəyəri müvafiq olaraq azaldılır. İstifadə dəyərini qiymətləndirərkən, pulun zaman dəyəri və aktivə xas olan risklərin cari bazar qiymətləndirməsini əks etdirən vergidən öncə diskont dərəcəsi istifadə edilərək ehtimal olunan gələcək pul axınları mövcud dəyərinə diskontlaşdırılır. Satış xərcləri çıxılmaqla ədalətli dəyəri müəyyən edərkən, cari bazar əməliyyatları (mövcud olduqda) nəzərə alınır. Bu cür əməliyyatlar müəyyən edilə bilmədikdə, müvafiq qiymətləndirmə modeli istifadə olunur.

Cəmiyyət dəyərsizləşmə üzrə hesablamanı, fərdi aktivin ayrıldığı Cəmiyyətin hər bir nağd yaradan vahidi (CGU) üçün ayrı-ayrılıqda hazırlanan ətraflı büdcələrə və proqnoz hesablamalarına əsaslanır. Bu büdcələr və proqnoz hesablamaları ümumilikdə 5 illik dövrü əhatə edir. Daha uzun dövrlər üçün, uzunmüddətli böyümə sürəti müəyyənləşdirilir və beşinci ildən sonra gələcək pul vəsaitlərinin hərəkəti üçün tətbiq olunur.

***Mal-material ehtiyatlarının qiymətləndirilməsi***

Mal-material ehtiyatları maya dəyər və ya xalis satış dəyərindən daha az olan məbləğdə qiymətləndirilir. Cəmiyyət uyğun olduqda köhnəlmiş və az istifadə edilən mal-material ehtiyatlarının qalıq dəyərini xalis satış dəyərinə qədər azaldaraq uçota alır. Mal-material ehtiyatlarının silinməsi üzrə yaranan faktiki dəyər xalis satış dəyərindən fərqli ola bilər; istənilən fərqin gələcək əməliyyat nəticələri üzərində əhəmiyyətli təsiri ola bilər.

**ƏDV-nin bərpası**

Hər hesabat tarixində Cəmiyyət mal və xidmətlərin satışından yaranan ƏDV-nin bərpasını qiymətləndirir. Cəmiyyət bu məbləğləri yalnız gələcəkdə yaranacaq ƏDV öhdəliyinin əvəzləşdirilməsi və ya vergi orqanlarından toplanması vasitəsilə ala bilər. ƏDV üzrə alınacaq vəsaitlərin bərpası qiymətləndirilərkən Cəmiyyət planlaşdırılmış ƏDV öhdəliyi, dövlət vergi orqanları ilə yazışmaları və tarixi bərpa təcrübəsi ilə bağlı daxili vergi departamentindən alınan məlumatları nəzərə alır.

ƏDV-nin bərpasının cari məbləği Cəmiyyətin təxminlərindən əhəmiyyətli dərəcədə fərqlənə bilər və bu da öz növbəsində əməliyyat nəticələrinə təsir göstərə bilər.

***Maliyyə alətlərinin ədalətli dəyərinin ölçülməsi***

Cəmiyyətin bir sıra mühasibat uçotu siyasəti və açıqlamaları, maliyyə və qeyri-maliyyə aktivləri və öhdəlikləri üçün ədalətli dəyərin ölçülməsini tələb edir.

Cəmiyyət ədalətli dəyərin ölçülməsi ilə əlaqədar olaraq müəyyən nəzarət çərçivəsinə malikdir.

Aktiv və ya öhdəliyin ədalətli dəyərini ölçərkən, Cəmiyyət mümkün qədər bazarda müşahidə edilə bilən məlumatlardan istifadə edir. Ədalətli dəyərlər aşağıdakı qiymətləndirmə üsullarında istifadə olunan məlumatlara əsaslanaraq ədalətli dəyər iyerarxiyasında müxtəlif səviyyələrdə təsnifləşdirilir.

-  *Səviyyə 1* – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
-  *Səviyyə 2* – aktiv və ya öhdəlik üzrə birbaşa (yəni qiymətlər) və ya dolayı yolla (yəni qiymətlərdən əldə edilir) müqayisə edilə bilən 1-ci düzəlişdə daxil edilmiş qiymətlərdən başqa daxilolmalar;
-  *Səviyyə 3* – aktiv və ya öhdəlik üçün müşahidə edilə bilməyən məlumatlar olan ilkin məlumatlardan istifadə edilir.

Bir aktivin və ya öhdəliyin ədalətli dəyərini ölçmək üçün istifadə edilən məlumatlar, ədalətli dəyər iyerarxiyasının müxtəlif səviyyələrində təsnif edilə bilərsə, ədalətli dəyər iyerarxiyasının eyni dərəcəsi bütün ölçmə üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş kimi ədalətli dəyərin ölçülməsi bütünlükdə təsnif edilir.

***Cari vergilər***

Azərbaycanda vergi, valyuta və gömrük qanunvericiliyi tez-tez baş verən şərhlərə və dəyişiklərə məruz qalır. Bundan başqa Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq olunan vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərhi, Cəmiyyətin rəhbərliyinin şərhi ilə uyğun gəlməyə bilər. Nəticədə, vergi orqanları əməliyyatları yenidən təsnif edə bilər və Cəmiyyətin işçiləri əhəmiyyətli dərəcədə əlavə vergi, cərimə və faiz ödəmələrinə məruz qala bilərlər.

Vergi və gömrük qurumları müəssisənin fəaliyyətinin nəzərdən keçiriləcəyi ildən əvvəlki üç il ərzində vergi öhdəliklərini yoxlaya bilərlər. Cəmiyyətin fəaliyyətinin nəzərdən keçirilməsi müəyyən şərtlər çərçivəsində daha uzun müddətləri də əhatə edə bilər. 1 yanvar 2020-ci il tarixinə rəhbərlik hesab edir ki, onların müvafiq qanunvericiliklə bağlı şərhləri uyğundur və ehtimal olunur ki, Cəmiyyətin vergi, valyuta və gömrüklə bağlı cari vəziyyəti dəyişməyəcək.

***Təxirə salınmış vergilər***

Təxirə salınmış vergi aktivləri istifadə olunmayan vergi zərərləri üçün zərərlərin istifadə oluna biləcəyi vergiyə cəlb olunan mənfəətin olması ehtimalı daxilində tanınır. Gələcək vergi planlaşdırma strategiyaları ilə birlikdə ehtimal olunan vaxt və gələcək vergiyə cəlb olunan mənfəət səviyyəsinə əsaslanaraq, təxirə salınmış vergi aktivlərinin məbləğini müəyyənləşdirmək üçün əhəmiyyətli idarəetmə qərarı tələb olunur.

## 4. YENİ VƏ YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN QƏBUL EDİLMƏSİ

Cəmiyyət, fəaliyyətinə aid olan və 31 dekabr 2019-ci il tarixində başa çatan illik hesabat dövrü üçün qüvvədə olan BMUSŞ və BMUS-un BMHŞK tərəfindən dərc olunmuş və tətbiq olunan bütün yeni və yenidən işlənmiş Standart və Şərhləri qəbul etmişdir. Aşağıdakı standartların 1 yanvar 2020-ci il tarixindən sonra 1 yanvar 2022-ci il tarixinədək qüvvəyə minməsi gözlənilir. Bununla belə, 1 saylı MHBS-ə əsasən, Cəmiyyət bu standartları daha əvvəl qəbul etmişdir.

**3 saylı MHBS Müəssisələrin Birləşməsi. “Müəssisə” tərifinə edilən Düzəliş** – Düzəlişlər şirkətlərə əldə edilmiş aktivlərin müəssisə və ya aktivlər qrupu olduğunu müəyyənləşdirməyə kömək edəcək.

Edilmiş düzəliş biznes xidmətlərinin nəticələrinin müştəriləri məhsul və xidmətlər ilə təmin etmək olduğunu vurğulayır. Halbuki əvvəlki anlayışa əsasən, biznes anlayışı dividend şəklində, daha aşağı xərclərə və ya investorlara və digərlərinə iqtisadi mənfəət təmin etmək məqsədi daşıyırdı. Alınan aktivin biznes və ya aktivlər qrupu olduğunu fərqləndirmək vacibdir, çünki, alıcı qudvili yalnız biznes alarkən tanıyır. Dəyişikliklərə əsasən, “biznes”in yeni tərifi müştərilərə məhsul və ya xidmətlər təqdim etmək, investisiya gəliri yaratmaq (məsələn, dividendlər və faizlər) və ya adi fəaliyyətdən digər gəlirlər yaratmaq məqsədilə aparıla və idarə oluna bilən fəaliyyət və aktivlərin məcmusudur.

Şirkətlərdən “Müəssisə” tərifinə edilən düzəlişi 1 yanvar 2020-ci il tarixində və ya bu tarixdən sonra baş verən satınalmalara tətbiq etmələri tələb olunur. Standartın daha erkən tətbiq edilməsinə icazə verilir. Cəmiyyət bu düzəlişin tətbiqinin təsirlərini qiymətləndirmiş və MHBS əsasında hazırlanmış maliyyə hesabatlarında heç bir dəyişiklik edilməmişdir.

**“Əhəmiyyətlilik” anlayışının yeni tərifi** – MUBSŞ şirkətlərin əhəmiyyətliliklə bağlı qərarları daha asan verməsi üçün əhəmiyyətlilik prinsipinə düzəlişlər dərc etmişdir. Yeni dəyişikliklər 1 saylı BMUS “Maliyyə Hesabatlarının Təqdimatı” və 8 saylı BMUS “Mühasibat Uçotu Qaydaları, Uçot Ehtimallarındakı Dəyişikliklər və Xətalar”a şamil edilir.

Dəyişikliklər əhəmiyyətliliyin tərifini və bu günə qədər MHBS-in digər standartlarında göstərilmiş olan əhəmiyyətlilik prinsiplərinin tətbiqi ilə bağlı təlimatları da hesabat hazırlayanlar üçün aydınlaşdırır. Yeni tərifə əsasən, məlumat o zaman əhəmiyyətli sayılır ki, onun gizlədilməsi, təhrif edilməsi və ya dəyişdirilməsinin maliyyə hesabatını ümumi məqsədlər üçün istifadə edən əsas tərəflərin qərarlarına təsir etməsi ehtimal edilir və bu məlumat hesabat hazırlayan konkret müəssisə üzrə maliyyə məlumatı xarakterinə malikdir.

Dəyişikliklər 1 yanvar 2020-ci ildən qüvvəyə minir. Daha erkən tətbiq olunmasına icazə verilir. Cəmiyyət bu dəyişikliyin tətbiq edilməsinin təsirlərini qiymətləndirmiş və MHBS əsasında maliyyə hesabatlarının hazırlanmasında bu təsirləri nəzərə almışdır.

Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) Banklararası Təklif Olunan Faiz Həddi (“BTFH”) üzrə aparılan islahatların maliyyə hesabatlılığı üzrə yarana biləcək potensial təsirinə cavab olaraq, **“Baza Faiz Dərəcəsi İslahatı”-nı (9 saylı MHBS, 39 saylı BMUS və 7 saylı MHBS-ə edilmiş Düzəlişləri”)** dərc etmişdir. Baza faiz dərəcəsi islahatlarına əsasən:

- islahat nəticəsində müəssisələrin, hedc olunmuş pul axınlarının və hedcinq aləti üzrə pul axınlarının əsaslandığı baza faiz dərəcəsinin dəyişilməyəcəyini ehtimal edərək, tətbiq ediləcək hedcinq uçotu üzrə bəzi tələblər yenidən müəyyənləşdirilir;
- baza faiz dərəcəsi islahatı birbaşa təsir etdiyi bütün hedcinq münasibətləri üçün məcburidir;
- bu islahat, islahat nəticəsində yaranacaq digər nəticələrin həlli üçün nəzərdə tutulmamışdır (əgər hedcinq münasibətləri düzəlişlərdə göstərilməmiş səbəblər nəticəsində, hedcinq uçotu tələblərinə cavab vermirsə, hedcinq uçotunun dayandırılması tələb olunur); və
- düzəlişlərin müəssisələrin hedcinq münasibətlərinə hansı dərəcədə təsir göstərməsi barədə xüsusi açıqlamalar tələb olunur.

Dəyişikliklər 1 yanvar 2020-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq edilməlidir. Erkən tətbiq olunmasına icazə verilir. Cəmiyyət bu dəyişikliyin tətbiq edilməsinin təsirlərini qiymətləndirmiş və MHBS əsasında hazırlanmış maliyyə hesabatlarında heç bir dəyişiklik edilməmişdir.

15 may 2020-ci ildə BMUSŞ icarəçilərə “**COVID-19 ilə əlaqəli İcarə Güzəştləri (16 saylı MHBS-ə edilmiş Düzəliş)”** icarəçilərə COVID-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olub-olmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi düzəlişi edilmişdir.

COVID-19 ilə əlaqəli İcarə Güzəştləri üzrə dəyişikliklər (16 saylı MHBS-ə edilmiş düzəliş) 16 saylı MHBS-ə aşağıdakı düzəlişləri etmişdir:

- icarəçilərə COVID-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olub-olmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi;
- güzəşt tətbiq edən icarəçilərdən, icarə modifikasiyası olmadığı kimi, COVID-19 ilə əlaqəli icarə güzəştlərini hesaba vermələrini tələb etmək;
- güzəşt tətbiq edən icarəçilərdən bu faktı açıqlamalarını tələb etməlidir; və
- icarəçilərdən 8 saylı BMUS-a uyğun olaraq güzəşt tədbirlərini retrospektiv şəkildə tətbiq etmələrini tələb etsələr də, əvvəlki dövr rəqəmlərini yenidən tələb etmələrini tələb etmirlər.

Dəyişikliklər 1 iyun 2020-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir. 28 may 2020-ci il tarixində dərc olunması hələ də təsdiqlənməmiş maliyyə hesabatı da daxil olmaqla, erkən tətbiq olunmasına icazə verilir. Düzəliş aralıq hesabatlar üçün də uyğundur.

## 5. DƏRC OLUNMUŞ, LAKİN, HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Bu maliyyə hesabatlarının təsdiq olunduğu tarixdə, qüvvədə olma tarixindən əvvəl Cəmiyyət tərəfindən qəbul edilmiş Standartlar və Şərhlər istisna olmaqla, aşağıdakı Şərhlər dərc edilmiş, lakin, hazırda qəbul edilməmişdir.

**Öhdəliklərin təsnifatına aydınlıq gətirilməsi ilə bağlı 1 saylı BMUS üzrə Düzəlişlər** – 2020-ci il yanvar ayında BMUSŞ “Cari və Uzunmüddətli olmaqla, Öhdəliklərin Təsnifatı (1 saylı BMUS üzrə Düzəlişlər)” dərc etmişdir. Düzəlişlər öhdəliklərin 1 saylı BMUS-a əsasən, hesabat tarixinə müqavilə razılaşmaları üzrə təsnifatına daha ümumi yanaşma təklif edir. Öhdəliklərin cari və uzunmüddətli olmaqla təsnifatı üzrə düzəlişlər (1 saylı BMUS üzrə Düzəlişlər) aktiv öhdəlik üzrə gəlirlərin və ya xərclərin tanınma müddətinə və ya məbləğinə, eləcə də bu anlayışlar üzrə müəssisənin təqdim etdiyi açıqlamalara deyil, yalnız öhdəliklərin maliyyə vəziyyəti haqqında hesabatdakı təqdimatına təsir edir. Düzəlişlər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq olunmalıdır. Düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**17 saylı MHBS “Sığorta müqavilələri”** 2017-ci ilin may ayında verilmiş və 4 saylı MHBS “Sığorta müqavilələri”ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə 17 saylı MHBS “Sığorta müqavilələri”ni tətbiq etməlidir.

17 saylı MHBS, 1 yanvar 2023-cü il və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. 15 saylı MHBS “Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir” və 9 saylı MHBS “Maliyyə Alətləri” standartları ilə birlikdə tətbiq olunarsa, erkən tətbiqinə icazə verilir.

**10 saylı MHBS “Konsolidasiya Edilmiş Maliyyə Hesabatları” və 28 saylı BMUS (düzəlişlər):**

**“İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi” –** 10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya edilən əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya edilən assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır.

Düzəlişlərin qüvvəyə minmə tarixi hələ ki, MUBSŞ tərəfindən müəyyən edilməmişdir, lakin, düzəlişlərin erkən tətbiqinə icazə verilir.

## 6. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ QALIQLAR VƏ ƏMƏLİYYATLAR

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar eyni Cəmiyyətin nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətlər nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, istiqsadi məzmununa diqqət yetirilir.

Cəmiyyət dövlət müəssisələri ilə əlaqədar 24 saylı “Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması” adlı MUBS əsasında əlaqəli tərəflə əməliyyatlar və cari qalıqlar, o cümlədən təəhhüdlər ilə bağlı müəyyən məlumatların açıqlanması tələblərindən istisnanı tətbiq etmişdir. Hər bir əlaqəli tərəf ilə bağlı münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir. Cəmiyyətin bilavasitə nəzarətçi tərəfi Azərbaycan Respublikası Hökumətinə məxsus olan “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətidir.

Cəmiyyət dövlət ilə əlaqəli qurumlar üçün açıqlama tələbi ilə əlaqədar 24 saylı MUBS “Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması”nın 25-ci bəndində qeyd olunmuş güzəştdən istifadə etmişdir.

Hesabat təqdim edən müəssisə əlaqəli tərəf əməliyyatları və öhdəliklər daxil olmaqla, qalıq borclarla əlaqəli 24 saylı “Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması” adlı MUBS-un 18-ci bəndinin açıqlama tələblərindən azaddır.

Hesabat təqdim edən müəssisə əlaqəli tərəf əməliyyatları və öhdəliklər də daxil olmaqla, qalıq borclarla əlaqəli 24 saylı “Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması” adlı MUBS-un 18-ci bəndinin açıqlama tələblərindən aşağıdakılar ilə birlikdə azaddır:

(a) hesabat təqdim edən müəssisə nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olan hökumət; və

(b) eyni hökumətin həm təqdim edən müəssisənin, həm də digər təşkilatın nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olduğu üçün əlaqəli tərəf olan başqa bir müəssisə.

Dövlətlə əlaqəli təşkilatlarla əməliyyatlara elektrik enerjisi, qaz, benzin alınması və digər xidmətlərin alınması daxildir.

31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərində əlaqəli tərəflərlə aparılan əməliyyatlar üzrə qalıqlar aşağıdakı kimidir:

| | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|
| **Aktiv və öhdəliklər üzrə qalıqlar** | | |
| Debitor borc | 22,862 | - |
| Kreditor borc | 2,970,204 | - |

31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixləri üzrə əlaqəli tərəflərlə aparılan əməliyyatlardan yaranan gəlir və xərclər aşağıdakı kimidir:

| | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|
| **Gəlir və xərclər** | | |
| Gəlirlər | 12,971 | - |
| Xərclər | 330,432.69 | 50,678.40 |

## 7. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR

| | Binalar və bənzər tikililər | Torpaq | Maşınlar və avadanlıqla r | Nəqliyyat vasitələri | Digər | Qeyri maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| İlkin dəyər 31 dekabr 2019-cu il | 66,600,546 | | 170,182,966 | 556,136 | 610,512 | 33,275 | **237,983,435** |
| Yığılmış könəlmə 31 dekabr 2019-cu il | (3,313,847) | | (11,454,514) | (79,240) | (49,726) | (26,061) | **(14,923,388)** |
| Xalis qalıq dəyəri 31 dekabr 2019-cu il | 63,286,699 | - | 158,728,452 | 476,896 | 560,786 | 7,214 | **223,060,047** |

31 dekabr 2019-cu il tarixinə, əmlak, tikili və avadanlıqlar kateqoriyasına aid, istifadəsinə məhdudiyyət qoyulmuş və ya öhdəliklərin təminatı olaraq girov qoyulmuş hər hansı bir aktiv mövcud olmamışdır.

## 8. MAL-MATERİAL EHTİYATI

Mal-material ehtiyatlarına daxildir:

| | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|
| Xammal | 21,253,468 | 9,469,589 |
| Emalda olan mal-material | 1,505,690 | 1,121,536 |
| Hazır məhsul | 24,113,337 | 53,229,105 |
| Digər | 6,924,773 | |
| **Cəmi mal-material ehtiyatları** | **53,797,268** | **63,820,231** |

## 9. DEBİTOR BORCLARI

31 dekabr 2019-cu il tarixinə debitor borcları 72,687 AZN məbləğində ipək məhsullarının satışından yaranmış alınacaq vəsaitlərdən ibarətdir.

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| Debitor borclar | 19,679,572 | 6,722,325 |
| **Cəmi** | **19,679,572** | **6,722,325** |

Debitor borcları faiz gəliri yaratmır, adətən 1 aya qədər ödənilir və AZN ilə ifadə olunur. Cəmiyyətin debitor borclarının coğrafi konsentrasiyası Azərbaycan Respublikası olmuşdur.

## 10. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

Pul vəsaitləri və onların ekvivalentlərinə aşağıdakılar daxildir:

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| Banklarda yerləşdirilmiş vəsaitlər (AZN) | 27,737,078 | 44,108,453 |
| Banklarda yerləşdirilmiş vəsaitlər (ABŞ dolları) | | |
| Kassadakı pul vəsaitləri | 2,590,269 | - |
| ƏDV depozit hesabı | 353,208 | 42,016 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **30,680,555** | **44,150,469** |

## 11. DİGƏR CARİ AKTİVLƏR

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| Təchizatçılara verilmiş avans ödənişləri | 5,789,816 | 21,534,568 |
| Vergilər üzrə alınacaq vəsaitlər | 6,519,883 | |
| **Cəmi digər cari aktivlər** | **12,309,699** | **21,534,568** |

## 12. KREDİTOR BORCLARI VƏ DİGƏR ÖDƏNİLƏCƏK VƏSAİTLƏR

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| Mal-material ehtiyatları üzrə faiz yaradan kreditor borcları | 30,957,234 | 18,050,347 |
| **Cəmi kreditor borcları** | **30,957,234** | **18,050,347** |
| Mal-material ehtiyatları və digər xidmətlər üzrə kreditor borcları | 18,663,594 | 51,595,386 |
| **Cəmi digər ödəniləcək vəsaitlər** | **18,663,594** | **51,595,386** |
| **Cəmi kreditor borcları və digər ödəniləcək vəsaitlər** | **49,620,828** | **69,645,733** |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlərin cari hissəsi | 38,499,561 | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlərin uzunmüddətli hissəsi | 11,121,267 | |
| **Cəmi kreditor borclar və digər ödəniləcək vəsaitlər** | **49,620,828** | |

Kreditor borcları üzrə qalıqlar adətən 1 ayadək olan dövrdə ödənilir və AZN ilə ifadə olunur. Cəmiyyətin kreditor borclarının coğrafi konsentrasiyası Azərbaycan Respublikası ərazisində olmuşdur.

23 noyabr 2018-ci il tarixində “Det-Al Metal DMCC”, “Det-Al Alüminium” MMC, “Noble Resources International PTE limited” və “Azəralüminium” MMC arasında 30,350 min ABŞ dolları məbləğində mal-material kateqoriyasına aid aktivlərin alqı-satqısı müqaviləsi imzalanmışdır. Bu müqaviləyə əsasən, razılaşdırılmış məbləğlər 30 iyun 2021-ci il tarixinədək illik 3.16% dərəcəsi ilə, alınmış məhsullar üçün “Azeraluminium” MMC tərəfindən “Noble Resources International PTE Limited”ə ödəniləcək.

## 13. SAİR QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR

Sair qısamüddətli öhdəliklər olaraq təsnifləşdirilmiş öhdəliyə 4,946,267 AZN məbləğində təsisçidən alınmış qısamüddətli, faizsiz, borc daxildir.

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| Əlaqəli tərəflərdən alınmış borc | 2,970,204 | |
| Alınmış avanslar | 1,976,063 | 911066.28 |
| | | 219146.38 |
| **Cəmi sair qısamüddətli aktivlər** | **4,946,267** | **1,130,213** |

## 14. NİZAMNAMƏ KAPİTALI

31 dekabr 2019-cu il tarixinə nizamnamə kapitalı 282,243,699 AZN təşkil etmiş və bir pay üzrə 282,243.699 AZN nominal dəyəri olan 100 paydan ibarətdir.

| | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|
| Nizamnamə kapitalı | 282,243,699 | 282,189,099 |
| **Cəmi nizamnamə kapitalı** | **282,243,699** | **282,189,099** |

## 15. ƏLAVƏ KAPİTAL QOYULUŞU

Cəmiyyətin nizamnamə kapitalı AR Vergilər Nazirliyi tərəfindən 16.04.2018-ci il tarixdə 100 manat həcmində təsdiq edilmişdir.

31.12.2019-ci il tarixinə  Cəmiyyətin nizamnamə kapitalı 282 243 699, 20 (iki yüz səksən iki milyon iki yüz qırx üç min altı yüz doxsan doqquz manat 20 qəpik) təşkil edir və 61 000 100, 00 (altmış bir milyon bir yüz manat) pul şəklində, 221 243 599, 20 (iki yüz iyirmi bir milyon iki yüz qırx üç min beş yüz doxsan doqquz manat 20 qəpik) həcmində isə əmlak hesabına formalaşmışdır.

31.12.2019-ci il tarixinə  Cəmiyyətin nizamnamə kapitalı İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən 282,189,099 manat təsdiq edilmişdir.

2019-cu il ərzində yatırılmış lakin dövlət qeydiyyatına alınmamış nizamnamə kapitalının təsdiqi üçün audit rəyi əldə edilmiş və kapitalın dövlət qeydiyyatına alınması üçün müraciət edilmişdir.

| | |
|---|---|
| **31 dekabr 2018-ci il tarixinə nizamnamə kapitalı** | **282,189,099** |
| Dövr ərzində pul formasında nizamnamə kapitalı artımı | 54,600 |
| Dövr ərzində əmlak formasında nizamnamə kapitalı artımı | - |
| **31 dekabr 2019-cu il tarixinə nizamnamə kapitalı** | **282,243,699** |

## 16. GƏLİRLƏR

Cəmiyyətin 2019-cu il ərzində icmal gəlirləri 207 417 465 manat olmuşdur. Gəlir strukturu və açıqlaması aşağıdakı kimidir:

| | 2019 | 2018 |
|---|---|---|
| Alüminium məhsulları (külçə, rulon, posa) | 203,197,292 | 18,939,486 |
| **Cəmi əməliyyat gəlirləri** | **203,197,292** | **18,939,486** |
| **Sair gəlirlər** | 4,220,172 | 2,846,812 |
| **Qeyri əməliyyat gəlirləri** | | 1,590,025 |
| **İcmal gəlirlər** | **207,417,465** | **23,376,323** |

## 17. XƏRCLƏR

Cəmiyyətin 2019-cu il ərzində icmal xərcləri 204 467 204 manat olmuşdur. Xərclərin strukturu və açıqlaması aşağıdakı kimidir:

| | **2019** | **2018** |
|---|---|---|
| Maya dəyəri xərcləri | 179,812,060 | 16,324,752 |
| Satış və marketinq xərcləri | 5,406,524 | 494,615 |
| **Ümumi və inzibati xərclər** | | |
| Əmək ödənişi xərcləri | 1,098,095 | 297,350 |
| Silinmiş debitor borclar | 721,672 | - |
| Qəbul edilmiş əskikgəlmələr | 661,458 | - |
| İŞÇİLƏRİN YEMƏK XƏRCLƏRİ | 567,530 | 192,201 |
| Audit və konsaltinq xidməti xərcləri | 335,444 | - |
| Mühafizə xidməti xərcləri | 317,645 | 96,296 |
| Ezamiyyə xercleri (gündəlik xərclər) | 293,842 | 51,942 |
| Bank komisyon xərcləri | 267,564 | 14,056 |
| Billet emal xərci | 258,563 | - |
| Ərazi və abadlaşdırma və təmizlik xərcləri | 182,346 | 52,220 |
| DSMF 22% | 161,185 | 43,658 |
| Nümayəndəlik xərcləri | 126,304 | - |
| Digər adminstrativ xərclər | 164,709 | 112,563 |
| Sigorta xercleri | 95,240 | - |
| Sosial sığorta və təqaüd fonduna ödəmələr MY | 85,764 | 23,030 |
| Daşıma və nəqliyyat xərcləri | 82,661 | 21,008 |
| İşçilərin icbari sığortası | 81,312 | - |
| Işçilərin kirayə haqqı-DA | 76,279 | 31,085 |
| QEYRİ REZİDENTLƏRİN ƏDV-si | 74,040 | - |
| Reklam xərcləri | 51,315 | - |
| İT xərcləri | 45,884 | - |
| İstismar və təmir xərcləri | 43,605 | - |
| Səhiyyə xərcləri | 38,904 | 10,045 |
| Spektrolab, ARL 9900, Pres HTP texniki xidmət | 36,569 | - |
| Neqliyyat vasitelerinin yanacaq xercleri | 27,770 | - |
| Rabitə xərcləri | 26,365 | - |
| Nəqliyyat vasitələrinin icarəsi | 17,105 | - |
| Laboratoriya analiz sertifikat xərcləri | 12,818 | - |
| Gömrük xərcləri(saxlanc anbarı) | 12,699 | - |
| Standartlaşdırma və metrologiya xərcləri | 11,236 | - |
| Daşıma nəqliyyat xərcləri | 10,871 | - |
| Ofis-təsərrüfat işləri | 10,627 | - |
| Diyer yardımlar | 10,585 | - |
| Yanğından mühafizə xərcləri | 9,204 | - |
| Amortizasiya xərcləri | 9,432,324 | 5,491,064 |
| Torpaq və əmlak vergisi xərcləri | 2,156,048 | 348,130 |
| Maliyyə xərcləri | 1,643,039 | 6,219 |
| **Cəmi icmal xərclər** | **204,467,204** | **23,610,236** |

## 18. MƏNFƏƏT VERGİSİ

Cəmiyyət vergiləri Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hazırlanmış vergi hesabatlarına və qeydlərinə əsasən hesablayır və bu hesablamalar MHBS-dan fərqlənə bilər.
Bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlər vergidən azad olunduğundan Cəmiyyət müəyyən daimi vergi fərqlərinin təsirinə məruz qalır.
Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərin qalıq dəyəri ilə onların vergi hesabatındakı qalıq dəyərləri arasındakı müvəqqəti fərqləein xalis vergi təsirini əks etdirir. 31 dekabr 2018-ci il və 31 dekabr 2019-cu il tarixlərinə müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınmasında müxtəlif üsulların istifadə edilməsinə, eləcə də bəzi aktivlər üzrə bergi uçotunda olan qalıqların maliyyə hesabatlarında olan qalıqlara nisbətən fərqli olması nəticəsində yaranır.

31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərinə başa çatan dövr üzrə vergi gəliri və uçot zərəri arasında münasibətlər aşağıdakı kimi izah olunur:

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər** | | |
| Gələn dövrə keçirilmiş vergi zərəri | 20,590,479 | 7,957,263 |
| Mal-material ehtiyyatları | | |
| Əmlak, tikili və avadanlıqlar | | |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **20,590,479** | **7,957,263** |
| **Vergi bazasını artıran müvəqqəti fərqlər** | | |
| Əmlak, tikili və avadanlıqlar | - 24,230,457 | - 7,158,320 |
| Debitor borclar və digər qısamüddətli aktivlər | | |
| Digər cari aktivlər | | |
| **Cəmi vergi bazasını artıran müvəqqəti fərqlər** | **- 24,230,457** | **- 7,158,320** |
| **Xalis vergi bazasını azaldan müvəqqəti fərqlər** | **- 3,639,978** | **798,943** |
| Vergi dərəcəsi ilə təxirə salınmış xalis təxirə salınmış vergi öhdəliyi (20%) | (727,995.69) | 159,788.67 |
| **Xalis təxirə salınmış vergi borcu** | **- 727,996** | **159,789** |
| **Tanınmayan təxirə salınmış vergi aktivi** | | **- 159,789** |
| **Xalis təxirə salınmış vergi öhdəliyi** | - 727,996 | - |

Cəmiyyətin gəlirinə tətbiq edilən mənfəət vergisi 20% dərəcəsi ilə hesablanır. Maliyyə hesabatlılığı məqsədləri üçün aktivlərin və öhdəliklərin balans məbləğləri ilə vergiqoyma məqsədləri üçün istifadə olunan məbləğlər arasındakı müvəqqəti fərqlər nəticəsində 31 dekabr 2019-cu il tarixinə xalis təxirə salınmış vergi öhdəliyi yaranmışdır. Bu təxirə salınmış vergi öhdəlikləri hazırkı maliyyə hesabatlarında tanınır. Gələcək vergi

güzləştləru yalnız o zaman realizasiya olunacaq ki, istifadə olunmayan vergi zərərlərinin istifadə oluna biləcəyi mənfəət mövcud olsun və qanun və qaydalarda Cəmiyyətin gələcək dövrlərdə tutulmalar iddia etmək qabiliyyətinə mənfi təsir edən dəyişikliklər baş verməsin.
Bu gələcək vergi güzəştləri onların realizasiyası ilə bağlı qeyri-müəyyənliklərlə əlaqədar olaraq tanınmır. Tutula bilən müvəqqəti fərqlər cari vergi qanunvericiliyinə əsasən qüvvədən düşmür. 2018 və 2019-cu ilin zərərləri üzrə növbəti dövrə keçirilən vergi zərəri müvafiq olaraq 2023 və 2024-cü illərdə qüvvədən düşür.

## 19. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

**Məhkəmə prosedurları**
Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Cəmiyyətə qarşı iddialar irəli sürülə bilər. Rəhbərlik hesab edir ki, iddialarla bağlı hazırkı maliyyə hesabatında ayrılmış ehtiyatlardan artıq heç bir əhəmiyyətli zərər olmayacaqdır.

**Vergi qanunvericiliyi**
Azərbaycan Respublikasının vergi qanunvericiliyindəki müddəalara bəzən müxtəlif şərhlər və dəyişikliklər baş verir və bu dəyişikliklər müxtəlif mənalarda şərh edilə bilər və nəticədə vergi orqanları bu müddəaları özləri hesab etdikləri kimi şərh edə bilərlər. Praktikada vergi orqanları belə hallarda adətən vergi ödəyicilərinin əleyhinə qərar çıxarırlar ki, nəticədə vergi ödəyiciləri öz hüquqlarını məhkəmə vasitəsilə müdafiə etməyə məcbur olurlar. Cəmiyyət bütün vergi ödəmələrini artıq həyata keçirdiyinə inanır və bu səbəbdən MHBS üzrə hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatında heç bir vergi öhdəliyi yaratmamışdır. Vergi dövrləri üç il ərzində vergi orqanları tərəfindən təftiş olunması üçün açıq olaraq qalır.

## 20. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Risklərin idarə edilməsi Cəmiyyətin fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir və Cəmiyyət əməliyyatlarının əsas elementini təşkil edir. Cəmiyyətin əməliyyatlarına xas olan əsas risklər aşağıdakılarla bağlıdır:

• Kredit riski;
• Likvidlik riski;
• Bazar riski.

Cəmiyyət effektiv və səmərəli riskin idarə edilməsi prosesinin tətbiqinin önəmli olduğunu qəbul edir. Belə prosesin tətbiqinə imkan yaratmaq üçün Cəmiyyət riskin idarə edilməsi qaydalarını yaratmışdır ki, bunun da əsas məqsədi Cəmiyyəti risklərdən qorumaq və Cəmiyyətin qarşıda qoyulmuş fəaliyyət məqsədlərinə nail olması üçün imkan yaratmaqdır. Risk idarəçiliyi çərçivəsində Cəmiyyət aşağıdakı riskləri idarə edir:

**Kredit riski**

Bir tərəfin maliyyə aləti üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi zaman və maliyyə zərərləri ilə nəticələnə bilən hallarda Cəmiyyət kredit riskinə məruz qalır.

**Maksimal riskə məruz qalma**

Cəmiyyətin kredit riskinə maksimal məruz qalması əhəmiyyətli dərəcədə dəyişir və həm fərdi risklərdən, həm də ümumi bazar iqtisadiyyatı ilə bağlı risklərdən asılıdır

**Coğrafi risk konsentrasiyası**

Aktivlər, öhdəliklər və kreditlə bağlı öhdəliklər qarşı tərəfin yerləşdiyi ölkəyə əsaslanır. Bu ölkələrin faktiki olaraq Azərbaycan Respublikasında yerləşən təmsilçilərinə münasibətdə mövcud olan debitor və kreditor borcları üzrə qalıqlar isə “Azərbaycan Respublikası” başlığı altında təqdim edilir. Nağd pul, qiymətli metal, əmlak və avadanlıqlar fiziki olaraq məxsus olduğu ölkəyə görə ayrılmışdır.

31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin coğrafi konsentrasiyası müvafiq qeydlərdə göstərilmişdir:

| | **AZƏRBAYCAN RESPUBLİKASI** | **İƏİT ÖLKƏLƏRİ** | **DİGƏR QEYRİ İƏİT ÖLKƏLƏRİ** | **CƏMİ** |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Debitor borclar | 278,493 | 16,951,635 | 2,449,444 | 19,679,572 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 30,680,555 | | | 30,680,555 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **30,959,048** | **16,951,635** | **2,449,444** | **50,360,127** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 20,757,322 | 10,347 | 33,799,426 | 54,567,095 |
| Təsisçiyə ödəniləcək vəsaitlər | | | | - |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **20,757,322** | **10,347** | **33,799,426** | **54,567,095** |
| **XALİS MÖVQE** | **10,201,726** | **16,941,288** | **(31,349,982)** | **(4,206,968)** |

## Likvidlik riski

Likvidlik riski faktiki olaraq ödəmə tarixi çatdığı zaman, maliyyə alətləri ilə bağlı maliyyə öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər vəsaitlərin mövcudluğunu nəzərdə tutur. Likvidlik riski Cəmiyyətin Mühasibatlıq strukturu tərəfindən idarə olunur. Cəmiyyətin likvidlik mövqeyinin idarə olunması fəaliyyəti öhdəliklərin vaxtı gəldikcə ödənilməsi üçün zəruri likvid aktivlərin səviyyəsinin nəzərə alınmasını, bir sıra maliyyə mənbələrinə çıxışın təmin olunmasını, maliyyələşdirmə üzrə ehtiyat planlarının işlənib hazırlanmasını və maliyyə vəziyyəti üzrə likvidlik nisbətinin izlənməsini tələb edir.

31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin likvidlik riski müvafiq qeydlərdə göstərilmişdir:

| | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 1 ilə qədər | 1 ildən artıq | CƏMİ |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Debitor borclar | 8,207,566 | 11,000,987 | 471,019 | - | 19,679,572 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 30,680,555 | | | | 30,680,555 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **38,888,121** | **11,000,987** | **471,019** | **-** | **50,360,127** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 19,687,318 | 3,779,692 | 17,008,614 | 14,091,471 | 54,567,095 |
| Təsisçiyə ödəniləcək vəsaitlər | | | | | - |
| | | | | | - |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **19,687,318** | **3,779,692** | **17,008,614** | **14,091,471** | **54,567,095** |
| **LİKVİDLİK BOŞLUĞU** | **19,200,803** | **7,221,295** | **(16,537,595)** | **(14,091,471)** | **(4,206,968)** |
| **MƏCMU LİKVİDLİK BOŞLUĞU** | **19,200,803** | **26,422,098** | **9,884,503** | **(4,206,968)** | |

## Valyuta riski

Valyuta riski xarici valyuta mübadiləsi məzənnələrindəki dəyişikliklərin baş verməsi səbəbindən maliyyə alətlərinin dəyərində dəyişikliyin yaranması ilə bağlı riskdir.

31 dekabr 2019-cu il tarixinə şirkətin maliyyə aktivləri və öhdəliklərinin valyuta riski müvafiq qeydlərdə göstərilmişdir:

| | ABŞ dolları | AZN | AVRO | CƏMİ |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Debitor borclar | 19,401,080 | 278,492 | - | 19,679,572 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 27,230,696 | 3,434,981 | 14,878 | 30,680,555 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **46,631,776** | **3,713,473** | **14,878** | **50,360,127** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 45,633,095 | 8,923,653 | 10,347 | 54,567,095 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **45,633,095** | **8,923,653** | **10,347** | **54,567,095** |
| **AÇIQ VALYUTA MÖVQEYİ** | **998,681** | **(5,210,180)** | **4,531** | **(4,206,968)** |

## 21. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏR

Ədalətli dəyər məcburi satış və ya ləğvetmə xaricində arzu edən tərəflər arasındakı cari əməliyyatda maliyyə alətinin dəyişdirilə biləcəyi və ən yaxşı şəkildə aktiv bazar qiyməti ilə təsdiqlənən məbləğidir.

Maliyyə alətlərinin ehtimal olunan ədalətli dəyəri mövcud bazar məlumatlarını və mövcud qiymətləndirmə metodologiyalarını istifadə edərək Cəmiyyət tərəfindən müəyyən edilmişdir. Habelə, ehtimal olunan ədalətli dəyəri təyin etmək məqsədi ilə bazar məlumatlarını şərh etmək üçün mütləq qərar verilməlidir.

Azərbaycan Respublikası inkişaf etməkdə olan bazarın bəzi xüsusiyyətlərini nümayiş etdirməyə davam edir və iqtisadi şərtlər maliyyə bazarlarındakı fəaliyyət həcmini məhdudlaşdırmağa davam edir. Bazar qiymətləri köhnəlmiş ola və ya satış əməliyyatları zamanı olan çətinliyi əks etdirə bildiyindən, maliyyə alətlərinin ədalətli dəyərlərini təmsil etməyə bilər. Rəhbərlik maliyyə alətlərinin ədalətli dəyərini qiymətləndirərkən mövcud olan bütün bazar məlumatlarını istifadə etmişdir.

MHBS üzrə hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda maya və ya amortizasiya dəyəri ilə uçota alınmış maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyəri aşağıda təqdim olunur:

| | **31 dekabr 2019-cu il** | | **31 dekabr 2018-ci il** | |
|---|---|---|---|---|
| | **Qalıq dəyəri** | **Ədalətli dəyəri** | **Qalıq dəyəri** | **Ədalətli dəyəri** |
| Debitor borcları | 19,679,572 | 19,679,572 | 6,722,325 | 6,722,325 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 30,680,555 | 30,680,555 | 44,150,469 | 44,150,469 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 49,620,828 | 49,620,828 | 18,050,347 | 18,050,347 |
| Sair öhdəliklər | 4,946,267 | 4,946,267 | 1,130,213 | 1,130,213 |

Aşağıdakı cədvəl ədalətli dəyər ilə ölçülməmiş maliyyə alətlərinin ədalətli dəyərlərini müəyyənləşdirir və onları hər bir ədalətli dəyər ölçüsünün aşağıda təsnif edildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyə ilə təhlil edir.

| | | | **Ədalətli dəyərin ölçülməsi** | | | |
|---|---|---|---|---|---|---|
| | **Maliyyə aləti üzrə təsnifat** | **Qiymətləndirmə tarixi** | **Fəal bazarlardakı kotirovka qiymətləri (Səviyyə 1)** | **Əhəmiyyətli müşahidə edilən məlumatlar (Səviyyə 2)** | **Əhəmiyyətli müşahidə olunmayan giriş məlumatları (Səviyyə 3)** | **Cəmi** |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | | |
| Debitor borcları | Amortizasiya dəyəri | 31.12.2019 | | | 19,679,572 | 19,679,572 |
| Pul vəsaitləri və onların ekvivalentləri | Amortizasiya dəyəri | 31.12.2019 | 30,680,555 | | | 30,680,555 |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | Amortizasiya dəyəri | 31.12.2019 | | | 49,620,828 | 49,620,828 |
| Sair öhdəliklər | Amortizasiya dəyəri | 31.12.2019 | | | 4,946,267 | 4,946,267 |

## 22. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

2019-cu ilin sonunda Çinin Uhan şəhərində yeni növ koronavirus aşkarlanmışdır. 31 dekabr 2019-cu il tarixinə xəstəliyin yayılma coğrafiyası və qeydə alınmış xəstə sayı məhdud olduğundan, bu vəziyyət MHBS üzrə hazırlanmış maliyyə hesabatına düzəliş edilməsi üçün təsirə malik olmamışdır. Lakin, 2020-ci ilin yanvar ayından başlayaraq, vəziyyətdə köklü dəyişikliklər qeydə alınmağa başlamış və 2020-ci ilin mart ayında yeni növ koronavirus Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən pandemiya olaraq elan edilmişdir.

Digər dünya ölkələrində olduğu kimi, Azərbaycan Respublikası hökuməti də pandemiyaya qarşı mübarizə üçün müxtəlif tədbirlər, o cümlədən səyahət məhdudiyyəti, karantin, iş yerlərinin və digər yerlərin, eləcə də müəyyən ərazilərin bağlanması üzrə tədbirlər həyata keçirmişdir. Bu tədbirlər qlobal tədarük zəncirinə, həm də mal və xidmətlərə olan tələb səviyyəsinə təsir göstərmiş və aktiv qiymətlərinin və valyuta məzənnələrinin daha çox dəyişkən olmasına, uzunmüddətli perespektivdə faiz dərəcələrinin nəzərə çarpacaq dərəcədə azalması ilə müşahidə olunan biznes əməliyyatlarının əhəmiyyətli dərəcədə pozulmasına və iqtisadi qeyri-müəyyənliyin artmasına səbəb olmuşdur. Hökumətin pandemiyaya qarşı mübarizə tədbirləri və bu tədbirlərin müsbət nəticələri davam etməkdədir.

Dünya iqtisadiyyatında baş verən geriləmə ilə yanaşı, 2020-ci ilin mart ayında OPEC və Rusiyanın iştirak etdiyi görüşlərdə hasilatın azaldılması barədə razılıq əldə oluna bilməməsindən sonra, neftin qiyməti kəskin dərəcədə aşağı düşmüşdür. Baş vermiş hadisələr və mövcud vəziyyət, şirkətlərin əvvəllər üzləşmədiyi və maliyyə hesabatına əhəmiyyətli dərəcədə təsir ola biləcək qeyri-müəyyənlik və risk səviyyələri yaratmışdır.

Cəmiyyət 2020-ci ilin fevral ayının ortalarında insanların sağlamlığını və aktivlərin təhlükəsizliyini qorumaq məqsədi ilə pandemiyanın Cəmiyyətin fəaliyyətinə təsirini azaltmaq üçün təsirli tədbirlərin həyata keçirilməsi üçün Biznesin Davamlılığı üzrə İşçi Qrupu yaratmışdır.

Cəmiyyət pandemiya və neft qiymətlərindəki vəziyyət səbəbindən iş planında və fəaliyyətində ciddi bir pozuntu gözləmir.

**Maksim Cavadov**

Direktor

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**Cəlal Həbibov**

Maliyyə direktoru

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**“AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ”**
**MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**
31 dekabr 2019-cu il tarixinə
Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına
Uyğun Maliyyə Hesabatları və Müstəqil Auditorun
Hesabatı

**Mündəricat**


MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI ........ 3

MÜSTƏQİL AUDİTOR HESABATI ........ 4

MALİYYƏ HESABATLARI ........ 6

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT ........ 6

MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINA HESABAT ........ 8

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT ........ 10

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT ........ 12

MALİYYƏ HESABATLARI ÜZRƏ ŞƏRHLƏR VƏ İZAHLI QEYDLƏR ........ 14

1. GİRİŞ ........ 14

2. MALİYYƏ HESABATLARININ HAZIRLANMASININ ƏSASI VƏ ƏSAS UÇOT PRİNSİPLƏRİNİN XÜLASƏSİ ........ 16

3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR ........ 26

4. YENİ VƏ YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN QƏBUL EDİLMƏSİ ........ 29

5. DƏRC OLUNMUŞ, LAKİN, HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR ........ 31

6. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ QALIQLAR VƏ ƏMƏLİYYATLAR ........ 31

7. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR ........ 33

8. TƏXİRƏ SALINMIŞ VERGİ AKTİVİ ........ 33

9. UZUN MÜDDƏTLİ AKTİVLƏR ........ 34

10. MAL-MATERİAL EHTİYATI ........ 34

11. DEBİTOR BORCLARI ........ 34

12. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ ........ 35

13. DİGƏR CARİ AKTİVLƏR ........ 35

14. UZUN MÜDDƏTLİ QİYMƏTLƏNDİRİLMİŞ ÖHDƏLİKLƏR ........ 35

15. UZUN MÜDDƏTLİ KREDİTOR BORCLARI ........ 36

16. KREDİTOR BORCLARI VƏ DİGƏR ÖDƏNİLƏCƏK VƏSAİTLƏR ........ 36

17. SAİR QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR ........ 37

18. NİZAMNAMƏ KAPİTALI ........ 37

19. ƏLAVƏ KAPİTAL QOYULUŞU ........ 37

20. GƏLİRLƏR ........ 38

21. XƏRCLƏR ........ 38

22. MƏNFƏƏT VERGİSİ ........ 40

23. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR ........ 41

24. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ ........ 41

25. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏR ........ 45

26. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR ........ 46

**MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI**
**31 DEKABR 2019-CU İL TARİXİNƏDƏK TAMAMLANAN DÖVR ÜZRƏ**

Bu bəyannamə "Azərpambıq Aqrar Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun hazırlanmış maliyyə hesabatları ilə bağlı Cəmiyyət rəhbərliyinin və müstəqil auditorun göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.
Rəhbərlik Cəmiyyətin 31 dekabr 2019-cu il tarixində tamamlanan il üzrə maliyyə vəziyyətini, fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:**

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və mülahizələrin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nın tələblərinə riayət olunması və;
- Əgər yaxın gələcəkdə, Cəmiyyətin normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

**Rəhbərlik həmçinin:**

- Cəmiyyətin daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun olaraq hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Azərbaycan Respublikasında qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin qorunmasının təmin edilməsi və;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

31 dekabr 2019-cu il tarixində tamamlanan il üzrə maliyyə hesabatları Cəmiyyətin rəhbərliyi tərəfindən 11 dekabr 2020-ci il tarixində təsdiq edilmişdir.

| | |
|---|---|
| **Bəhruz Camalov** | **Gülağa Məmmədov** |
| Direktor | Baş mühasib |
| 11 dekabr 2020-ci il | 11 dekabr 2020-ci il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

## MÜSTƏQİL AUDİTOR HESABATI

**"Azərpambıq Aqrar Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarı və Rəhbərliyinə**

**Rəy**

Biz, "Azərpambıq Aqrar Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2019-cu il tarixinə Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS) əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə bitmiş il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat uçotu siyasətləri və digər izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixlərdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətinin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uygun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uygun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Bizim maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakimələrimizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyin formalaşdırılmasında bütövlüklə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uygun olaraq olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruru daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa alternativi olmadığı halda, Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsulyyət daşıyır.

**Maliyyə hesabatları üzrə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edimiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- MHBS-ə uyğun tərtib edilmiş maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində yaranmış əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edib qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində yaranmış əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsində yaranmış təhrifi aşkarlamamaq riskindən daha yüksəkdir, çünki, saxtakarlıq əlbir hərəkətlər, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda MHBS-ə uyğun tərtib edilmiş maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin, sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, MHBS-ə uyğun tərtib edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin MHBS-ə uyğun tərtib edilmiş maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk. Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Hesabat 11 dekabr 2020-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi təsərrüfat subyektinə təqdim edilir, ikincisi isə "ASON AUDİT" MMC-də saxlanılır.

**İcraçı: "ASON AUDİT" MMC-nin direktoru:** **O.S.Vəkilov**

**Auditor:** **T.A.Talıbov**

**“Azərpambıq Aqrar Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinin**
**31 dekabr 2019-cu il tarixinə**

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

**(Azərbaycan manatı ilə)**

| Bölmə/ Maddə №-si | Bölmə/Maddələrin adı | Uçot siyasəti və izahlı Qeydlərin № | Hesabat dövrü üzrə 31.12.2019 | Əvvəlki dövr üzrə 31.12.2018 |
|---|---|---|---|---|
| *1* | *2* | *3* | *4* | *5* |
| | **AKTİVLƏR** | | | |
| **1** | **Uzunmüddətli aktivlər** | | | |
| 10 | Qeyri-maddi aktivlər | | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 7 | 87,917,397 | |
| 12 | İnvestisiya mülkiyyəti | | | |
| 13 | Bioloji aktivlər | | | |
| 14 | Təbii sərvətlər | | | |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | |
| 16 | Təxirə salınmış vergi aktivləri | 8 | 71,623 | |
| 17 | Uzunmüddətli debitor borcları | | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | | |
| 19 | Sair uzunmüddətli aktivlər | 9 | 3,913,221 | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **91,902,240** | **-** |
| **2** | **Qısamüddətli aktivlər** | | | |
| 20 | Ehtiyatlar | 10 | 73,749,979 | 39,678,423 |
| 21 | Qısamüddətli debitor borcları | 11 | 1,319,662 | - |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 9,147 | 2,422,546 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | | |
| 24 | Sair qısamüddətli aktivlər | 13 | 1,190,466 | 1,164,252 |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **76,269,254** | **43,265,221** |
| | **CƏMİ AKTİVLƏR** | | **168,171,494** | **43,265,221** |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **3** | **Kapital** | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | 18 | 132,882,258 | 100 |
| 31 | Emissiya gəliri | | | |
| 32 | Geri alınmış kapital (səhmlər) | | | |
| 33 | Kapital ehtiyatları | | | |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 3,585,466 | 17,088 |
| | **CƏMİ KAPİTAL** | | **136,467,724** | **17,188** |
| **4** | **Uzunmüddətli öhdəliklər** | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | 14 | 4,990,297 | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | - | |
| 43 | Uzunmüddətli kreditor borcları | 15 | 2,510,382 | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | | |

| | | | | |
|---|---|---|---|---|
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **7,500,679** | **-** |
| **5** | **Qısamüddətli öhdəliklər** | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | 17 | 277,239 | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 16 | 1,903,479 | 35,518 |
| 53 | Qısamüddətli kreditor borcları | 16 | 4,226,851 | 6,969,973 |
| 54 | Sair qısamüddətli öhdəliklər | 17 | 17,795,522 | 36,242,542 |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **24,203,091** | **43,248,033** |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | **31,703,770** | **43,248,033** |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **168,171,494** | **43,265,221** |

**Bəhruz Camalov**

Direktor

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**Gülağa Məmmədov**

Baş mühasib

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**"Azərpambıq Aqrar Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin**

**31 dekabr 2019-cu il tarixində başa çatan il üzrə**

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINA HESABAT

**(Azərbaycan manatı ilə)**

| Bölmə (maddə) və hesab №-si | Göstəricilərin adı | Uçot siyasəti və izahlı qeydlərin №-si | Hesabat dövrü üzrə 2019 | Əvvəlki dövr üzrə 2018 |
|---|---|---|---|---|
| *1* | *2* | *3* | *4* | *5* |
| 60 | Əsas əməliyyat gəlirləri | 20 | *60,229,065* | *93,995* |
| 70 | Satışın maya dəyəri üzrə xərclər | 21 | *48,760,522* | *55,493* |
| | **Ümumi mənfəət (zərər)** | | ***11,468,543*** | ***38,502*** |
| 61 və 73 | Sair əməliyyat gəlirləri | | | |
| 71 | Kommersiya xərcləri | 21 | *559,447* | |
| 72 | İnzibati xərclər | 21 | *5,656,969* | *9,460* |
| 73 və 61 | Sair əməliyyat xərcləri | 21 | *394,479* | *7,682* |
| 62 və 74 | Fəaliyyətin dayandırılmasından yaranan mənfəətlər (zərərlər) | | | |
| | **Əməliyyat mənfəəti (zərəri)** | | ***4,857,649*** | ***21,360*** |
| 63 və 75 | Maliyyə mənfəəti (zərəri) | 20 | *277,239* | |
| 64 və 76 | Fövqəladə mənfəət (zərər) | 21 | *(539,531)* | |
| 81 | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | | |
| | **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | | ***4,595,356*** | ***21,360*** |
| 90 | Mənfəət vergisi | | *1,026,977* | *4,272* |
| **341** | **Hesabat dövründə xalis mənfəət (zərər)** | | ***3,568,379*** | ***17,088*** |
| | **O cümlədən** | | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | | |
| | Digər məcmu gəlir | | | |
| | Məcmu gəlir (xalis mənfəətin (zərərin) və digər məcmu gəlirin cəmi) | | | |
| | **O cümlədən** | | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | | |

**Bəhruz Camalov**

Direktor

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**Gülağa Məmmədov**

Baş mühasib

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**Xərclərin xüsusiyyətləri üzrə təsnifat əsasında əməliyyat xərcləri haqqında**
**MƏLUMAT**

| *Bölmənin/ maddənin №-si* | *Göstəricilərin adı* | *Uçot siyasəti və izahlı qeydlərin №-si* | *Hesabat dövrü üzrə* | *Əvvəlki dövr üzrə* |
|---|---|---|---|---|
| | *Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı artımlar (azalmalar)* | | | |
| | *Təşkilat tərəfindən yerinə yetirilmiş və kapitallaşdırılmış işlər* | | | |
| | *İstifadə edilmiş material ehtiyatları* | | | |

**Bəhruz Camalov**
Direktor
11 dekabr 2020-ci il
Bakı, Azərbaycan Respublikası

**Gülağa Məmmədov**
Baş mühasib
11 dekabr 2020-ci il
Bakı, Azərbaycan Respublikası

**“Azərpambıq Aqrar Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinin**

**31 dekabr 2019-cu il tarixində başa çatan il üzrə**

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**(Azərbaycan manatı ilə)**

| | Uçot siyasəti və izahlı qeydlərin №-si | Ödənilmiş nizamnamə kapitalı | Emissiya gəliri | Geri alınmış kapital (səhmlər) | Kapital ehtiyatları Yenidən qiymətləndirilmə üzrə ehtiyat | Məzənnə fərqləri üzrə ehtiyat | Qanunvericilik üzrə ehtiyat | Nizamnamə üzrə ehtiyat | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq | 18 | 100 | | | | | | | | **17,088** | **17,088** |
| Əvvəlki hesabat dövründə uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | | | | | |
| **Səhvlərin düzəldilməsindən sonra əvvəlki hesabat dövrünün əvvəlinə qalıq** | **18** | **100** | | | | | | | | **17,088** | **17,088** |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | | | | | | | | | | | |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | | | | |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | | | | | |
| Sair məcmu gəlir | | | | | | | | | | | |
| **Əvvəlki hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | **18** | **100** | | | | | | | | **17,088** | **17,088** |
| **Əvvəlki hesabat dövrünün sonuna qalıq** | | | | | | | | | | | |
| Hesabat dövründə uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə | | | | | | | | | | | |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ağlı düzəlişlər | | | | | | | | | | | |
| **əhvlərin düzəldilməsindən sonra esabat dövrünün əvvəlinə qalıq** | **18** | **100** | | | | | | | | **17,088** | **17,088** |
| Iesabat dövründə xalis mənfəət (zərər) | | | | | | | | | | 3,568,378 | 3,568,378 |
| Iülkiyyətçilərin kapital qoyuluşları | 19 | 132,882,158 | | | | | | | | | 132,882,158 |
| Iülkiyyətçilər arasında kapitalın ɔölüşdürülməsi (dividendlər) | | | | | | | | | | | |
| ieri alınmış kapital (səhmlər) zrə əməliyyatlar | | | | | | | | | | | |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | | | | | |
| air məcmu gəlir | | | | | | | | | | | |
| **Iesabat dövrü üzrə kapitalda ləyişikliklərin cəmi** | **18** | 132,882,158 | | | | | | | | **3,568,378** | **136,450,536** |
| **Iesabat dövrünün sonuna qalıq** | **18** | 132,882,158 | | | | | | | | **3,568,378** | **136,467,724** |

**Bəhruz Camalov**

Direktor

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**Gülağa Məmmədov**

Baş mühasib

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**“Azərpambıq Aqrar Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinin**

**31 dekabr 2019-cu il tarixində başa çatan il üzrə**

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**(Azərbaycan manatı ilə)**

| Mədaxil və məxaric maddələri | Uçot siyasəti və izahlı qeydlərin №si | Hesabat dövrü üzrə 2019 | Əvvəlki dövr üzrə 2018 |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | 54,517,853 | 38,340 |
| Malların satışından və xidmətlərin göstərilməsindən daxilolmalar | | - | - |
| Röyaltilər, yığımlar və komisyon haqları üzrə daxilolmalar | | 860,950 | 3,895 |
| Digər gəlirlərdən daxilolmalar | | **55,378,804** | **42,235** |
| **Əməliyyat fəaliyyətindən cəmi daxilolmalar** | | 38,807,798 | 25,635,043 |
| Mallar və xidmətlərə görə xaricolmalar | | 313,124 | 177,360 |
| İşçilərin mükafatlandırılması ilə əlaqədar ödənişlər | | | |
| Mənfəət vergisi ödənişi üzrə xaricolmalar | | 3,555,466 | 109,315 |
| Digər vergilərə görə xaricolmalar | | 10,493,748 | |
| Əməliyyat fəaliyyətindən yaranan faiz ödənişləri üzrə xaricolmalar | | 15,006,655 | |
| Digər ödənişlərə görə xaricolmalar | | **68,176,790** | **25,921,718** |
| **Əməliyyat fəaliyyətindən cəmi xaricolmalar** | | **(12,797,987)** | **(25,879,483)** |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | | |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | | 193,945 | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | - | |
| digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının satılmasından yaranan pul vəsaitlərinin daxilolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdətutulmuş alətlərüzrə pul vəsaitlərinin daxilolmaları istisna olmaqla); | | 2,970,204 | |
| digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının əldə edilməsi üçün ödənilən pul vəsaitlərinin xaricolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdə tutulmuş alətlər üzrə pul vəsaitlərinin xaricolmaları istisna olmaqla); | | | |
| digər tərəflərə verilmiş borcların qaytarılmasından pul vəsaitlərinin daxilolmaları; | | | |
| digər tərəflərə verilmiş borclara görə pul vəsaitlərinin xaricolmaları; | | | |
| fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin daxilolmaları; | | | |
| fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin ödənişləri; | | | |

| | | | |
|---|---|---|---|
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları. | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(3,164,149)** | - |
| Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti | | | |
| səhmlərin və digər kapital alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | 29,000,099 | 100 |
| müəssisənin öz səhmlərinin əldə edilməsi və ya yenidən alınması nəticəsindəpul vəsaitlərinin xaricolmaları | | - | - |
| təminatsiz istiqrazların, borc sənədlərinin, veksellərin, istiqraz vərəqələrinin, girov kağızlarının buraxılmasından və digər qısamüddətli və uzunmüddətli borcların alınmasına görə pul vəsaitlərinin daxilolmaları; | | - | 28,301,929 |
| borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | 13,000,000 | |
| məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | | 28,301,929 | |
| məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | | |
| maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları | | | |
| dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | 149,432 | |
| faizlər şəklində pul vəsaitlərinin xaricolmaları | | | |
| Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | | **13,548,738** | **28,302,029** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(2,413,398)** | **2,422,546** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | 54,517,853 | 38,340 |
| | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | | **2,422,546** | |
| **il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **(2,413,398)** | **2,422,546** |
| **xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri** | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | | **9,148** | **2,422,546** |

**Bəhruz Camalov**

Direktor

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**Gülağa Məmmədov**

Baş mühasib

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

## 1. GİRİŞ

Hazırki maliyyə hesabatları 31 dekabr 2019-cu il tarixinə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq “Azərpambıq Aqrar Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti (“Cəmiyyət”) üçün tərtib edilmişdir.

### 1.1. Cəmiyyət haqqında ümumi məlumat

Cəmiyyət 2018-ci ildə təsis edilmiş və 25 may 2018-ci il tarixində Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən 1305532271 vergi eyniləşdirmə nömrəsi ilə məhdud məsuliyyətli cəmiyyəti kimi qeydiyyatdan keçmişdir.
Cəmiyyət Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərinin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən 25 may 2018-ci il tarixdə qeydiyyata alınaraq Əlavə Dəyər Vergisi ödəyicilərinin Dövlət Reyestrinə daxil edilmişdir. Cəmiyyətin təşkilati hüquqi forması Məhdud Məsuliyyətli Cəmiyyətdir və bütün paylar Azərbaycan Sənaye Korporasiyası Açıq Səhmdar Cəmiyyətinə məxsusdur.
Hesabat tarixinə Cəmiyyətin fəaliyyətinin idarəedilməsi və nəzarət Direktoru Camalov Bəhruz Əliağa oğlu, Baş mühasibi Məmmədov Gülağa Həsənağa oğlu tərəfindən aparılır.

### 1.2. Cəmiyyətin fəaliyyəti

Cəmiyyət xam pambığın toplanması və emalı üzrə ixtisaslaşmışdır. Gəlir əsasən pambıq lifi, pambıq toxumu, linter, kimyəvi maddələr və təmizlənmiş yağın satışından əldə edilir. Pambıq öz torpaq sahələrində pambıq əkinlərindən məhsul götürən fermerlərdən alınır. İqlimi pambıqçılıq üçün olduqca əlverişli olduğundan, pambıq əkinləri ölkənin Aran iqtisadi rayonunda cəmləşmişdir. Cəmiyyətin əsas ticarət tərəfdaşları Rusiya, Türkiyə, İran, Gürcüstan, Hollandiya, Sinqapur və Birləşmiş Krallıqdır.

### 1.3. Qeydiyyat ünvanı və fəaliyyət yeri

Cəmiyyət Azərbaycan Respublikasında təsis edilmişdir. Cəmiyyətin qeydə alınmış hüquqi ünvanı AZ1065 Bakı şəhəri, Yasamal rayonu, Tbilisi pr. Ev 35, məhəllə 1033, Azərbaycan Respublikasıdır. Cəmiyyətin əsas fəaliyyət yeri Azərbaycan Respublikası, Aran iqtisadi regionudur.

***Bank rekvizitləri:***

Azərbaycan Beynəlxalq Bank ASC-nin Abşeron Filialı
KOD: 805539
VÖEN: 9900001881
M/h AZ03NABZ01350100000000002944
S.W.İ.F.T.BİK İBAZAZ2X
Hesab №-si: AZ54IBAZ40070019446129089201

### 1.4. Təsisçi haqqında məlumat

31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin səhmdar strukturu aşağıdakı kimidir:

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyəti | Mülkiyyət, % | Mülkiyyət, % |
| | 100 | 100 |
| **Cəmi** | **100** | **100** |

“Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 2017-ci il tarixli Fərmanına uyğun olaraq təsis edilmiş və Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən qeydiyyata alınmışdır. Cəmiyyət 8 dekabr 2017-ci il tarixində 1305305281 saylı vergi eyniləşdirmə nömrəsi ilə açıq səhmdar cəmiyyəti kimi qeydiyyatdan keçmişdir. ASK ASC 100% Azərbaycan Respublikasına (“Hökümət”) məxsusdur.

Cəmiyyətin əsas prinsipləri və fəaliyyət istiqamətlərinə dövlət əmlakının idarəedilməsində effektivliyin artırılması, törəmə müəssisələr arasında faydalı kooperativ əlaqələrin qurulması, dəyər zəncirlərində istehsal potensialının artmasına nail olmaq, sənaye istehsalının həcminin və qeyri-neft sektorunun artım sürətinin gücləndirilməsi daxildir.

31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin ən üst nəzarət subyekti “Azərbaycan Sənaye Korporasiyası” ASC-dir.

### 1.5. Cəmiyyətin fəaliyyət mühiti

Cəmiyyət öz fəaliyyətini Azərbaycan Respublikasında həyata keçirir. Azərbaycan hökuməti iqtisadi islahatları və ölkənin hüquqi, vergi və qanunvericilik çərçivəsində inkişafını davam etdirir. Azərbaycan iqtisadiyyatının gələcək davamlı inkişafı, əsasən bu islahatlardan və sektordakı tərəqqidən, eləcə də hökumət tərəfindən iqtisadi, maliyyə və pul siyasəti üzrə həyata keçirilmiş tədbirlərdən və Azərbaycan manatı ilə xam neftin sabit qiymətlərindən asılıdır.

2015-ci il ərzində Azərbaycanın iqtisadiyyatı neft qiymətlərinin aşağı düşməsi və Azərbaycan manatının devalvasiyası nəticəsində mənfi təsirlərə məruz qalmışdır. Bu isə kapital çıxışının azalmasına, kapital xərclərinin artmasına, inflyasiya və iqtisadi inkişaf ilə bağlı qeyri-müəyyənliklərə səbəb olmuşdur. Bu geriləmənin qarşısını almaq üçün Azərbaycan hökuməti islahatların sürətləndirilməsi və maliyyə sisteminin dəstəklənməsi üçün tədbirlər planı hazırlamışdır. Azərbaycan Respublikasının Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə “Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” təsdiq edilmişdir. Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışını özündə ehtiva edir.

Bundan əlavə, 2018-ci ildə hökumət Azərbaycan manatının sabitliyi ilə əlaqədar olaraq pul siyasətini davam etdirmiş və Azərbaycan manatının sabitləşdirilməsi üçün xarici valyuta ehtiyatlarından istifadə etmişdir. Bu siyasət 2019-cu ildə makroiqtisadi sabitliyin qorunması məqsədi ilə davam etdirilmişdir.

Cəmiyyətin rəhbərliyi makroiqtisadi mühitdəki dəyişiklikləri izləyir və yaxın gələcəkdə Cəmiyyətin fəaliyyətinin dayanıqlığını və inkişafını dəstəkləmək üçün zəruri hesab etdiyi tədbirləri görür.

Beynəlxalq kredit reytinq agentlikləri mütəmadi olaraq Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. Fitch və S&P Azərbaycan Respublikasının reytinqini “BB+” olaraq qiymətləndirmişdir. Moody’s Investors Service, ölkə üçün “Ba2” kredit reytinqini təyin etmişdir.

Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı əsasən hökumətin vergi, hüquq, tənzimləyici və siyasi islahatlarla birlikdə həyata keçirdiyi iqtisadi, maliyyə və pul tədbirlərinin səmərəliliyindən asılıdır. Rəhbərlik Cəmiyyətin fəaliyyətinə təsir göstərəcək iqtisadi mühitdəki bütün islahatları və nəticədə onların Cəmiyyət maliyyə vəziyyətinə necə təsir göstərə biləcəyini proqnozlaşdırmaq iqtidarında deyil. Rəhbərlik hazırda müxtəlif pambıq məhsulları qiymətləri üzrə həssaslıq təhlili həyata keçirir və biznesin davamlılığını təmin etmək üçün müvafiq tədbirlər planı hazırlayır.

## 2. MALİYYƏ HESABATLARININ HAZIRLANMASININ ƏSASI VƏ ƏSAS UÇOT PRİNSİPLƏRİNİN XÜLASƏSİ

**Giriş**
Cəmiyyətin maliyyə ili dekabr ayının sonuncu günündə başa çatır. Cəmiyyət 31 dekabr 2019-cu il tarixinə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olaraq maliyyə hesabatını təqdim edir.

**Təqdimatın əsasları**

Cəmiyyətin MHBS əsasında hazırlanmış maliyyə hesabatları yuxarıda göstərilən tarixdə hazırlanmış və qəbul edilmişdir. Cəmiyyət maliyyə hesabatlarını Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsi (“MUBSK”) tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olaraq hazırlanmışdır. Bu maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilmiş əsas uçot prinsipləri aşağıda təqdim edilir. Bu prinsiplər təqdim edilmiş bütün dövrlərə ardıcıl şəkildə tətbiq edilmişdir.

**Fasiləsizlik prinsipi**

MHBS əsasında hazırlanmış maliyyə hesabatları Cəmiyyətin fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik hesab edir ki, Cəmiyyət yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Cəmiyyətin likvidasiyasına nə istək, nə də ehtiyac olacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcuddur. Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət gedişində Cəmiyyətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatda əks etdirilmişdir.

Bəzi maliyyə hesabatı standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələblərin, nəzərə alınmalı olan müəyyən məsələlərin və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Rəhbərliyin fasiləsizlik prinsipi üzrə ehtimalının qiymətləndirməsi müəyyən bir müddətdə, hadisələrin və ya şərtlərin gələcək inkişafı ilə əlaqədar subyektiv qərarların qəbul edilməsini nəzərdə tutur.

**Cari və uzunmüddətli təsnifləşdirmələr**

Cəmiyyət aktiv və öhdəlikləri cari/uzunmüddətli təsnifləşdirmələr olaraq, MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv sayılır:

- Normal əməliyyat dövründə satılması və ya istehlak edilməsi nəzərdə tutulan və ya satılması ehtimal edildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı 12 ay ərzində satılması ehtimal edildikdə; və ya
- Hesabat tarixindən ən azı on iki ay sonra öhdəliyin ödənilməsi üçün mübadilə edilməsi və ya istifadə edilməsi üçün məhdudlaşdırılması halları istisna olmaqla, pul vəsaitləri və onların ekvivalanetləri formasında olduqda.

Digər bütün aktivlər uzunmüddətli aktivlər sayılır. Öhdəlik aşağıdakı hallarda cari öhdəlik sayılır:

- Normal əməliyyat dövrü ərzində ödənilməsi gözlənildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı 12 ay ərzində satılması ehtimal edildikdə; və ya
- Hesabat dövründən sonra ən azı on iki ay müddətində öhdəliyin ödənilməsini təxirə salmaq üzrə qeyri-şərtsiz hüquqa malik olmadıqda.

Cəmiyyət bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər olaraq təsnif edir.
Təxirə salınmış vergi aktivi və öhdəliyi uzunmüddətli aktiv və öhdəliklər kimi təsnif edilir.

**Təqdimatın digər əsasları**
MHBS əsasında hazırlanmış maliyyə hesabatları, başqa cür qeyd edilmədiyi hallarda Azərbaycan Manatı (“AZN”) ilə ifadə edilir. MHBS əsasında hazırlanmış maliyyə hesabatları şərti dəyər kimi ədalətli dəyərdə qeydə alınan əmlak, tikili və avadanlıqlar istisna olmaqla tarixi dəyər əsasında tərtib edilmişdir.

**Əmlak, tikili və avadanlıqlar**
Əmlak, tikili və avadanlıqlar, peşəkar müstəqil qiymətləndiricilərin apardığı qiymətləndirmə ilə bazara əsaslanan sübutlardan formalaşmış yenidən qiymətləndirmə tarixindəki ədalətli dəyərdən sonradan yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla, MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda şərti dəyər olaraq ədalətli dəyərdə qeydə alınır.

Faydalı istifadə müddəti üzrə təxminlər, qalıq dəyərləri və amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv əsasda tətbiq edilir.

Cari dövr üzrə əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti aşağıdakı kimidir:

**CƏMİYYƏTİN AMORTİZASİYA NORMALARI**

| S/S | Əsas vəsaitin kateqoriyası | Faydalı istifadə müddəti (il) | Maksimal son qalıq % |
|---|---|---|---|
| 1 | Binalar | 40-70 | 20-25% |
| 2 | Maşın və avadanlıqlar | 15 | 25% |
| 3 | Nəqliyyat vasitələri | 5-30 | 25% |
| 4 | Qurğular (sobalar, borular, kabel xətləri, ötürücü qurğular, hasarlar, hovuzlar, asfalt yollar, talvarlar, çənlər, qüllələr və s.) * | 10 | 25% |
| 5 | Mebel | 7 | 25% |
| 6 | Ofis və laboratoriya avadanlıqları | 5 | 25% |
| 7 | Kompüter avadanlıqları və hesablama texnikası | 5 | 25% |
| 8 | İstehsal alətləri (ləvazimatları) və təsərrüfat inventarları | 3 | 25% |
| 9 | Xüsusi geyimlər | 2 | 25% |
| 10 | İstehsalat Avadanlıqları | 10 | 25% |
| 11 | Qeyri maddi aktivlər** | 0-10 | 25% |
| 12 | Digər əsas vəsaitlər*** | 5 | 25% |

***Qeyd:***

** Hər bir müəssisə əvvəlki təcrübəsinə, istehsalat xarakteristikasına, avadanlığın istehsalatda istifadə imkanlarına əsaslanaraq uyğun amortizasiya normaları müəyyən edə bilər*

*** Məhdud isitsmar müddətli qeyri-maddi aktivlərin amortizasiya normaları müqavilə əsasında hesablanır, istismar müddəti qeyri-məhdud müddətdə olduqda amortizasiya hesablanmır*

**** Hər bir müəssisə yuxarıda qeyd edilən aktivlərdən fərqli kateqoriya aktivi olarsa həmin aktivi digər bölməyə aid edərək aktivə amortizasiya norması müəyyən edir*

***** Başa çatdırılmamış tikililər və quraşdırılmaqda olan maşın və avadanlıqlar üzrə amortizasiya hesablanmır.*

Cəmiyyət hər bir hesabat tarixinə aktivlərin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa və ya fərdi aktiv üçün illik dəyərsizləşmə üzrə təhlil tələb edilirsə Cəmiyyət aktivin əvəz olunması dəyərini təxmin edir. Aktivin əvəz olunma dəyəri, onun digər aktivlərdən müstəqil şəkildə pul vəsaitləri yaratmaq qabiliyyətinin olduğu hallar istisna olmaqla, aktivin və ya pul vəsaiti yaradan vahidin ən yüksək ədalətli dəyərindən satış xərcləri və istifadədə dəyəri çıxılması nəticəsində yaranan dəyərə bərabərdir.

Əgər aktivin (və ya nağd pul yaradan vahidin) bərpa edilə bilən məbləği onun qalıq dəyərindən azdırsa, aktivin (və ya nağd pul yaradan vahidin) balans dəyəri onun bərpa edilə bilən məbləğinə qədər azaldılmalıdır. Aktiv yenidən qiymətləndirilmiş məbləğdə uçota alınıbsa aktivin dəyərsizləşməsi yenidən qiymətləndirmə rezervinin azalması kimi tanınır, əks halda dəyərsizləşmə zərəri dərhal gəlir və ya zərər hesabatlarında tanınır.

Daha sonrakı dövrlərdə dəyərsizləşmə zərəri geri qaytarıldıqda, aktivin (və ya nağd pul vəsaitləri yaradan vahidin) qalıq dəyəri, bərpa edilə bilən dəyər göstəricisi üzrə yeni təxmin edilmiş məbləğə qədər, lakin keçmiş illərdə baş vermiş aktivin dəyərsizləşməsi üzrə zərərlər tanınmamışdan əvvəlki qalıq dəyərindən çox olmamaq şərtilə artırılır. Dəyərsizləşmə zərərinin geri qaytarılması müvafiq aktivin yenidən qiymətləndirmə üzrə uçota alındığı hallar istisna olmaqla dərhal mənfəət və zərər hesablarında tanınır. Yenidən qiymətləndirmə üzrə uçota alınan aktivlərdə dəyərsizləşmə zərərinin geri qaytarılması, yenidən qiymətləndirmə rezervinin artırılması ilə nəticələnir.

Silindikdə, satıldıqda və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə əmlak, tikili və avadanlıqların tanınmasına xitam verilir. Əmlak tikili və avadanlıqlar kateqoriyasına aid aktivlərin tanınmasına xitam verilməsi nəticəsində yaranan mənfəət və zərərlər satış nəticəsində əldə edilən vəsaitlərlə aktivin qalıq dəyəri arasında olan fərq kimi hesablanır və dərhal mənfəət və zərər hesabında tanınır.

**Vergilər**

**Təxirə salınmış vergi**

Təxirə salınmış vergi, maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin balans dəyərləri ilə onların vergi uçotuna uyğun qalıq dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlərin əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivinin qalıq dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa məcmu gəlir hesabında əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır.

Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək xalis şəkildə təqdim edilə bilər:

- Cəmiyyətin cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və

- Təxirə salınmış aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edildikdə və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olduqda.

**Maliyyə alətləri**

Cəmiyyət maliyyə aləti üzrə müqavilə tərəflərindən biri olduqda, maliyyə alətləri və maliyyə öhdəlikləri onun MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda tanınır. Maliyyə aktivləri və öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə ölçülür. Maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin alınması və ya yaranması ilə birbaşa əlaqəli olan əməliyyat xərcləri (mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülən maliyyə aktivləri və maliyyə öhdəliklərindən başqa) əlavə edilir və ya ilkin tanınmada maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin ədalətli dəyərindən, müvafiq olaraq əlavə edilir və ya çıxılır. Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə tanınan maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin alınmasına birbaşa aid olan əməliyyat xərcləri dərhal mənfəət və ya zərərdə tanınır.

**Maliyyə aktivləri**

Maliyyə aktivlərinin müntəzəm şəkildə satın alınması və ya satılması satış tarixi əsasında tanınır və ya xitam verilir. Bütün tanınmış maliyyə aktivləri sonradan, maliyyə aktivlərinin təsnifatına əsasən, amortizasiya edilmiş dəyərdə və ya ədalətli dəyərdə bütünlüklə ölçülür.

*Maliyyə aktivlərinin təsnifatı*

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan amortizasiya olunmuş dəyərlə ölçülür:

- Maliyyə aktivi müqavilə ilə pul vəsaitləri axınını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli daxilində saxlanılır; və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülür (DMGVƏD):

- maliyyə aktivi müqavilə şərtlərinə uyğun olaraq pul vəsaitləri axınının yığılması və maliyyə aktivlərinin satışı məqsədi daşıdıqda, biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Adətən bütün digər maliyyə aktivləri sonradan mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülür (MZVƏD).

Yuxarıda göstərilənlərə baxmayaraq, Cəmiyyət maliyyə aktivinin ilkin tanınmasında aşağıdakı qəti seçimi/təyinatı həyata keçirə bilər:

- Müəyyən meyarlar qarşılanmadıqda Cəmiyyət kapital investisiyası üzrə müvafiq ədalətli dəyərdə dəyişikliyin digər məcmu gəlirdə təqdimatı üçün qəti tədbirlər həyata keçirə bilər; və
- Cəmiyyət uçot sistemində uyğunsuzluğu əhəmiyyətli dərəcədə azaltmaq məqsədilə, amortizasiya edilmiş maya dəyərində və ya DMGVƏD ölçülmə meyarlarına cavab verən borc investisiyasını əks keçid etməmək şərtilə MZVƏD edə bilər.

*Amortizasiya olunmuş dəyər və effektiv faiz dərəcəsi metodu*

Effektiv faiz dərəcəsi metodu borc alətinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəlirinin müvafiq dövr üzrə bölgüsü üsuludur. Satın alınan və ya yaranan kredit zərərinə məruz qalmış maliyyə

aktivlərindən (yəni ilkin tanınma zamanı dəyərsizləşmiş aktivlər) başqa maliyyə aktivləri üzrə effektiv faiz dərəcəsi, ehtimal edilən kredit zərərləri istisna olmaqla borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz hissəsini təşkil edən ödənilmiş, yaxud alınmış bütün haqqlar, ödənişlər, əməliyyat xərcləri və ya mükafatlar) ilkin tanınma anında xalis qalıq məbləğinədək diskontlaşdıran dəqiq dərəcədir.

Alınmış və ya yaranmış kredit dəyərsizləşməsi üzrə maliyyə aktivləri üçün, kreditlə tənzimlənən effektiv faiz dərəcəsi, gözlənilən gələcək pul vəsaitlərinin hərəkətini, ehtimal olunan kredit zərərləri daxil olmaqla, ilkin tanınma zamanı borc alətinin amortizasiya olunmuş dəyərinə diskontlaşdırılmaqla hesablanır.

Maliyyə aktivinin amortizasiya olunmuş dəyəri ilkin tanımada maliyyə aktivinin əsas ödəniş çıxılmaqla, hər hansı zərər üzrə düzəliş edilməklə həmin ilkin dəyər ilə ümumi dəyər arasındakı fərq üzrə effektiv faiz dərəcəsini istifadə etməklə məcmu amortizasiya əlavə olunmaqla, maliyyə aktivinin ölçüldüyü dəyərdir. Maliyyə aktivinin ümumi qalıq dəyəri hər hansı bir zərər öhdəliyinə düzəliş edilməzdən əvvəl maliyyə aktivinin amortizasiya olunmuş dəyəri hesab olunur.

Faiz gəliri daha sonra amortizasiya edilmiş dəyərdə və DMGVƏD ilə qiymətləndirilən borc alətlərinin effektiv faiz metodundan istifadə edilməklə tanınır. Alınmış və ya yaranmış kredit dəyərsizləşməsi üzrə yaranmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivləri üçün, faiz gəliri sonradan kredit itkisinə məruz qalmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivinin ümumi qalıq dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır.

Cəmiyyətin maliyyə aktivlərinin əksəriyyəti daha sonra amortizasiya edilmiş dəyərlə ölçülmüş maliyyə aktivləri kimi təsnif edilmişdir. Cəmiyyətin maliyyə öhdəlikləri daha sonra amortizasiya olunmuş dəyərlə ölçülmüş maliyyə öhdəlikləri kimi təsnif edilmişdir. Cəmiyyət mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə ölçülmüş hər hansı maliyyə öhdəliyinin təsnifatını seçmir.

*Maliyyə aktivlərinin dəyərsizləşməsi*

Cəmiyyət ehtimal olunan kredit zərəri modelini amortizasiya edilmiş dəyərlə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülmüş maliyyə aktivlərinə tətbiq edir.

İlkin tanımadan sonra maliyyə aktivi üzrə kredit riski əhəmiyyətli dərəcədə artıqda, bu maliyyə aktivi üçün ehtimal olunan kredit zərəri üzrə ehtiyat ömürlük ehtimal olunan kredit zərərinə bərabər dəyərdə ölçülür.

Əgər hesabat tarixində maliyyə aktivi üzrə kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmamışdırsa, bu maliyyə aktivi üçün ehtimal edilən kredit zərəri (sadələşdirilmiş yanaşmanın seçildiyi kreditor borcları istisna olmaqla) 12 aylıq ehtimal edilən kredit zərərlərinə bərabər dəyərdə ölçülür. Kreditor borcları və alınacaq digər vəsaitlər üçün, əhəmiyyətli bir maliyyələşdirmə komponentinin olub olmamasından asılı olmayaraq, ömür boyu ehtimal olunan kredit zərəri əsasında ölçülür.

Cəmiyyət ehtimal olunan kredit zərərini qiymətləndirmək üçün daxili modeldən istifadə edir. Model 9 saylı MHBS-ə uyğun olaraq tərtib edilmiş və qarşı tərəflərin kredit risklərinin qiymətləndirilməsi üçün maliyyə sisteminin xüsusiyyətlərini nəzərə alaraq, qarşı tərəflərə hesab sistemini təyin etməklə hazırlanmışdır. Təyin edilmiş bal (reytinq) fərdi şəkildə hesablanmış Defolt Ehtimalıdır (DE).

Aktivin bir bal qrupundan daha aşağı bal qrupuna keçməsi digər meyarlar arasında kredit riskinin əhəmiyyətli artımı hesab olunur.

**Ədalətli dəyərin ölçülməsi**

Ədalətli dəyər ölçülmə tarixində əsas bazarda və ya əsas bazar olmadıqda həmin tarixdə Cəmiyyətin daxil ola biləcəyi daha sərfəli bazarda bazar iştirakçıları arasında intizamlı əməliyyatda aktivi satmaq üçün qəbul

edilmiş və ya öhdəliyi ötürmək üçün ödəniləcək qiymətdir. Ədalətli dəyərin ölçülməsinə əsasən, aktivin satılması və ya öhdəliyin ötürülməsi üzrə əməliyyat:

- aktiv və ya öhdəlik üçün əsas bazarda; və ya
- əsas bazarın yoxluğu şəraitində aktiv və ya öhdəlik üçün ən əlverişli bazarda baş verir.

Əsas bazar və ya ən əlverişli bazar Cəmiyyət tərəfindən əlçatan olmalıdır. Aktiv və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçılarının öz iqtisadi maraqlarına uyğun hərəkət etdiklərini nəzərə alaraq aktiv və ya öhdəliklərin ədalətli dəyərini müəyyənləşdirərkən bazar iştirakçılarının aktiv və ya öhdəliyin ölçülməsində istifadə etdikləri mülahizələrdən istifadə edilir. Qeyri-maliyyə aktivlərinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivin ən çox və ən yaxşı istifadə tətbiqindən yararlanmaqla ondan istifadə etmək və ya başqa bazar iştirakçısına satmaq yolu ilə iqtisadi mənfəəti artırmaq bacarığı nəzərə alınır.

Cəmiyyət həmin şəraitdə müvafiq olan və ədalətli dəyərin ölçülməsi üçün mövcud olan məlumatlar üzrə müvafiq müşahidə edilən gəlirlərin istifadəsini artıran və müşahidə edilə bilməyən gəlirlərin istifadəsini azaldan qiymətləndirmə üsullarından istifadə edir.

Ədalətli dəyəri ölçülən və maliyyə hesabatında açıqlanmış bütün aktivlər və öhdəliklər aşağıda təsvir edilmiş və bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün mühüm olan ən aşağı səviyyədə məlumatlara əsaslanmış ədalətli dəyər iyerarxiyasında təsnifləşdirilir:

- Səviyyə 1 – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- Səviyyə 2 – aktiv və ya öhdəlik üçün birbaşa və ya dolayısı ilə müşahidə edilə bilən məlumatlar olan ilkin məlumatlardan istifadə edilir;
- Səviyyə 3 – aktiv və ya öhdəlik üçün müşahidə edilə bilməyən məlumatlar olan ilkin məlumatlardan istifadə edilir.

Maliyyə hesabatında dövrü əsasda tanınmış aktivlər və öhdəliklər üzrə Cəmiyyət hər hesabat dövrünün sonunda yenidən təyin edilmiş təsnifatla (bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün zəruri olan ən aşağı səviyyəli məlumata əsaslanmış) iyerarxiyada Səviyyələr arasında köçürmələrin olubolmamasını müəyyən edir.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Cəmiyyət yalnız aktiv üzrə pul daxil olmaları ilə bağlı müqavilə hüquqlarının vaxtı bitdikdə, yaxud maliyyə aktivini və aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün risk və imtiyazları əsas etibarilə digər müəssisəyə ötürdükdə maliyyə aktivinin tanınmasını dayandırır.

**Maliyyə öhdəlikləri və kapital**

*Borc və ya kapital aləti olaraq təsnifləşdirmə*

Borc və kapital alətləri müqavilə razılaşmalarının məzmununa və maliyyə öhdəliyi ilə kapital alətinin təriflərinə uyğun olaraq ya maliyyə öhdəliyi, ya da kapital kimi təsnif edilir.

*Kapital alətləri*

Kapital aləti müəssisənin bütün öhdəlikləri çıxıldıqdan sonra qalan aktivlərində hər hansı bir pay əldə etmək hüququ verən istənilən bir müqavilədir. Cəmiyyət tərəfindən buraxılan kapital alətləri birbaşa buraxılma xərcləri çıxılmaqla əldə edilən vəsaitlərin cəmi məbləğində tanınır.

Cəmiyyətin öz kapital alətlərini satınalması, kapitalı azaldan bir əməliyyatdır və nəticəsi kapital bölümündə tanınır. Cəmiyyətin öz kapital alətlərinin satınalması, satılması, buraxılması və ya ləğv edilməsi ilə bağlı yaranmış mənfəət və zərər məbləğləri mənfəət və zərər hesablarında tanınmamalıdır.

*Maliyyə öhdəlikləri*

Bütün maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə etməklə və MZVƏD əsasında tanınmaqla amortizasiya olunmuş dəyərlə ölçülür.

Maliyyə öhdəliyi (i) biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olduqda, (ii) ticarət və ya (iii) MZVƏD üçün nəzərdə tutlduğu halda maliyyə öhdəlikləri MZVƏD üzrə təsnif edilir.

(i) Biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olmayan, (ii) ticarət və ya (iii) MZVƏD üzrə təsnif edilməyən maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə edərək amortizasiya olunmuş dəyərdə ölçülür. Effektiv faiz metodu maliyyə aktivi və ya maliyyə öhdəliyinin, yaxud maliyyə aktivləri və ya öhdəlikləri qrupunun amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəliri, yaxud faiz xərcinin müvafiq dövr üzrə bölüşdürülməsi üsuludur. Effektiv faiz dərəcəsi borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz hissəsini təşkil edən məntəqələrdə ödənilmiş, yaxud alınmış bütün haqqlar, əməliyyat xərcləri və digər mükafat yaxud endirimlər) ilkin tanınma anında xalis balans məbləğinədək dəqiqliklə diskontlaşdıran dərəcədir.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Cəmiyyət maliyyə öhdəliyini MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda (və ya maliyyə öhdəliyinin bir hissəsini) yalnız bu öhdəlik ləğv edildiyi halda, məsələn müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə və ya ləğv olunduqda və ya müddəti başa çatdığı zaman çıxarır.

Əsaslı şərtlərlə borc alətləri üzrə mövcud debitor və kreditor arasında mübadilə aparılması halları ilkin maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi nəzərə alınır. Eynilə, mövcud maliyyə öhdəliyinin və ya onun bir hissəsinin (debitorun maliyyə çətinlikləri ilə əlaqəli olmasından asılı olmayaraq) şərtlərinin əhəmiyyətli şəkildə dəyişdirilməsi, ilkin maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi tanınır.

Yeni yaradılmış maliyyə öhdəliyinin şərtlərinə əsasən, o cümlədən alınmış hər hansı haqqlar üzrə nağd ödənilmiş haqqlar və ilkin effektiv faiz dərəcəsi ilə diskontlaşdırılmış ödənişlər də daxil olmaqla, pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyəri, ilkin maliyyə öhdəliyi üzrə qalan pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyərindən ən az 10 faiz fərqləndikdə, yeni müddəaların əhəmiyyətli dərəcədə fərqli olması hesab edilir. Borc alətlərinin mübadiləsi və ya şərtlərin dəyişdirilməsi öhdəliyin ləğvi olaraq nəzərə alınırsa, çəkilmiş xərclər və ya haqqlar ləğvetmə üzrə gəlir və ya zərərin bir hissəsi kimi tanınır. Mübadilə və ya dəyişdirmə öhdəliyin ləğvi olaraq nəzərə alınmırsa, hər hansı xərclər və ya haqqlar öhdəliyin qalıq dəyərində düzəliş olaraq tanınır və dəyişdirilmiş öhdəliyin qalan müddəti ərzində amortizasiya olunur.

**Maliyyə alətlərinin əvəzləşdirilməsi**

Maliyyə aktivləri və öhdəlikləri yalnız Cəmiyyətin aktiv və öhdəliklərin əvəzləşdirilməsi üçün müəyyən edilmiş hüququ olduqda, eləcə də Cəmiyyətin müqavilə üzrə əvəzləşdirməni aparmaq və eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda əvəzləşdirilə bilər

**Debitor borcları və digər alınacaq vəsaitlər**

Debitor borcları gözlənilən pul axınlarını effektiv faiz dərəcəsi üsulundan istifadə etməklə amortizasiya dəyərində uçota alınır. Cəmiyyət debitor borcları və müqavilə aktivləri üçün ehtimal olunan kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir. Ehtiyat dərəcələri oxşar zərər modellərinə malik olan müxtəlif müştəri seqmentləri üzrə (yəni, coğrafiya, məhsul növü, müştəri növü və reytinqi, akkreditiv və digər kredit növləri ilə əhatəsi) qruplarda vaxtı keçmiş günlərə əsaslanır.

Ehtiyat cədvəli ilkin olaraq Cəmiyyətin tarixən müşahidə olunmuş defolt dərəcələrinə əsaslanır. Cəmiyyət tarixi kredit zərəri təcrübəsini perspektiv məlumatlarla uyğunlaşdırmaq üçün cədvələ düzəlişlər edir. Məsələn, əgər istehsal sektorunda defolt sayının artmasına gətirib çıxaran proqnozlaşdırılan iqtisadi şərtlər (yəni, ümumi daxili məhsul) gələn il ərzində pisləşəcəkdirsə, bu zaman tarixi defolt dərəcələrinə düzəliş edilir. Hər bir hesabat tarixində tarixi müşahidə olunmuş defolt dərəcələri yenilənir və gələcək perspektiv ehtimallar təhlil edilir. Tətbiq olunduğu hallarda Cəmiyyət qarşı tərəflərin xarici dərəclərindən əldə edilmiş faiz dərəcələrinə əsaslanır.

Tarixi müşahidə olunmuş defolt dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və ehtimal olunan kredit zərəri arasında korrelyasiyanın qiymətləndirilməsi əhəmiyyətli dərəcədə təxminlərdən ibarətdir. Ehtimal olunan kredit zərərinin məbləği şərtlərdə və iqtisadi şəraitdə dəyişikliklərə həssasdır. Cəmiyyətin tarixi kredit zərəri üzrə təcrübəsi və iqtisadi şəraitin proqnozu da gələcəkdə müştərinin faktiki defolt vəziyyətini tam şəkildə əks etdirə bilməz.

**Pul vəsaitləri və onların ekvivalentlər**

Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul vəsaitləri, tranzit pul vəsaitləri, banklardakı cari hesablar və ilkin ödəmə müddəti üç ay və ya daha az olan banklardakı qısamüddətli depozitlər, ƏDV depozit hesabı daxildir.

**Kreditor borcları və digər ödəniləcək vəsaitlər**

Kreditor borcları və digər ödəniləcək vəsaitlər qarşı tərəf müqavilədə nəzərdə tutulmuş öhdəliklərini icra etdiyi zaman tanınır və effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərdə uçota alınır.

**Mal-material ehtiyatları**

Mal-material ehtiyatları maya dəyəri və ya xalis satış dəyərinin ən aşağı səviyyəsində uçota alınır. Mal-material ehtiyatlarının dəyəri orta çəkili dəyər prinsipinə əsaslanır və ehtiyatların əldə edilməsinə çəkilən xərcləri, eləcə də istehsal və ya emal xərclərini və bu aktivləri mövcud yerlərinə və vəziyyətinə gətirmək üçün çəkilən digər xərcləri əhatə edir. İstehsal edilmiş ehtiyatlar və tamamlanmamış işlərə münasibətdə isə, maya dəyəri adi iş qabiliyyətinə əsaslanan istehsal xərclərinin müvafiq hissəsini əhatə edir.

Xalis satış dəyəri, təxmini tamamlama və satış xərcləri çıxılmaqla, adi iş müddətində ehtimal olunan satış qiymətidir.

**Təchizatçılara verilmiş avans ödənişləri**

Təchizatçılara verilmiş avans ödənişləri zərər üzrə ehtiyat çıxılmaqla ilkin dəyərlə tanınır. Avans ödənişləri ilə bağlı mal və ya xidmətlərin bir ildən sonra əldə ediləcəyi ehtimal olunduqda və ya ilkin tanınma zamanı aktivlə bağlı avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edildikdə hesabat tarixində bu avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edilir. Uzunmüddətli avans ödənişləri maliyyə vəziyyəti haqqında hesabatda əmlak, tikili və avadanlıqların təchizatçılarına avans ödənişləri olaraq təsnif və təqdim edilir.

Aktivlərin əldə olunması üçün ödənilmiş avanslar Cəmiyyət aktivin nəzarətini ələ keçirdikdən sonra aktivin qalıq dəyərinə köçürülür və aktivlə bağlı gələcək iqtisadi səmərələrin Cəmiyyətə daxil olacağı ehtimal olunur. Avans ödənişlərinə aid olan mal və ya xidmətlər əldə olunan zaman digər əməliyyatlar üzrə avans ödənişləri mənfəət və zərər hesablarına silinir. Avans ödənişləri ilə bağlı aktivlər mal və ya xidmətlərin əldə olunmadığına dair göstərici olduqda, avans ödənişlərinin qalıq dəyəri müvafiq olaraq silinir və müvafiq dəyərsizləşmə zərəri məcmu gəlir haqqında hesabatda qeydə alınır.

**Əlavə Dəyər Vergisi**

Ödəniləcək ƏDV və iddia olunan əvəzləşdiriləcək ƏDV arasındakı fərq hesabat ayından sonra 20 gün ərzində dövlət büdcəsinə ödənilir. Satış ilə əlaqədar ödəniləcək əlavə dəyər vergisi vergi orqanlarına bu satışların qarşılığında ödəniş alındıqda ödənilir. Əvəzləşdiriləcək ƏDV bir qayda olaraq elektron ƏDV hesab fakturası alındıqdan sonra ödəniləcək ƏDV ilə əvəzləşdirilir. Vergi orqanları ƏDV-nin xalis əsaslarla hesablanmasına icazə verir.

Satış və alış ilə əlaqədar olan ƏDV maliyyə vəziyyəti hesabatında ümumi məbləğdə uçota alınır və aktiv və öhdəlik kimi ayrıca olaraq açıqlanır. Alınacaq vəsaitlərin dəyərsizləşməsi ilə əlaqədar ehtiyat yaradıldıqda, dəyərsizləşmə zərəri ƏDV daxil olmaqla borcluya aid olan ümumi məbləğin tərkibində uçota alınır.

**ƏDV depozit hesabı**

Əlavə Dəyər Vergisi (“ƏDV”) depozit hesabı sistemi Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən ƏDV ilə bağlı neqativ halların qarşısını almaq məqsədilə tətbiq olunan sistemdir. 1 yanvar 2008-ci il tarixindən Vergilər Məcəlləsinə edilmiş düzəlişlərə əsasən, ƏDV ödənişinin məbləği təqdim olunmuş ƏDV hesab-fakturalarına uyğun olaraq vergi ödəyicisinin ƏDV depozit hesabında aparılan əməliyyatlar çərçivəsində bu hesaba ödənilmiş olduğu vergi məbləğidir.

Bu modulun köməkliyi ilə, vergi ödəyicisi ƏDV hesab fakturasında qeyd olunmuş ƏDV məbləğini digər vergi ödəyicisinin ƏDV depozit hesabına ödəyir. Eyni zamanda dövlət büdcəsi qarşısında bütün növ vergi öhdəlikləri və Gömrük Komitəsinə ödənilməli olan idxal əməliyyatları ilə bağlı ƏDV məbləğləri vergi ödəyicisi tərəfindən ƏDV depozit hesabı vasitəsilə ödənilə bilər. Ödənilmiş məbləğlər barəsində məlumat vergi orqanı tərəfindən Baş Dövlət Xəzinədarlığına və daha sonra Azərbaycan Respublikası Mərkəzi Bankına (“ARMB”) ötürülür. Mərkəzi Bank Baş Dövlət Xəzinədarlığı (“BDX”) tərəfindən təqdim olunmuş məlumat əsasında məbləğlərin müvafiq yerli xəzinədarlıq orqanlarına köçürülməsini təmin edir. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti təqdim olunmuş məlumatda qeyd edilən məbləğlərin vergi ödəyicisinin şəxsi faylına daxil edilməsini təmin edir. Cari sistem Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi Məlumatı Sisteminə qoşulmuşdur. Eyni zamanda BDX-də və ARMB-də elektron məlumat mübadiləsi təşkil olunmuşdur.

ƏDV depozit hesabının tətbiqi ödənişlərə və qaytarılan ƏDV məbləğlərinə vaxtlı-vaxtında nəzarət etmək imkanı verir. Vergi borcları olan vergi ödəyiciləri bu məbləğləri yalnız Dövlət Büdcəsinə köçürə bilər. Vergi ödəyiciləri banklara getmədən dövlət büdcəsinə, digər vergi ödəyicilərinin ƏDV depozit hesabına və Gömrük Komitəsinə depozit hesabı vasitəsilə ödəniş edə bilərlər. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti xüsusi proqram təminatından istifadə etməklə depozit hesabıyla aparılan bütün əməliyyatlara avtomatik şəkildə nəzarət edir.

ƏDV depozit hesabındakı vəsaitlərdən istifadə məhdudlaşdırılmışdır və yalnız ƏDV və digər müvafiq vergilərlə bağlı əməliyyatlar üçün istifadə edilə bilər.

**Lizinq sazişləri**

İcarə nəzərdən keçirildiyi müddət ərzində aktivdən (əsas aktivdən) istifadə üzrə müqavilədir. Əgər müştərinin müəyyən edilmiş aktivin istifadəsi üzrə və aktivin birbaşa istifadəsi nəticəsində yaranan iqtisadi mənfəəti əldə etmək hüququ varsa, nəzarətin davam etdiyi hesab edilir.

İcarə öhdəliyi başladıqda Mərkəz qısa müddətli, eləcə də aşağı dəyərli icarə öhdəliyindən başqa bütün icarələr üçün aktiv və icarə öhdəliyini istifadə hüququnu tanıyır.

Aktivdən istifadə hüququ əvvəlcə maya dəyəri ilə ölçülür və sonradan yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə ölçülür.

İcarə öhdəliyi əvvəlcə gələcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülür. Sonradan icarə öhdəlikləri faiz və icarə ödənişləri üçün düzəldilir.

Cəmiyyətin rəhbərliyi keçmiş dövrlərə aid məlumatlara əsaslanaraq icarə şərtlərinin müəyyənləşdirilməsində müəyyən təxminlərdən istifadə etmişdir.

**Nizamnamə kapitalı**

Nizamnamə kapitalı Cəmiyyətin səhmdarının qoyduğu kapitalın məbləğidir. Cəmiyyət nizamnamə kapitalını səhmdarın təsdiqi çərçivəsində artıra və ya azalda bilər.

**Xarici valyuta əməliyyatları**

Cəmiyyətin funksional valyutası fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin funksional və hesabat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır (“AZN”).

Monetar aktiv və öhdəliklər ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan, rəsmi valyuta məzənnəsinə əsasən hər bir müəssisənin funksional valyutasına çevrilir. Xarici valyuta əməliyyatları əməliyyat tarixində mövcud olan məzənnə ilə uçota alınır.

İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızların ədalətli dəyərinə təsiri ədalətli dəyər üzrə yenidən qiymətləndirmə nəticəsində gəlir və ya xərclərin bir hissəsi kimi qeydə alınır.

Maliyyə hesabatının hazırlanması zamanı Cəmiyyət aşağıda göstərilən valyuta məzənnələrindən istifadə etmişdir:

| | | **31.12.2019** | **31.12.2018** |
|---|---|---|---|
| **Valyuta** | **Kod** | **Məzənnə** | **Məzənnə** |
| 1 ABŞ dolları | USD | 1.7000 | 1.7000 |
| 1 Avro | EUR | 1.9035 | 1.9468 |
| 1 Rusiya rublu | RUB | 0.0274 | 0.0245 |

**Şərti öhdəliklər və aktivlər**

Şərti öhdəliklər MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Onlar iqtisadi cəhətdən səmərəli resursların məxarici ehtimalı olmayanadək MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatın qeydlərində açıqlanır.

Şərti aktivlər MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda qeyd olunmur, lakin, iqtisadi mənfəət əldə edilməsi ehtimalı olduqda maliyyə hesabatında açıqlanır.

**Gəlirlər**

Gəlir müəssisənin adi fəaliyyətindən yaranan mədaxildir. Mədaxil dövr ərzində səhmdarların əlavə kapital qoyuluşları istisna olmaqla, aktivlərin daxil olması, böyüməsi və ya öhdəliklərin azalması səbəbindən müəssisənin kapitalının artması ilə nəticələnənən iqtisadi faydalardır.

Gəlir hesablama metodu ilə tanınır. Gəlirin tanınması onunla bağlı pul vəsaitinin ödənilməsi heç də əsas şərt deyil. Məhsulların satışından əldə edilən gəlirlər adətən həmin məhsulların yükləndiyi zaman məhsullar üzərində nəzarətin ötürüldüyü anda qeydə alınır. Gəlir ƏDV, aksiz, güzəştlər və satışdan tutulan digər vergilər (əgər mövcuddursa) çıxılmaqla göstərilir.

Gəlir məhsul və ya xidmətlərin müştərinin nəzarətinə verildikdə tanınır. Nəzarət alıcının aktivdən qalan faydaya sahib olma və ondan istifadəyə əsaslanır. Müəssisə kontrakt bağlanarkən məhsul və ya xidmət üzərində nəzarətin dövr üzrə və ya konkret vaxt anında keçdiyini təyin etməlidir.

Cəmiyyət gəliri dövr üzrə aşağıdakı şərtlər daxilində tanıya bilər:

- Cəmiyyət öhdəlikləri icra etdikcə alıcı faydanı qəbul edir və istehlak edir – adətən xidmət müqavilələrinə şamil edilir, məsələn təmizlik xidmətləri
- Cəmiyyət müştərinin nəzarət etdiyi aktivləri yaradır və ya artırır – belə hallar adətən müəssisə məhsulu istehsal etdikcə müştərinin onu əldə etməsi hallarında olur
- Cəmiyyətin yaratdığı aktivin alternativ istifadəsi yoxdur və müəssisə işin görüldüyü tarixə ödənişi almağa hüququ var – bu şərt əməliyyatın yuxarıdakı iki hala uyğun olmadığı halda nəzərdən keçirilir.

Əgər öhdəlik dövr üzrə icra olunmursa müəssisə gəliri konkret vaxt anında tanıyır.

Nəzarətin Cəmiyyətdən alıcıya keçməsini aşağıdakı indikatorlar göstərir:

- Cəmiyyətin ödənişi almaq hüququ yaranıb
- Cəmiyyət aktivin hüquqi titulunu müştəriyə ötürüb
- Aktivin fiziki sahibliyi müştəriyə ötürülüb
- Cəmiyyət əməmiyyətli riskləri və mükafatları müştəriyə ötürüb
- Müştəri aktivi qəbul edib.

Gəlirin tanınması üçün yuxarıdakı meyarların hamısının eyni zamanda yerinə yetirilmiş olması zəruri deyil. Cəmiyyətdə iş və xidmətlərin göstərilməsi zamanı gəlirlər hazırkı tarixədək çəkilmiş məsrəflərin əməliyyat üzrə qiymətləndirilmiş ümumi məsrəflərə faiz nisbəti metodundan istfadə edərək tanınırlar.

**Xərclər**

***Müqavilə xərclərinin tanınması***
Cəmiyyət müqaviləni əldə etmək üçün çəkdiyi marjinal xərcləri bərpa edəcəyinə əmindirsə onu aktiv kimi tanımalıdır. Artan (marjinal) xərclər müqaivləni əldə etməklə əlaqədar ortaya çıxan xərclərdir. Müqavilədən asılı olmayaraq mövcud olan xərclər isə kapitallaşdırılmamalıdır. Əgər kapitallaşdırılan xərclərin amortizasiya müddəti bir ildən az olarsa Cəmiyyət belə xərcləri yarandıqca silə bilər.

***Xərclərin uçotu***
Xərc gəliri əldə etmək üçün çəkilən məsrəfdir. Xərc ödəmə vaxtından asılı olmayaraq müəssisənin ödəmə öhdəliyi yarandığı və resursların müəssisədən kənara getməsi əminliyi yarandığı anda tanınır.
Müəssisələrdə istehsal xərclərinin uçotu (məhsulun maya dəyərinin kalkulyasiyası) normativ metodu ilə aparılır.
Dolayı (ümumistehsal) xərclər istehsal olunan məhsullar arasında material xərclərinə mütənasib bölünür.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Cəmiyyətin MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatın hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verməsini tələb edir.

Nəticədə biznes fəaliyyətlərinin qeyri-müəyyənliyi nəticəsində MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda bir çox maddələrin dəqiq qiymətləndirilməsi mümkün olmur və yalnız müəyyən ehtimallar irəli sürülə bilər. Ehtimallar MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabat hazırlanarkən ən son məlumatlara əsaslanan mühakimələri nəzərdə tutur. Gələcək hadisələr haqqında mövcud

vəziyyət və ehtimallar Cəmiyyətin nəzarətindən kənarda yaranan bazar dəyişiklikləri və ya şəraitə görə dəyişə bilər. Bu cür dəyişikliklər baş verdikləri zaman Cəmiyyət tərəfindən edilən təxminlərdə öz əksini tapır.

Ən əhəmiyyətli təxminlər əmlak və avadanlıqların amortizasiya dövrü, maliyyə və qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi, maliyyə alətlərinin ədalətli dəyəri, köhnəlmiş mal və material ehtiyatları üzrə ehtiyatlar ilə bağlıdır. Faktiki nəticələr həmin təxminlərdən fərqli ola bilər.

**Mülahizələr**

Cəmiyyətin mühasibat uçotu siyasətinin tətbiq edilməsi prosesində rəhbərlik MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatında tanınmış məbləğlər üzrə nəzərə alınmış əhəmiyyətli təsiri olan təxminlərdən başqa aşağıdakı mülahizələri edir.

***Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlər üzrə ədalətli dəyər***

Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin Cəmiyyətə təhvil verildiyi tarixə hesablanmış şərti dəyər olaraq ədalətli dəyərlə ölçülmüşdür.

Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin bazar dəyəri, 13 saylı MHBS-ə əsasən əmlakın, tikili və avadanlıqların ədalətli dəyərinə bərabər olan bənzər əmlak, tikili və avadanlıqlar üçün bazar satış qiymətlərinin təhlilini əhatə edən bazar yanaşması metodu ilə qiymətləndirilmişdir.

***Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti***

Cəmiyyət hər maliyyə ilinin sonunda əmlak, tikili, avadanlıqlar və qeyri-maddi aktivlərin qalan faydalı istifadə müddətini qiymətləndirir. Bu aktivlərin nəzərdə tutulan faydalı istifadə müddəti ötən ilin qiymətləndirilməsindən fərqli olduqda, 8 saylı MUBS “Uçot Siyasətləri, Uçot Qiymətləndirmələrində Dəyişikliklər və Xətalar” standartına müvafiq olaraq uçot təxminlərində dəyişiklik olaraq uçota alınır. Belə təxminlərin əmlak, tikili və avadanlıqların qalıq dəyərlərinin məbləğləri və mənfəət və zərərdə tanınmış amortizasiya üzrə təsirləri olur.

***Əmlak, tikili və avadanlıqların və digər qeyri-maliyyə aktivlərin dəyərsizləşməsi***

Cəmiyyət hər bir hesabat tarixinə aktivlərin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa və ya fərdi aktiv üçün illik dəyərsizləşmə üzrə təhlil tələb edilirsə Cəmiyyət aktivin əvəz olunması dəyərini təxmin edir. Aktivin əvəz olunma dəyəri onun digər aktivlərdən müstəqil şəkildə pul vəsaitləri yaratmaq qabiliyyətinin olduğu hallar istisna olmaqla, aktivin və ya pul vəsaiti yaradan vahidin ən yüksək ədalətli dəyərindən satış xərcləri və istifadə dəyəri çıxılması nəticəsində yaranan dəyərə bərabərdir.

Aktivin ədalətli dəyəri onun əvəzolunma dəyərindən artıq olduqda aktiv dəyərsizləşmiş hesab edilir və onun qalıq dəyəri müvafiq olaraq azaldılır. İstifadə dəyərini qiymətləndirərkən, pulun zaman dəyəri və aktivə xas olan risklərin cari bazar qiymətləndirməsini əks etdirən vergidən öncə diskont dərəcəsi istifadə edilərək ehtimal olunan gələcək pul axınları mövcud dəyərinə diskontlaşdırılır. Satış xərcləri çıxılmaqla ədalətli dəyəri müəyyən edərkən, cari bazar əməliyyatları (mövcud olduqda) nəzərə alınır. Bu cür əməliyyatlar müəyyən edilə bilmədikdə, müvafiq qiymətləndirmə modeli istifadə olunur.

Cəmiyyət dəyərsizləşmə üzrə hesablamanı, fərdi aktivin ayrıldığı Cəmiyyətin hər bir nağd yaradan vahidi (CGU) üçün ayrı-ayrılıqda hazırlanan ətraflı büdcələrə və proqnoz hesablamalarına əsaslanır. Bu büdcələr və proqnoz hesablamaları ümumilikdə 5 illik dövrü əhatə edir. Daha uzun dövrlər üçün, uzunmüddətli böyümə sürəti müəyyənləşdirilir və beşinci ildən sonra gələcək pul vəsaitlərinin hərəkəti üçün tətbiq olunur. 31 dekabr 2019-cu il tarixinə əsas vəsaitlər üzrə yığılmış dəyərsizləşmə zərəri 530,743 AZN təşkil etmişdir.

***Mal-material ehtiyatlarının qiymətləndirilməsi***

Mal-material ehtiyatları maya dəyər və ya xalis satış dəyərindən daha az olan məbləğdə qiymətləndirilir. Cəmiyyət uyğun olduqda köhnəlmiş və az istifadə edilən mal-material ehtiyatlarının qalıq dəyərini xalis satış dəyərinə qədər azaldaraq uçota alır. Mal-material ehtiyatlarının silinməsi üzrə yaranan faktiki dəyər xalis satış dəyərindən fərqli ola bilər; istənilən fərqin gələcək əməliyyat nəticələri üzərində əhəmiyyətli təsiri ola bilər.

**ƏDV-nin bərpası**

Hər hesabat tarixində Cəmiyyət mal və xidmətlərin satışından yaranan ƏDV-nin bərpasını qiymətləndirir. Cəmiyyət bu məbləğləri yalnız gələcəkdə yaranacaq ƏDV öhdəliyinin əvəzləşdirilməsi və ya vergi orqanlarından toplanması vasitəsilə ala bilər. ƏDV üzrə alınacaq vəsaitlərin bərpası qiymətləndirilərkən Cəmiyyət planlaşdırılmış ƏDV öhdəliyi, dövlət vergi orqanları ilə yazışmaları və tarixi bərpa təcrübəsi ilə bağlı daxili vergi departamentindən alınan məlumatları nəzərə alır.

ƏDV-nin bərpasının cari məbləği Cəmiyyətin təxminlərindən əhəmiyyətli dərəcədə fərqlənə bilər və bu da öz növbəsində əməliyyat nəticələrinə təsir göstərə bilər.

***Maliyyə alətlərinin ədalətli dəyərinin ölçülməsi***

Cəmiyyətin bir sıra mühasibat uçotu siyasəti və açıqlamaları, maliyyə və qeyri-maliyyə aktivləri və öhdəlikləri üçün ədalətli dəyərin ölçülməsini tələb edir.

Cəmiyyət ədalətli dəyərin ölçülməsi ilə əlaqədar olaraq müəyyən nəzarət çərçivəsinə malikdir.

Aktiv və ya öhdəliyin ədalətli dəyərini ölçərkən, Cəmiyyət mümkün qədər bazarda müşahidə edilə bilən məlumatlardan istifadə edir. Ədalətli dəyərlər aşağıdakı qiymətləndirmə üsullarında istifadə olunan məlumatlara əsaslanaraq ədalətli dəyər iyerarxiyasında müxtəlif səviyyələrdə təsnifləşdirilir.

- *Səviyyə 1* – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- *Səviyyə 2* – aktiv və ya öhdəlik üzrə birbaşa (yəni qiymətlər) və ya dolayı yolla (yəni qiymətlərdən əldə edilir) müqayisə edilə bilən 1-ci düzəlişdə daxil edilmiş qiymətlərdən başqa daxilolmalar;
- *Səviyyə 3* – aktiv və ya öhdəlik üçün müşahidə edilə bilməyən məlumatlar olan ilkin məlumatlardan istifadə edilir.

Bir aktivin və ya öhdəliyin ədalətli dəyərini ölçmək üçün istifadə edilən məlumatlar, ədalətli dəyər iyerarxiyasının müxtəlif səviyyələrində təsnif edilə bilərsə, ədalətli dəyər iyerarxiyasının eyni dərəcəsi bütün ölçmə üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş kimi ədalətli dəyərin ölçülməsi bütünlükdə təsnif edilir.

***Cari vergilər***

Azərbaycanda vergi, valyuta və gömrük qanunvericiliyi tez-tez baş verən şərhlərə və dəyişiklərə məruz qalır. Bundan başqa Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq olunan vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərhi, Cəmiyyətin rəhbərliyinin şərhi ilə uyğun gəlməyə bilər. Nəticədə, vergi orqanları əməliyyatları yenidən təsnif edə bilər və Cəmiyyətin işçiləri əhəmiyyətli dərəcədə əlavə vergi, cərimə və faiz ödəmələrinə məruz qala bilərlər.

Vergi və gömrük qurumları müəssisənin fəaliyyətinin nəzərdən keçiriləcəyi ildən əvvəlki üç il ərzində vergi öhdəliklərini yoxlaya bilərlər. Cəmiyyətin fəaliyyətinin nəzərdən keçirilməsi müəyyən şərtlər çərçivəsində daha uzun müddətləri də əhatə edə bilər. 1 yanvar 2020-ci il tarixinə rəhbərlik hesab edir ki, onların müvafiq qanunvericiliklə bağlı şərhləri uyğundur və ehtimal olunur ki, Cəmiyyətin vergi, valyuta və gömrüklə bağlı cari vəziyyəti dəyişməyəcək.

*Təxirə salınmış vergilər*

Təxirə salınmış vergi aktivləri istifadə olunmayan vergi zərərləri üçün zərərlərin istifadə oluna biləcəyi vergiyə cəlb olunan mənfəətin olması ehtimalı daxilində tanınır. Gələcək vergi planlaşdırma strategiyaları ilə birlikdə ehtimal olunan vaxt və gələcək vergiyə cəlb olunan mənfəət səviyyəsinə əsaslanaraq, təxirə salınmış vergi aktivlərinin məbləğini müəyyənləşdirmək üçün əhəmiyyətli idarəetmə qərarı tələb olunur.

**İcarə müddəti və artan borc dərəcəsinin qiymətləndirilməsi**

Cəmiyyət icarə müddətini icarənin həyata keçirilməsinin məqsədəuyğun olduğu təqdirdə icarə müddətinin uzadılması variantının əhatə etdiyi bütün dövrlərlə və ya icarəyə xitam vermə opsiyasının əhatə olunduğu hər hansı bir müddətlə, əgər yerinə yetirilməməsinin əsaslı şəkildə müəyyənləşdirildiyi təqdirdə, icarə müddətinin ləğv olunmayan müddəti kimi təyin edir.

Cəmiyyətin müddətinin uzadılması və ya ləğv edilməsi seçimlərini özündə əks etdirən bir neçə icarə müqaviləsi mövcuddur. Cəmiyyət icarəni yeniləmək və ya ləğv etmək seçimini həyata keçiribkeçirməyəcəyini məqbul çərçivə daxilində müəyyən olub-olmadığını qiymətləndirərkən təxminlərdən istifadə edir. Yəni həm yeniləməni, həm də ləğv etməni həyata keçirmək üçün iqtisadi stimul yaradan bütün müvafiq amilləri nəzərə alır. Başlama tarixindən sonra yeniləmə və ya ləğv etmə seçimini həyata keçirmək və ya istifadə etməmə qabiliyyətinə təsir edən əhəmiyyətli dərəcədə bir hadisə və ya onun nəzarəti altında olan şərtlərdə dəyişiklik baş verdikdə, Cəmiyyət icarə müddəti ilə bağlı ehtimallarını yenidən qiymətləndirir.

Cəmiyyət icarəyə aid birbaşa faiz dərəcəsini asanlıqla müəyyən edə bilmədiyi üçün icarə öhdəliklərini ölçmək üçün artan borc üzrə faiz dərəcəsindən (‘IBR’) istifadə edir. Bu, bənzər müddətdə borc almaq üçün Cəmiyyətin ödəməli olduğu faiz dərəcəsidir və bənzər təminatla, bənzər mühitdə aktivlərdən istifadə hüququ üzrə eyni dəyərə bərabər olan aktivin əldə edilməsi üçün tələb olacaq vəsaitdir. Bu səbəbdən IBR, müşahidə edilə bilən dərəcələr olmadıqda və ya icarə şərtlərini əks etdirmək üçün düzəliş edilməli olduqda qiymətləndirmə tələb edən şirkətin ‘ödəməli olduğunu’ əks etdirir. 1 yanvar 2020-ci il tarixinə rəhbərlik tərəfindən istifadə edilən IBR% 9.25 olmuşdur.

## 4. YENİ VƏ YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN QƏBUL EDİLMƏSİ

Cəmiyyət, fəaliyyətinə aid olan və 31 dekabr 2019-ci il tarixində başa çatan illik hesabat dövrü üçün qüvvədə olan BMUSŞ və BMUS-un BMHŞK tərəfindən dərc olunmuş və tətbiq olunan bütün yeni və yenidən işlənmiş Standart və Şərhləri qəbul etmişdir. Aşağıdakı standartların 1 yanvar 2020-ci il tarixindən sonra 1 yanvar 2022-ci il tarixinədək qüvvəyə minməsi gözlənilir. Bununla belə, 1 saylı MHBS-ə əsasən, Cəmiyyət bu standartları daha əvvəl qəbul etmişdir.

**3 saylı MHBS Müəssisələrin Birləşməsi. “Müəssisə” tərifinə edilən Düzəliş** – Düzəlişlər şirkətlərə əldə edilmiş aktivlərin müəssisə və ya aktivlər qrupu olduğunu müəyyənləşdirməyə kömək edəcək.

Edilmiş düzəliş biznes xidmətlərinin nəticələrinin müştəriləri məhsul və xidmətlər ilə təmin etmək olduğunu vurğulayır. Halbuki əvvəlki anlayışa əsasən, biznes anlayışı dividend şəklində, daha aşağı xərclərə və ya investorlara və digərlərinə iqtisadi mənfəət təmin etmək məqsədi daşıyırdı. Alınan aktivin biznes və ya aktivlər qrupu olduğunu fərqləndirmək vacibdir, çünki, alıcı qudvili yalnız biznes alarkən tanıyır. Dəyişikliklərə əsasən, “biznes”in yeni tərifi müştərilərə məhsul və ya xidmətlər təqdim etmək, investisiya gəliri yaratmaq (məsələn, dividendlər və faizlər) və ya adi fəaliyyətdən digər gəlirlər yaratmaq məqsədilə aparıla və idarə oluna bilən fəaliyyət və aktivlərin məcmusudur.

Şirkətlərdən “Müəssisə” tərifinə edilən düzəlişi 1 yanvar 2020-ci il tarixində və ya bu tarixdən sonra baş verən satınalmalara tətbiq etmələri tələb olunur. Standartın daha erkən tətbiq edilməsinə icazə verilir. Cəmiyyət bu

düzəlişin tətbiqinin təsirlərini qiymətləndirmiş və MHBS əsasında hazırlanmış maliyyə hesabatlarında heç bir dəyişiklik edilməmişdir.

**“Əhəmiyyətlilik” anlayışının yeni tərifi** – MUBSŞ şirkətlərin əhəmiyyətliliklə bağlı qərarları daha asan verməsi üçün əhəmiyyətlilik prinsipinə düzəlişlər dərc etmişdir. Yeni dəyişikliklər 1 saylı BMUS “Maliyyə Hesabatlarının Təqdimatı” və 8 saylı BMUS “Mühasibat Uçotu Qaydaları, Uçot Ehtimallarındakı Dəyişikliklər və Xətalar”a şamil edilir.

Dəyişikliklər əhəmiyyətliliyin tərifini və bu günə qədər MHBS-in digər standartlarında göstərilmiş olan əhəmiyyətlilik prinsiplərinin tətbiqi ilə bağlı təlimatları da hesabat hazırlayanlar üçün aydınlaşdırır. Yeni tərifə əsasən, məlumat o zaman əhəmiyyətli sayılır ki, onun gizlədilməsi, təhrif edilməsi və ya dəyişdirilməsinin maliyyə hesabatını ümumi məqsədlər üçün istifadə edən əsas tərəflərin qərarlarına təsir etməsi ehtimal edilir və bu məlumat hesabat hazırlayan konkret müəssisə üzrə maliyyə məlumatı xarakterinə malikdir.

Dəyişikliklər 1 yanvar 2020-ci ildən qüvvəyə minir. Daha erkən tətbiq olunmasına icazə verilir. Cəmiyyət bu dəyişikliyin tətbiq edilməsinin təsirlərini qiymətləndirmiş və MHBS əsasında maliyyə hesabatlarının hazırlanmasında bu təsirləri nəzərə almışdır.

Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) Banklararası Təklif Olunan Faiz Həddi (“BTFH”) üzrə aparılan islahatların maliyyə hesabatlılığı üzrə yarana biləcək potensial təsirinə cavab olaraq, **“Baza Faiz Dərəcəsi İslahatı”-nı (9 saylı MHBS, 39 saylı BMUS və 7 saylı MHBS-ə edilmiş Düzəlişləri”)** dərc etmişdir. Baza faiz dərəcəsi islahatlarına əsasən:

- islahat nəticəsində müəssisələrin, hedc olunmuş pul axınlarının və hedcinq aləti üzrə pul axınlarının əsaslandığı baza faiz dərəcəsinin dəyişilməyəcəyini ehtimal edərək, tətbiq ediləcək hedcinq uçotu üzrə bəzi tələblər yenidən müəyyənləşdirilir;
- baza faiz dərəcəsi islahatı birbaşa təsir etdiyi bütün hedcinq münasibətləri üçün məcburidir;
- bu islahat, islahat nəticəsində yaranacaq digər nəticələrin həlli üçün nəzərdə tutulmamışdır (əgər hedcinq münasibətləri düzəlişlərdə göstərilməmiş səbəblər nəticəsində, hedcinq uçotu tələblərinə cavab vermirsə, hedcinq uçotunun dayandırılması tələb olunur); və
- düzəlişlərin müəssisələrin hedcinq münasibətlərinə hansı dərəcədə təsir göstərməsi barədə xüsusi açıqlamalar tələb olunur.

Dəyişikliklər 1 yanvar 2020-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq edilməlidir. Erkən tətbiq olunmasına icazə verilir. Cəmiyyət bu dəyişikliyin tətbiq edilməsinin təsirlərini qiymətləndirmiş və MHBS əsasında hazırlanmış maliyyə hesabatlarında heç bir dəyişiklik edilməmişdir.

15 may 2020-ci ildə BMUSŞ icarəçilərə “**COVID-19 ilə əlaqəli İcarə Güzəştləri (16 saylı MHBS-ə edilmiş Düzəliş)”** icarəçilərə COVID-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olub-olmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi düzəlişi edilmişdir.

COVID-19 ilə əlaqəli İcarə Güzəştləri üzrə dəyişikliklər (16 saylı MHBS-ə edilmiş düzəliş) 16 saylı MHBS-ə aşağıdakı düzəlişləri etmişdir:

- icarəçilərə COVID-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olub-olmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi;
- güzəşt tətbiq edən icarəçilərdən, icarə modifikasiyası olmadığı kimi, COVID-19 ilə əlaqəli icarə güzəştlərini hesaba verməlırini tələb etmək;
- güzəşt tətbiq edən icarəçilərdən bu faktı açıqlamalarını tələb etməlidir; və
- icarəçilərdən 8 saylı BMUS-a uyğun olaraq güzəşt tədbirlərini retrospektiv şəkildə tətbiq etmələrini tələb etsələr də, əvvəlki dövr rəqəmlərini yenidən tələb etmələrini tələb etmirlər.

Dəyişikliklər 1 iyun 2020-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir. 28 may 2020-ci il tarixində dərc olunması hələ də təsdiqlənməmiş maliyyə hesabatı da daxil olmaqla, erkən tətbiq olunmasına icazə verilir. Düzəliş aralıq hesabatlar üçün də uyğundur.

## 5. DƏRC OLUNMUŞ, LAKİN, HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Bu maliyyə hesabatlarının təsdiq olunduğu tarixdə, qüvvədə olma tarixindən əvvəl Cəmiyyət tərəfindən qəbul edilmiş Standartlar və Şərhlər istisna olmaqla, aşağıdakı Şərhlər dərc edilmiş, lakin, hazırda qəbul edilməmişdir.

**Öhdəliklərin təsnifatına aydınlıq gətirilməsi ilə bağlı 1 saylı BMUS üzrə Düzəlişlər** – 2020-ci il yanvar ayında BMUSŞ “Cari və Uzunmüddətli olmaqla, Öhdəliklərin Təsnifatı (1 saylı BMUS üzrə Düzəlişlər)” dərc etmişdir. Düzəlişlər öhdəliklərin 1 saylı BMUS-a əsasən, hesabat tarixinə müqavilə razılaşmaları üzrə təsnifatına daha ümumi yanaşma təklif edir. Öhdəliklərin cari və uzunmüddətli olmaqla təsnifatı üzrə düzəlişlər (1 saylı BMUS üzrə Düzəlişlər) aktiv öhdəlik üzrə gəlirlərin və ya xərclərin tanınma müddətinə və ya məbləğinə, eləcə də bu anlayışlar üzrə müəssisənin təqdim etdiyi açıqlamalara deyil, yalnız öhdəliklərin maliyyə vəziyyəti haqqında hesabatdakı təqdimatına təsir edir. Düzəlişlər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq olunmalıdır. Düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**17 saylı MHBS “Sığorta müqavilələri”** 2017-ci ilin may ayında verilmiş və 4 saylı MHBS “Sığorta müqavilələri”ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə 17 saylı MHBS “Sığorta müqavilələri”ni tətbiq etməlidir.

17 saylı MHBS, 1 yanvar 2023-cü il və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. 15 saylı MHBS “Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir” və 9 saylı MHBS “Maliyyə Alətləri” standartları ilə birlikdə tətbiq olunarsa, erkən tətbiqinə icazə verilir.

**10 saylı MHBS “Konsolidasiya Edilmiş Maliyyə Hesabatları” və 28 saylı BMUS (düzəlişlər):**
**“İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi”** – 10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya edilən əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya edilən assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır.

Düzəlişlərin qüvvəyə minmə tarixi hələ ki, MUBSŞ tərəfindən müəyyən edilməmişdir, lakin, düzəlişlərin erkən tətbiqinə icazə verilir.

## 6. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ QALIQLAR VƏ ƏMƏLİYYATLAR

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar eyni Cəmiyyətin nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə

əhəmiyyətli təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətlər nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, istiqsadi məzmununa diqqət yetirilir.

Cəmiyyət dövlət müəssisələri ilə əlaqədar 24 saylı “Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması” adlı MUBS əsasında əlaqəli tərəflə əməliyyatlar və cari qalıqlar, o cümlədən təəhhüdlər ilə bağlı müəyyən məlumatların açıqlanması tələblərindən istisnanı tətbiq etmişdir. Hər bir əlaqəli tərəf ilə bağlı münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir. Cəmiyyətin bilavasitə nəzarətçi tərəfi Azərbaycan Respublikası Hökumətinə məxsus olan “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətidir.

| **Əməliyyat fəaliyyətindən cəmi daxilolmalar** | | **1 182 010** | **636 344** |
| Mallar və xidmətlərə görə xaricolmalar | | 3 246 245 | 2 503 156 |
| İşçilərin mükafatlandırılması ilə əlaqədar ödənişlər | | 1 171 953 | 318 661 |
| Mənfəət vergisi ödənişi üzrə xaricolmalar | | | |
| Digər vergilərə görə xaricolmalar | | 392 348 | 95 582 |
| Əməliyyat fəaliyyətindən yaranan faiz ödənişləri üzrə xaricolmalar | | | |
| Digər ödənişlərə görə xaricolmalar | | 102 814 | 7 725 |
| **Əməliyyat fəaliyyətindən cəmi xaricolmalar** | | **4 913 360** | **2 925 124** |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | **(3 101 350)** | **(2 288 780)** |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | 187 619 | |
| digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının satılmasından yaranan pul vəsaitlərinin daxilolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdətutulmuş alətlərüzrə pul vəsaitlərinin daxilolmaları istisna olmaqla); | | | |
| digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının əldə edilməsi üçün ödənilən pul vəsaitlərinin xaricolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdə tutulmuş alətlər üzrə pul vəsaitlərinin xaricolmaları istisna olmaqla); | | | |
| digər tərəflərə verilmiş borcların qaytarılmasından pul vəsaitlərinin daxilolmaları; | | | |
| digər tərəflərə verilmiş borclara görə pul vəsaitlərinin xaricolmaları; | | | |
| fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin daxilolmaları; | | | |
| fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin ödənişləri; | | | |

| | | | |
|---|---|---|---|
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları. | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(187 619)** | |
| Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti | | | |
| səhmlərin və digər kapital alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | 3 650 252 | 100 |
| müəssisənin öz səhmlərinin əldə edilməsi və ya yenidən alınması nəticəsindəpul vəsaitlərinin xaricolmaları | | | |
| təminatsiz istiqrazların, borc sənədlərinin, veksellərin, istiqraz vərəqələrinin, girov kağızlarının buraxılmasından və digər qısamüddətli və uzunmüddətli borcların alınmasına görə pul vəsaitlərinin daxilolmaları; | | | 2 327 547 |
| borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | | 22 700 |
| məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | | 35 000 | |
| məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | 383 900 | |
| maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları | | | |
| dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | | |
| faizlər şəklində pul vəsaitlərinin xaricolmaları | | | |
| Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **3 301 352** | **2 304 947** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **12 383** | **16 167** |
| | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | | **16 167** | |
| **il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **12 383** | **16 167** |
| **xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri** | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | | **28 550** | **16 167** |

**Zaur Yaqubov**

Direktor

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**Müzəffər Umarov**

Baş mühasib

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

## 1. GİRİŞ

Hazırki maliyyə hesabatları 31 dekabr 2019-cu il tarixinə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq “Azəripək” Məhdud Məsuliyyətli Cəmiyyəti (“Cəmiyyət”) üçün tərtib edilmişdir.

### 1.1. Cəmiyyət haqqında ümumi məlumat

Cəmiyyət 2018-ci ildə təsis edilmiş və 16 aprel 2018-ci il tarixində Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən 1305481631 vergi eyniləşdirmə nömrəsi ilə məhdud məsuliyyətli cəmiyyəti kimi qeydiyyatdan keçmişdir.
Cəmiyyət Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərinin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən 16 aprel 2018-ci il tarixdə qeydiyyata alınaraq Əlavə Dəyər Vergisi ödəyicilərinin Dövlət Reyestrinə daxil edilmişdir. Cəmiyyətin təşkilati hüquqi forması Məhdud Məsuliyyətli Cəmiyyətdir və bütün paylar Azərbaycan Sənaye Korporasiyası Açıq Səhmdar Cəmiyyətinə məxsusdur.
Hesabat tarixinə Cəmiyyətin fəaliyyətinin idarəedilməsi və nəzarət Direktoru Yaqubov Zaur Fazil oğlu, Baş mühasib Umarov Müzəffər Umar oğlu tərəfindən aparılır.

### 1.2. Cəmiyyətin fəaliyyəti

Cəmiyyətin əsas fəaliyyət istiqamətləri fermerlərdən baramanın yığılması, ipək və ipək məhsullarının emalı, istehsalı və satışı və bu sahənin inkişafı ilə bağlı digər vəzifələrin həyata keçirilməsidir.

### 1.3. Qeydiyyat ünvanı və fəaliyyət yeri

Cəmiyyət Azərbaycan Respublikasında təsis edilmişdir. Cəmiyyətin qeydə alınmış hüquqi ünvanı Yasamal rayonu, Tbilisi prospekti, Ev 35, məhəllə 1033, Bakı, Azərbaycan Respublikasıdır. Cəmiyyətin əsas fəaliyyət yeri Azərbaycan Respublikası, Şəki şəhəri, Xoyski ev 01, AZ5500

***Bank rekvizitləri:***

Azərbaycan Beynəlxalq Bank ASC-nin Şəki filialı
KOD: 805410
VÖEN: 9900001881
M/h AZ03NABZ01350100000000002944
S.W.İ.F.T.BİK İBAZAZ2X
Hesab №-si: AZ06İBAZ40040019446112648266 (AZN)

### 1.4. Təsisçi haqqında məlumat

31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin səhmdar strukturu aşağıdakı kimidir:

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| | Mülkiyyət, % | Mülkiyyət, % |
| “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyəti | 100 | 100 |
| **Cəmi** | **100** | **100** |

“Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 2017-ci il tarixli Fərmanına uyğun olaraq təsis edilmiş və Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən qeydiyyata alınmışdır. Cəmiyyət 8 dekabr 2017-ci il tarixində 1305305281 saylı vergi eyniləşdirmə nömrəsi ilə açıq səhmdar cəmiyyəti kimi qeydiyyatdan keçmişdir. ASK ASC 100% Azərbaycan Respublikasına (“Hökümət”) məxsusdur.

Cəmiyyətin əsas prinsipləri və fəaliyyət istiqamətlərinə dövlət əmlakının idarəedilməsində effektivliyin artırılması, törəmə müəssisələr arasında faydalı kooperativ əlaqələrin qurulması, dəyər zəncirlərində istehsal potensialının artmasına nail olmaq, sənaye istehsalının həcminin və qeyri-neft sektorunun artım sürətinin gücləndirilməsi daxildir.

31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin ən üst nəzarət subyekti “Azərbaycan Sənaye Korporasiyası” ASC-dir.

### 1.5. Cəmiyyətin fəaliyyət mühiti

Cəmiyyət öz fəaliyyətini Azərbaycan Respublikasında həyata keçirir. Azərbaycan hökuməti iqtisadi islahatları və ölkənin hüquqi, vergi və qanunvericilik çərçivəsində inkişafını davam etdirir. Azərbaycan iqtisadiyyatının gələcək davamlı inkişafı, əsasən bu islahatlardan və sektordakı tərəqqidən, eləcə də hökumət tərəfindən iqtisadi, maliyyə və pul siyasəti üzrə həyata keçirilmiş tədbirlərdən və Azərbaycan manatı ilə xam neftin sabit qiymətlərindən asılıdır.

2015-ci il ərzində Azərbaycanın iqtisadiyyatı neft qiymətlərinin aşağı düşməsi və Azərbaycan manatının devalvasiyası nəticəsində mənfi təsirlərə məruz qalmışdır. Bu isə kapital çıxışının azalmasına, kapital xərclərinin artmasına, inflyasiya və iqtisadi inkişaf ilə bağlı qeyri-müəyyənliklərə səbəb olmuşdur. Bu geriləmənin qarşısını almaq üçün Azərbaycan hökuməti islahatların sürətləndirilməsi və maliyyə sisteminin dəstəklənməsi üçün tədbirlər planı hazırlamışdır. Azərbaycan Respublikasının Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə “Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” təsdiq edilmişdir. Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışını özündə ehtiva edir.

Bundan əlavə, 2018-ci ildə hökumət Azərbaycan manatının sabitliyi ilə əlaqədar olaraq pul siyasətini davam etdirmiş və Azərbaycan manatının sabitləşdirilməsi üçün xarici valyuta ehtiyatlarından istifadə etmişdir. Bu siyasət 2019-cu ildə makroiqtisadi sabitliyin qorunması məqsədi ilə davam etdirilmişdir.

Cəmiyyətin rəhbərliyi makroiqtisadi mühitdəki dəyişiklikləri izləyir və yaxın gələcəkdə Cəmiyyətin fəaliyyətinin dayanıqlığını və inkişafını dəstəkləmək üçün zəruri hesab etdiyi tədbirləri görür.

Beynəlxalq kredit reytinq agentlikləri mütəmadi olaraq Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. Fitch və S&P Azərbaycan Respublikasının reytinqini “BB+” olaraq qiymətləndirmişdir. Moody’s Investors Service, ölkə üçün “Ba2” kredit reytinqini təyin etmişdir.

Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı əsasən hökumətin vergi, hüquq, tənzimləyici və siyasi islahatlarla birlikdə həyata keçirdiyi iqtisadi, maliyyə və pul tədbirlərinin səmərəliliyindən asılıdır. Rəhbərlik Cəmiyyətin fəaliyyətinə təsir göstərəcək iqtisadi mühitdəki bütün islahatları və nəticədə onların Cəmiyyət maliyyə vəziyyətinə necə təsir göstərə biləcəyini proqnozlaşdırmaq iqtidarında deyil. Rəhbərlik hazırda müxtəlif ipək məhsulları qiymətləri üzrə həssaslıq təhlili həyata keçirir və biznesin davamlılığını təmin etmək üçün müvafiq tədbirlər planı hazırlayır.

## 2. MALİYYƏ HESABATLARININ HAZIRLANMASININ ƏSASI VƏ ƏSAS UÇOT PRİNSİPLƏRİNİN XÜLASƏSİ

**Giriş**
Cəmiyyətin maliyyə ili dekabr ayının sonuncu günündə başa çatır. Cəmiyyət 31 dekabr 2019-cu il tarixinə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olaraq maliyyə hesabatını təqdim edir.

**Təqdimatın əsasları**

Cəmiyyətin MHBS əsasında hazırlanmış maliyyə hesabatları yuxarıda göstərilən tarixdə hazırlanmış və qəbul edilmişdir. Cəmiyyət maliyyə hesabatlarını Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsi (“MUBSK”) tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olaraq hazırlanmışdır. Bu maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilmiş əsas uçot prinsipləri aşağıda təqdim edilir. Bu prinsiplər təqdim edilmiş bütün dövrlərə ardıcıl şəkildə tətbiq edilmişdir.

**Fasiləsizlik prinsipi**

MHBS əsasında hazırlanmış maliyyə hesabatları Cəmiyyətin fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik hesab edir ki, Cəmiyyət yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Cəmiyyətin likvidasiyasına nə istək, nə də ehtiyac olacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcuddur. Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət gedişində Cəmiyyətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatda əks etdirilmişdir.

Bəzi maliyyə hesabatı standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələblərin, nəzərə alınmalı olan müəyyən məsələlərin və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Rəhbərliyin fasiləsizlik prinsipi üzrə ehtimalının qiymətləndirməsi müəyyən bir müddətdə, hadisələrin və ya şərtlərin gələcək inkişafı ilə əlaqədar subyektiv qərarların qəbul edilməsini nəzərdə tutur.

**Cari və uzunmüddətli təsnifləşdirmələr**
Cəmiyyət aktiv və öhdəlikləri cari/uzunmüddətli təsnifləşdirmələr olaraq, MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv sayılır:

- Adi əməliyyat dövründə satılması və ya istehlak edilməsi nəzərdə tutulan və ya satılması ehtimal edildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı 12 ay ərzində satılması ehtimal edildikdə; və ya
- Hesabat tarixindən ən azı on iki ay sonra öhdəliyin ödənilməsi üçün mübadilə edilməsi və ya istifadə edilməsi üçün məhdudlaşdırılması halları istisna olmaqla, pul vəsaitləri və onların ekvivalanetləri formasında olduqda.

Digər bütün aktivlər uzunmüddətli aktivlər sayılır. Öhdəlik aşağıdakı hallarda cari öhdəlik sayılır:

- Adi əməliyyat dövrü ərzində ödənilməsi gözlənildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı 12 ay ərzində satılması ehtimal edildikdə; və ya
- Hesabat dövründən sonra ən azı on iki ay müddətində öhdəliyin ödənilməsini təxirə salmaq üzrə qeyri-şərtsiz hüquqa malik olmadıqda.

Cəmiyyət bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər olaraq təsnif edir.
Təxirə salınmış vergi aktivi və öhdəliyi uzunmüddətli aktiv və öhdəliklər kimi təsnif edilir.

**Təqdimatın digər əsasları**
MHBS əsasında hazırlanmış maliyyə hesabatları, başqa cür qeyd edilmədiyi hallarda Azərbaycan Manatı (“AZN”) ilə ifadə edilir. MHBS əsasında hazırlanmış maliyyə hesabatları şərti dəyər kimi ədalətli dəyərdə qeydə alınan əmlak, tikili və avadanlıqlar istisna olmaqla tarixi dəyər əsasında tərtib edilmişdir.

**Əmlak, tikili və avadanlıqlar**
Əmlak, tikili və avadanlıqlar, peşəkar müstəqil qiymətləndiricilərin apardığı qiymətləndirmə ilə bazara əsaslanan sübutlardan formalaşmış yenidən qiymətləndirmə tarixindəki ədalətli dəyərdən sonradan yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla, MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda şərti dəyər olaraq ədalətli dəyərdə qeydə alınır.

Faydalı istifadə müddəti üzrə təxminlər, qalıq dəyərləri və amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv əsasda tətbiq edilir.

Cari dövr üzrə əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti aşağıdakı kimidir:

**CƏMİYYƏTİN AMORTİZASİYA NORMALARI**

| S/S | Əsas vəsaitin kateqoriyası | Faydalı istifadə müddəti (il) | Maksimal son qalıq % |
|---|---|---|---|
| 1 | Binalar | 40-70 | 20-25% |
| 2 | Maşın və avadanlıqlar | 15 | 25% |
| 3 | Nəqliyyat vasitələri | 5-30 | 25% |
| 4 | Qurğular (sobalar, borular, kabel xətləri, ötürücü qurğular, hasarlar, hovuzlar, asfalt yollar, talvarlar, çənlər, qüllələr və s.) * | 10 | 25% |
| 5 | Mebel | 7 | 25% |
| 6 | Ofis və laboratoriya avadanlıqları | 5 | 25% |
| 7 | Kompüter avadanlıqları və hesablama texnikası | 5 | 25% |
| 8 | İstehsal alətləri (ləvazimatları) və təsərrüfat inventarları | 3 | 25% |
| 9 | Xüsusi geyimlər | 2 | 25% |
| 10 | İstehsalat Avadanlıqları | 10 | 25% |
| 11 | Qeyri maddi aktivlər** | 0-10 | 25% |
| 12 | Digər əsas vəsaitlər*** | 5 | 25% |

***Qeyd:***

** Hər bir müəssisə əvvəlki təcrübəsinə, istehsalat xarakteristikasına, avadanlığın istehsalatda istifadə imkanlarına əsaslanaraq uyğun amortizasiya normaları müəyyən edə bilər*

*** Məhdud isitsmar müddətli qeyri-maddi aktivlərin amortizasiya normaları müqavilə əsasında hesablanır, istismar müddəti qeyri-məhdud müddətdə olduqda amortizasiya hesablanmır*

**** Hər bir müəssisə yuxarıda qeyd edilən aktivlərdən fərqli kateqoriya aktivi olarsa həmin aktivi digər bölməyə aid edərək aktivə amortizasiya norması müəyyən edir*

***** Başa çatdırılmamış tikililər və quraşdırılmaqda olan maşın və avadanlıqlar üzrə amortizasiya hesablanmır.*

**Mal-material ehtiyatları**

Mal-material ehtiyatları maya dəyəri və ya xalis satış dəyərinin ən aşağı səviyyəsində uçota alınır. Mal-material ehtiyatlarının dəyəri orta çəkili dəyər prinsipinə əsaslanır və ehtiyatların əldə edilməsinə çəkilən xərcləri, eləcə də istehsal və ya emal xərclərini və bu aktivləri mövcud yerlərinə və vəziyyətinə gətirmək üçün çəkilən digər xərcləri əhatə edir. İstehsal edilmiş ehtiyatlar və tamamlanmamış işlərə münasibətdə isə, maya dəyəri adi iş qabiliyyətinə əsaslanan istehsal xərclərinin müvafiq hissəsini əhatə edir.

Xalis satış dəyəri, təxmini tamamlama və satış xərcləri çıxılmaqla, adi iş müddətində ehtimal olunan satış qiymətidir.

**Maliyyə alətləri**

Cəmiyyət maliyyə aləti üzrə müqavilə tərəflərindən biri olduqda, maliyyə alətləri və maliyyə öhdəlikləri onun MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda tanınır. Maliyyə aktivləri və öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə ölçülür. Maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin alınması və ya yaranması ilə birbaşa əlaqəli olan əməliyyat xərcləri (mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülən maliyyə aktivləri və maliyyə öhdəliklərindən başqa) əlavə edilir və ya ilkin tanınmada maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin ədalətli dəyərindən, müvafiq olaraq əlavə edilir və ya çıxılır. Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə tanınan maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin alınmasına birbaşa aid olan əməliyyat xərcləri dərhal mənfəət və ya zərərdə tanınır.

**Maliyyə aktivləri**

Maliyyə aktivlərinin müntəzəm şəkildə satın alınması və ya satılması satış tarixi əsasında tanınır və ya xitam verilir. Bütün tanınmış maliyyə aktivləri sonradan, maliyyə aktivlərinin təsnifatına əsasən, amortizasiya edilmiş dəyərdə və ya ədalətli dəyərdə bütünlüklə ölçülür.

*Maliyyə aktivlərinin təsnifatı*

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan amortizasiya olunmuş dəyərlə ölçülür:

- Maliyyə aktivi müqavilə ilə pul vəsaitləri axınını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli daxilində saxlanılır; və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülür (DMGVƏD):

- maliyyə aktivi müqavilə şərtlərinə uyğun olaraq pul vəsaitləri axınının yığılması və maliyyə aktivlərinin satışı məqsədi daşıdıqda, biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Adətən bütün digər maliyyə aktivləri sonradan mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülür (MZVƏD).

Yuxarıda göstərilənlərə baxmayaraq, Cəmiyyət maliyyə aktivinin ilkin tanınmasında aşağıdakı qəti seçimi/təyinatı həyata keçirə bilər:

- Müəyyən meyarlar qarşılanmadıqda Cəmiyyət kapital investisiyası üzrə müvafiq ədalətli dəyərdə dəyişikliyin digər məcmu gəlirdə təqdimatı üçün qəti tədbirlər həyata keçirə bilər; və

- Cəmiyyət uçot sistemində uyğunsuzluğu əhəmiyyətli dərəcədə azaltmaq məqsədilə, amortizasiya edilmiş maya dəyərində və ya DMGVƏD ölçülmə meyarlarına cavab verən borc investisiyasını əks keçid etməmək şərtilə MZVƏD edə bilər.

*Amortizasiya olunmuş dəyər və effektiv faiz dərəcəsi metodu*

Effektiv faiz dərəcəsi metodu borc alətinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəlirinin müvafiq dövr üzrə bölgüsü üsuludur. Satın alınan və ya yaranan kredit zərərinə məruz qalmış maliyyə aktivlərindən (yəni ilkin tanınma zamanı dəyərsizləşmiş aktivlər) başqa maliyyə aktivləri üzrə effektiv faiz dərəcəsi, ehtimal edilən kredit zərərləri istisna olmaqla borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz hissəsini təşkil edən ödənilmiş, yaxud alınmış bütün haqqlar, ödənişlər, əməliyyat xərcləri və ya mükafatlar) ilkin tanınma anında xalis qalıq məbləğinədək diskontlaşdıran dəqiq dərəcədir.

Alınmış və ya yaranmış kredit dəyərsizləşməsi üzrə maliyyə aktivləri üçün, kreditlə tənzimlənən effektiv faiz dərəcəsi, gözlənilən gələcək pul vəsaitlərinin hərəkətini, ehtimal olunan kredit zərərləri daxil olmaqla, ilkin tanınma zamanı borc alətinin amortizasiya olunmuş dəyərinə diskontlaşdırılmaqla hesablanır.

Maliyyə aktivinin amortizasiya olunmuş dəyəri ilkin tanımada maliyyə aktivinin əsas ödəniş çıxılmaqla, hər hansı zərər üzrə düzəliş edilməklə həmin ilkin dəyər ilə ümumi dəyər arasındakı fərq üzrə effektiv faiz dərəcəsini istifadə etməklə məcmu amortizasiya əlavə olunmaqla, maliyyə aktivinin ölçüldüyü dəyərdir. Maliyyə aktivinin ümumi qalıq dəyəri hər hansı bir zərər öhdəliyinə düzəliş edilməzdən əvvəl maliyyə aktivinin amortizasiya olunmuş dəyəri hesab olunur.

Faiz gəliri daha sonra amortizasiya edilmiş dəyərdə və DMGVƏD ilə qiymətləndirilən borc alətlərinin effektiv faiz metodundan istifadə edilməklə tanınır. Alınmış və ya yaranmış kredit dəyərsizləşməsi üzrə yaranmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivləri üçün, faiz gəliri sonradan kredit itkisinə məruz qalmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivinin ümumi qalıq dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır.

Cəmiyyətin maliyyə aktivlərinin əksəriyyəti daha sonra amortizasiya edilmiş dəyərlə ölçülmüş maliyyə aktivləri kimi təsnif edilmişdir. Cəmiyyətin maliyyə öhdəlikləri daha sonra amortizasiya olunmuş dəyərlə ölçülmüş maliyyə öhdəlikləri kimi təsnif edilmişdir. Cəmiyyət mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə ölçülmüş hər hansı maliyyə öhdəliyinin təsnifatını seçmir.

*Maliyyə aktivlərinin dəyərsizləşməsi*

Cəmiyyət ehtimal olunan kredit zərəri modelini amortizasiya edilmiş dəyərlə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülmüş maliyyə aktivlərinə tətbiq edir.

İlkin tanımadan sonra maliyyə aktivi üzrə kredit riski əhəmiyyətli dərəcədə artıqda, bu maliyyə aktivi üçün ehtimal olunan kredit zərəri üzrə ehtiyat ömürlük ehtimal olunan kredit zərərinə bərabər dəyərdə ölçülür.

Əgər hesabat tarixində maliyyə aktivi üzrə kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmamışdırsa, bu maliyyə aktivi üçün ehtimal edilən kredit zərəri (sadələşdirilmiş yanaşmanın seçildiyi kreditor borcları istisna olmaqla) 12 aylıq ehtimal edilən kredit zərərlərinə bərabər dəyərdə ölçülür. Kreditor borcları və alınacaq digər vəsaitlər üçün, əhəmiyyətli bir maliyyələşdirmə komponentinin olub olmamasından asılı olmayaraq, ömür boyu ehtimal olunan kredit zərəri əsasında ölçülür.

Cəmiyyət ehtimal olunan kredit zərərini qiymətləndirmək üçün daxili modeldən istifadə edir. Model 9 saylı MHBS-ə uyğun olaraq tərtib edilmiş və qarşı tərəflərin kredit risklərinin qiymətləndirilməsi üçün maliyyə sisteminin xüsusiyyətlərini nəzərə alaraq, qarşı tərəflərə hesab sistemini təyin etməklə hazırlanmışdır. Təyin edilmiş bal (reytinq) fərdi şəkildə hesablanmış Defolt Ehtimalıdır (DE).

Aktivin bir bal qrupundan daha aşağı bal qrupuna keçməsi digər meyarlar arasında kredit riskinin əhəmiyyətli artımı hesab olunur.

**Ədalətli dəyərin ölçülməsi**

Ədalətli dəyər ölçülmə tarixində əsas bazarda və ya əsas bazar olmadıqda həmin tarixdə Cəmiyyətin daxil ola biləcəyi daha sərfəli bazarda bazar iştirakçıları arasında intizamlı əməliyyatda aktivi satmaq üçün qəbul edilmiş və ya öhdəliyi ötürmək üçün ödəniləcək qiymətdir. Ədalətli dəyərin ölçülməsinə əsasən, aktivin satılması və ya öhdəliyin ötürülməsi üzrə əməliyyat:

- aktiv və ya öhdəlik üçün əsas bazarda; və ya
- əsas bazarın yoxluğu şəraitində aktiv və ya öhdəlik üçün ən əlverişli bazarda baş verir.

Əsas bazar və ya ən əlverişli bazar Cəmiyyət tərəfindən əlçatan olmalıdır. Aktiv və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçılarının öz iqtisadi maraqlarına uyğun hərəkət etdiklərini nəzərə alaraq aktiv və ya öhdəliklərin ədalətli dəyərini müəyyənləşdirərkən bazar iştirakçılarının aktiv və ya öhdəliyin ölçülməsində istifadə etdikləri mülahizələrdən istifadə edilir. Qeyri-maliyyə aktivlərinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivin ən çox və ən yaxşı istifadə tətbiqindən yararlanmaqla ondan istifadə etmək və ya başqa bazar iştirakçısına satmaq yolu ilə iqtisadi mənfəəti artırmaq bacarığı nəzərə alınır.

Cəmiyyət həmin şəraitdə müvafiq olan və ədalətli dəyərin ölçülməsi üçün mövcud olan məlumatlar üzrə müvafiq müşahidə edilən gəlirlərin istifadəsini artıran və müşahidə edilə bilməyən gəlirlərin istifadəsini azaldan qiymətləndirmə üsullarından istifadə edir.

Ədalətli dəyəri ölçülən və maliyyə hesabatında açıqlanmış bütün aktivlər və öhdəliklər aşağıda təsvir edilmiş və bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün mühüm olan ən aşağı səviyyədə məlumatlara əsaslanmış ədalətli dəyər iyerarxiyasında təsnifləşdirilir:

- Səviyyə 1 – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- Səviyyə 2 – aktiv və ya öhdəlik üçün birbaşa və ya dolayısı ilə müşahidə edilə bilən məlumatlar olan ilkin məlumatlardan istifadə edilir;
- Səviyyə 3 – aktiv və ya öhdəlik üçün müşahidə edilə bilməyən məlumatlar olan ilkin məlumatlardan istifadə edilir.

Maliyyə hesabatında dövrü əsasda tanınmış aktivlər və öhdəliklər üzrə Cəmiyyət hər hesabat dövrünün sonunda yenidən təyin edilmiş təsnifatla (bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün zəruri olan ən aşağı səviyyəli məlumata əsaslanmış) iyerarxiyada Səviyyələr arasında köçürmələrin olubolmamasını müəyyən edir.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Cəmiyyət yalnız aktiv üzrə pul daxil olmaları ilə bağlı müqavilə hüquqlarının vaxtı bitdikdə, yaxud maliyyə aktivini və aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün risk və imtiyazları əsas etibarilə digər müəssisəyə ötürdükdə maliyyə aktivinin tanınmasını dayandırır.

**Maliyyə öhdəlikləri və kapital**

*Borc və ya kapital aləti olaraq təsnifləşdirmə*

Borc və kapital alətləri müqavilə razılaşmalarının məzmununa və maliyyə öhdəliyi ilə kapital alətinin təriflərinə uyğun olaraq ya maliyyə öhdəliyi, ya da kapital kimi təsnif edilir.

*Kapital alətləri*

Kapital aləti müəssisənin bütün öhdəlikləri çıxıldıqdan sonra qalan aktivlərində hər hansı bir pay əldə etmək hüququ verən istənilən bir müqavilədir. Cəmiyyət tərəfindən buraxılan kapital alətləri birbaşa buraxılma xərcləri çıxılmaqla əldə edilən vəsaitlərin cəmi məbləğində tanınır.

Cəmiyyətin öz kapital alətlərini satınalması, kapitalı azaldan bir əməliyyatdır və nəticəsi kapital bölümündə tanınır. Cəmiyyətin öz kapital alətlərinin satınalması, satılması, buraxılması və ya ləğv edilməsi ilə bağlı yaranmış mənfəət və zərər məbləğləri mənfəət və zərər hesablarında tanınmamalıdır.

*Maliyyə öhdəlikləri*

Bütün maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə etməklə və MZVƏD əsasında tanınmaqla amortizasiya olunmuş dəyərlə ölçülür.

Maliyyə öhdəliyi (i) biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olduqda, (ii) ticarət və ya (iii) MZVƏD üçün nəzərdə tutlduğu halda maliyyə öhdəlikləri MZVƏD üzrə təsnif edilir.

(i) Biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olmayan, (ii) ticarət və ya (iii) MZVƏD üzrə təsnif edilməyən maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə edərək amortizasiya olunmuş dəyərdə ölçülür. Effektiv faiz metodu maliyyə aktivi və ya maliyyə öhdəliyinin, yaxud maliyyə aktivləri və ya öhdəlikləri qrupunun amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəliri, yaxud faiz xərcinin müvafiq dövr üzrə bölüşdürülməsi üsuludur. Effektiv faiz dərəcəsi borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz hissəsini təşkil edən məntəqələrdə ödənilmiş, yaxud alınmış bütün haqqlar, əməliyyat xərcləri və digər mükafat yaxud endirimlər) ilkin tanınma anında xalis balans məbləğinədək dəqiqliklə diskontlaşdıran dərəcədir.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Cəmiyyət maliyyə öhdəliyini MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda (və ya maliyyə öhdəliyinin bir hissəsini) yalnız bu öhdəlik ləğv edildiyi halda, məsələn müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə və ya ləğv olunduqda və ya müddəti başa çatdığı zaman çıxarır.

Əsaslı şərtlərlə borc alətləri üzrə mövcud debitor və kreditor arasında mübadilə aparılması halları ilkin maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi nəzərə alınır. Eynilə, mövcud maliyyə öhdəliyinin və ya onun bir hissəsinin (debitorun maliyyə çətinlikləri ilə əlaqəli olmasından asılı olmayaraq) şərtlərinin əhəmiyyətli şəkildə dəyişdirilməsi, ilkin maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi tanınır.

Yeni yaradılmış maliyyə öhdəliyinin şərtlərinə əsasən, o cümlədən alınmış hər hansı haqqlar üzrə nağd ödənilmiş haqqlar və ilkin effektiv faiz dərəcəsi ilə diskontlaşdırılmış ödənişlər də daxil olmaqla, pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyəri, ilkin maliyyə öhdəliyi üzrə qalan pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyərindən ən az 10 faiz fərqləndikdə, yeni müddəaların əhəmiyyətli dərəcədə fərqli olması hesab edilir. Borc alətlərinin mübadiləsi və ya şərtlərin dəyişdirilməsi öhdəliyin ləğvi olaraq nəzərə alınırsa, çəkilmiş xərclər və ya haqqlar ləğvetmə üzrə gəlir və ya zərərin bir hissəsi kimi tanınır. Mübadilə və ya dəyişdirmə öhdəliyin ləğvi olaraq nəzərə alınmırsa, hər hansı xərclər və ya haqqlar öhdəliyin qalıq dəyərində düzəliş olaraq tanınır və dəyişdirilmiş öhdəliyin qalan müddəti ərzində amortizasiya olunur.

**Maliyyə alətlərinin əvəzləşdirilməsi**

Maliyyə aktivləri və öhdəlikləri yalnız Cəmiyyətin aktiv və öhdəliklərin əvəzləşdirilməsi üçün müəyyən edilmiş hüququ olduqda, eləcə də Cəmiyyətin müqavilə üzrə əvəzləşdirməni aparmaq və eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda əvəzləşdirilə bilər

**Debitor borcları və digər alınacaq vəsaitlər**

Debitor borcları gözlənilən pul axınlarını effektiv faiz dərəcəsi üsulundan istifadə etməklə amortizasiya dəyərində uçota alınır. Cəmiyyət debitor borcları və müqavilə aktivləri üçün ehtimal olunan kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir. Ehtiyat dərəcələri oxşar zərər modellərinə malik olan müxtəlif müştəri seqmentləri üzrə (yəni, coğrafiya, məhsul növü, müştəri növü və reytinqi, akkreditiv və digər kredit növləri ilə əhatəsi) qruplarda vaxtı keçmiş günlərə əsaslanır.

Ehtiyat cədvəli ilkin olaraq Cəmiyyətin tarixən müşahidə olunmuş defolt dərəcələrinə əsaslanır. Cəmiyyət tarixi kredit zərəri təcrübəsini perspektiv məlumatlarla uyğunlaşdırmaq üçün cədvələ düzəlişlər edir. Məsələn, əgər istehsal sektorunda defolt sayının artmasına gətirib çıxaran proqnozlaşdırılan iqtisadi şərtlər (yəni, ümumi daxili məhsul) gələn il ərzində pisləşəcəkdirsə, bu zaman tarixi defolt dərəcələrinə düzəliş edilir. Hər bir hesabat tarixində tarixi müşahidə olunmuş defolt dərəcələri yenilənir və gələcək perspektiv ehtimallar təhlil edilir. Tətbiq olunduğu hallarda Cəmiyyət qarşı tərəflərin xarici dərəclərindən əldə edilmiş faiz dərəcələrinə əsaslanır.

Tarixi müşahidə olunmuş defolt dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və ehtimal olunan kredit zərəri arasında korrelyasiyanın qiymətləndirilməsi əhəmiyyətli dərəcədə təxminlərdən ibarətdir. Ehtimal olunan kredit zərərinin məbləği şərtlərdə və iqtisadi şəraitdə dəyişikliklərə həssasdır. Cəmiyyətin tarixi kredit zərəri üzrə təcrübəsi və iqtisadi şəraitin proqnozu da gələcəkdə müştərinin faktiki defolt vəziyyətini tam şəkildə əks etdirə bilməz.

**Pul vəsaitləri və onların ekvivalentlər**

Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul vəsaitləri, tranzit pul vəsaitləri, banklardakı cari hesablar və ilkin ödəmə müddəti üç ay və ya daha az olan banklardakı qısamüddətli depozitlər daxildir.

**Kreditor borcları və digər ödəniləcək vəsaitlər**

Kreditor borcları və digər ödəniləcək vəsaitlər qarşı tərəf müqavilədə nəzərdə tutulmuş öhdəliklərini icra etdiyi zaman tanınır və effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərdə uçota alınır.

**Təchizatçılara verilmiş avans ödənişləri**

Təchizatçılara verilmiş avans ödənişləri zərər üzrə ehtiyat çıxılmaqla ilkin dəyərlə tanınır. Avans ödənişləri ilə bağlı mal və ya xidmətlərin bir ildən sonra əldə ediləcəyi ehtimal olunduqda və ya ilkin tanınma zamanı aktivlə bağlı avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edildikdə hesabat tarixində bu avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edilir. Uzunmüddətli avans ödənişləri maliyyə vəziyyəti haqqında hesabatda əmlak, tikili və avadanlıqların təchizatçılarına avans ödənişləri olaraq təsnif və təqdim edilir.

Aktivlərin əldə olunması üçün ödənilmiş avanslar Cəmiyyət aktivin nəzarətini ələ keçirdikdən sonra aktivin qalıq dəyərinə köçürülür və aktivlə bağlı gələcək iqtisadi səmərələrin Cəmiyyətə daxil olacağı ehtimal olunur. Avans ödənişlərinə aid olan mal və ya xidmətlər əldə olunan zaman digər əməliyyatlar üzrə avans ödənişləri mənfəət və zərər hesablarına silinir. Avans ödənişləri ilə bağlı aktivlər mal və ya xidmətlərin əldə olunmadığına dair göstərici olduqda, avans ödənişlərinin qalıq dəyəri müvafiq olaraq silinir və müvafiq dəyərsizləşmə zərəri məcmu gəlir haqqında hesabatda qeydə alınır.

**ƏDV depozit hesabı**

Əlavə Dəyər Vergisi (“ƏDV”) depozit hesabı sistemi Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən ƏDV ilə bağlı neqativ halların qarşısını almaq məqsədilə tətbiq olunan sistemdir. 1 yanvar 2008-ci il tarixindən Vergilər Məcəlləsinə edilmiş düzəlişlərə əsasən, ƏDV ödənişinin məbləği təqdim olunmuş ƏDV

hesab-fakturalarına uyğun olaraq vergi ödəyicisinin ƏDV depozit hesabında aparılan əməliyyatlar çərçivəsində bu hesaba ödənilmiş olduğu vergi məbləğidir.

Bu modulun köməkliyi ilə, vergi ödəyicisi ƏDV hesab fakturasında qeyd olunmuş ƏDV məbləğini digər vergi ödəyicisinin ƏDV depozit hesabına ödəyir. Eyni zamanda dövlət büdcəsi qarşısında bütün növ vergi öhdəlikləri və Gömrük Komitəsinə ödənilməli olan idxal əməliyyatları ilə bağlı ƏDV məbləğləri vergi ödəyicisi tərəfindən ƏDV depozit hesabı vasitəsilə ödənilə bilər. Ödənilmiş məbləğlər barəsində məlumat vergi orqanı tərəfindən Baş Dövlət Xəzinədarlığına və daha sonra Azərbaycan Respublikası Mərkəzi Bankına (“ARMB”) ötürülür. Mərkəzi Bank Baş Dövlət Xəzinədarlığı (“BDX”) tərəfindən təqdim olunmuş məlumat əsasında məbləğlərin müvafiq yerli xəzinədarlıq orqanlarına köçürülməsini təmin edir. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti təqdim olunmuş məlumatda qeyd edilən məbləğlərin vergi ödəyicisinin şəxsi faylına daxil edilməsini təmin edir. Cari sistem Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi Məlumatı Sisteminə qoşulmuşdur. Eyni zamanda BDX-də və ARMB-də elektron məlumat mübadiləsi təşkil olunmuşdur.

ƏDV depozit hesabının tətbiqi ödənişlərə və qaytarılan ƏDV məbləğlərinə vaxtlı-vaxtında nəzarət etmək imkanı verir. Vergi borcları olan vergi ödəyiciləri bu məbləğləri yalnız Dövlət Büdcəsinə köçürə bilər. Vergi ödəyiciləri banklara getmədən dövlət büdcəsinə, digər vergi ödəyicilərinin ƏDV depozit hesabına və Gömrük Komitəsinə depozit hesabı vasitəsilə ödəniş edə bilərlər. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti xüsusi proqram təminatından istifadə etməklə depozit hesabıyla aparılan bütün əməliyyatlara avtomatik şəkildə nəzarət edir.

ƏDV depozit hesabındakı vəsaitlərdən istifadə məhdudlaşdırılmışdır və yalnız ƏDV və digər müvafiq vergilərlə bağlı əməliyyatlar üçün istifadə edilə bilər.

**Nizamnamə kapitalı**

Nizamnamə kapitalı Cəmiyyətin səhmdarının qoyduğu kapitalın məbləğidir. Cəmiyyət nizamnamə kapitalını səhmdarın təsdiqi çərçivəsində artıra və ya azalda bilər.

**Vergilər**

**Təxirə salınmış vergi**

Təxirə salınmış vergi aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun qalıq dəyərləri ilə onların vergiyə uyğun qalıq dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlər əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivinin qalıq dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa məcmu gəlir hesabında əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır.

Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək xalis şəkildə təqdim edilə bilər:

- Cəmiyyətin cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edildikdə və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olduqda.

**Əlavə Dəyər Vergisi**

Ödəniləcək ƏDV və iddia olunan əvəzləşdiriləcək ƏDV arasındakı fərq hesabat ayından sonra 20 gün ərzində dövlət büdcəsinə ödənilir. Satış ilə əlaqədar ödəniləcək əlavə dəyər vergisi vergi orqanlarına bu satışların qarşılığında ödəniş alındıqda ödənilir. Əvəzləşdiriləcək ƏDV bir qayda olaraq elektron ƏDV hesab fakturası alındıqdan sonra ödəniləcək ƏDV ilə əvəzləşdirilir. Vergi orqanları ƏDV-nin xalis əsaslarla hesablanmasına icazə verir.

Satış və alış ilə əlaqədar olan ƏDV maliyyə vəziyyəti hesabatında ümumi məbləğdə uçota alınır və aktiv və öhdəlik kimi ayrıca olaraq açıqlanır. Alınacaq vəsaitlərin dəyərsizləşməsi ilə əlaqədar ehtiyat yaradıldıqda, dəyərsizləşmə zərəri ƏDV daxil olmaqla borcluya aid olan ümumi məbləğin tərkibində uçota alınır.

**Xarici valyuta əməliyyatları**

Cəmiyyətin funksional valyutası fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin funksional valyutası ABŞ dollarıdır (“AZN”).

Monetar aktiv və öhdəliklər ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan, rəsmi valyuta məzənnəsinə əsasən hər bir müəssisənin funksional valyutasına çevrilir. Xarici valyuta əməliyyatları əməliyyat tarixində mövcud olan məzənnə ilə uçota alınır.

İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızların ədalətli dəyərinə təsiri ədalətli dəyər üzrə yenidən qiymətləndirmə nəticəsində gəlir və ya xərclərin bir hissəsi kimi qeydə alınır.

Maliyyə hesabatının hazırlanması zamanı Cəmiyyət aşağıda göstərilən valyuta məzənnələrindən istifadə etmişdir:

| | | **31.12.2019** | **31.12.2018** |
|---|---|---|---|
| **Valyuta** | **Kod** | **Məzənnə** | **Məzənnə** |
| 1 ABŞ dolları | USD | 1.7000 | 1.7000 |
| 1 Avro | EUR | 1.9035 | 1.9468 |
| 1 Rusiya rublu | RUB | 0.0274 | 0.0245 |

**Şərti öhdəliklər və aktivlər**

Şərti öhdəliklər MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Onlar iqtisadi cəhətdən səmərəli resursların məxarici ehtimalı olmayanadək MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatın qeydlərində açıqlanır.

Şərti aktivlər MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda qeyd olunmur, lakin, iqtisadi mənfəət əldə edilməsi ehtimalı olduqda maliyyə hesabatında açıqlanır.

**Gəlirlər**

Gəlir müəssisənin adi fəaliyyətindən yaranan mədaxildir. Mədaxil dövr ərzində səhmdarların əlavə kapital qoyuluşları istisna olmaqla, aktivlərin daxil olması, böyüməsi və ya öhdəliklərin azalması səbəbindən müəssisənin kapitalının artması ilə nəticələnənən iqtisadi faydalardır.

Gəlir hesablama metodu ilə tanınır. Gəlirin tanınması onunla bağlı pul vəsaitinin ödənilməsi heç də əsas şərt deyil. Məhsulların satışından əldə edilən gəlirlər adətən həmin məhsulların yükləndiyi zaman məhsullar üzərində nəzarətin ötürüldüyü anda qeydə alınır. Gəlir ƏDV, aksiz, güzəştlər və satışdan tutulan digər vergilər (əgər mövcuddursa) çıxılmaqla göstərilir.

Gəlir məhsul və ya xidmətlərin müştərinin nəzarətinə verildikdə tanınır. Nəzarət alıcının aktivdən qalan faydaya sahib olma və ondan istifadəyə əsaslanır. Müəssisə kontrakt bağlanarkən məhsul və ya xidmət üzərində nəzarətin dövr üzrə və ya konkret vaxt anında keçdiyini təyin etməlidir.

Cəmiyyət gəliri dövr üzrə aşağıdakı şərtlər daxilində tanıya bilər:

- Cəmiyyət öhdəlikləri icra etdikcə alıcı faydanı qəbul edir və istehlak edir – adətən xidmət müqavilələrinə şamil edilir, məsələn təmizlik xidmətləri
- Cəmiyyət müştərinin nəzarət etdiyi aktivləri yaradır və ya artırır – belə hallar adətən müəssisə məhsulu istehsal etdikcə müştərinin onu əldə etməsi hallarında olur
- Cəmiyyətin yaratdığı aktivin alternativ istifadəsi yoxdur və müəssisə işin görüldüyü tarixə ödənişi almağa hüququ var – bu şərt əməliyyatın yuxarıdakı iki hala uyğun olmadığı halda nəzərdən keçirilir.

Əgər öhdəlik dövr üzrə icra olunmursa müəssisə gəliri konkret vaxt anında tanıyır.

Nəzarətin Cəmiyyətdən alıcıya keçməsini aşağıdakı indikatorlar göstərir:

- Cəmiyyətin ödənişi almaq hüququ yaranıb
- Cəmiyyət aktivin hüquqi titulunu müştəriyə ötürüb
- Aktivin fiziki sahibliyi müştəriyə ötürülüb
- Cəmiyyət əməmiyyətli riskləri və mükafatları müştəriyə ötürüb
- Müştəri aktivi qəbul edib.

Gəlirin tanınması üçün yuxarıdakı meyarların hamısının eyni zamanda yerinə yetirilmiş olması zəruri deyil. Cəmiyyətdə iş və xidmətlərin göstərilməsi zamanı gəlirlər hazırkı tarixədək çəkilmiş məsrəflərin əməliyyat üzrə qiymətləndirilmiş ümumi məsrəflərə faiz nisbəti metodundan istfadə edərək tanınırlar.

**Xərclər**

***Müqavilə xərclərinin tanınması***
Cəmiyyət müqaviləni əldə etmək üçün çəkdiyi marjinal xərcləri bərpa edəcəyinə əmindirsə onu aktiv kimi tanımalıdır. Artan (marjinal) xərclər müqaivləni əldə etməklə əlaqədar ortaya çıxan xərclərdir. Müqavilədən asılı olmayaraq mövcud olan xərclər isə kapitallaşdırılmamalıdır. Əgər kapitallaşdırılan xərclərin amortizasiya müddəti bir ildən az olarsa Cəmiyyət belə xərcləri yarandıqca silə bilər.

***Xərclərin uçotu***
Xərc gəliri əldə etmək üçün çəkilən məsrəfdir. Xərc ödəmə vaxtından asılı olmayaraq müəssisənin ödəmə öhdəliyi yarandığı və resursların müəssisədən kənara getməsi əminliyi yarandığı anda tanınır.
Müəssisələrdə istehsal xərclərinin uçotu (məhsulun maya dəyərinin kalkulyasiyası) normativ metodu ilə aparılır.
Dolayı (ümumistehsal) xərclər istehsal olunan məhsullar arasında material xərclərinə mütənasib bölünür.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Cəmiyyətin MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatın hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verməsini tələb edir.

Nəticədə biznes fəaliyyətlərinin qeyri-müəyyənliyi nəticəsində MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda bir çox maddələrin dəqiq qiymətləndirilməsi mümkün olmur və yalnız müəyyən ehtimallar irəli sürülə bilər. Ehtimallar MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabat hazırlanarkən ən son məlumatlara əsaslanan mühakimələri nəzərdə tutur. Gələcək hadisələr haqqında mövcud vəziyyət və ehtimallar Cəmiyyətin nəzarətindən kənarda yaranan bazar dəyişiklikləri və ya şəraitə görə dəyişə bilər. Bu cür dəyişikliklər baş verdikləri zaman Cəmiyyət tərəfindən edilən təxminlərdə öz əksini tapır.

Ən əhəmiyyətli təxminlər əmlak və avadanlıqların amortizasiya dövrü, maliyyə və qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi, maliyyə alətlərinin ədalətli dəyəri, köhnəlmiş mal və material ehtiyatları üzrə ehtiyatlar ilə bağlıdır. Faktiki nəticələr həmin təxminlərdən fərqli ola bilər.

**Mülahizələr**

Cəmiyyətin mühasibat uçotu siyasətinin tətbiq edilməsi prosesində rəhbərlik MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatında tanınmış məbləğlər üzrə nəzərə alınmış əhəmiyyətli təsiri olan təxminlərdən başqa aşağıdakı mülahizələri edir.

***Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlər üzrə ədalətli dəyər***

Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin Cəmiyyətə təhvil verildiyi tarixə hesablanmış şərti dəyər olaraq ədalətli dəyərlə ölçülmüşdür.

Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin bazar dəyəri, 13 saylı MHBS-ə əsasən əmlakın, tikili və avadanlıqların ədalətli dəyərinə bərabər olan bənzər əmlak, tikili və avadanlıqlar üçün bazar satış qiymətlərinin təhlilini əhatə edən bazar yanaşması metodu ilə qiymətləndirilmişdir.

***Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti***

Cəmiyyət hər maliyyə ilinin sonunda əmlak, tikili, avadanlıqlar və qeyri-maddi aktivlərin qalan faydalı istifadə müddətini qiymətləndirir. Bu aktivlərin nəzərdə tutulan faydalı istifadə müddəti ötən ilin qiymətləndirilməsindən fərqli olduqda, 8 saylı MUBS “Uçot Siyasətləri, Uçot Qiymətləndirmələrində Dəyişikliklər və Xətalar” standartına müvafiq olaraq uçot təxminlərində dəyişiklik olaraq uçota alınır. Belə təxminlərin əmlak, tikili və avadanlıqların qalıq dəyərlərinin məbləğləri və mənfəət və zərərdə tanınmış amortizasiya üzrə təsirləri olur.

***Əmlak, tikili və avadanlıqların və digər qeyri-maliyyə aktivlərin dəyərsizləşməsi***

Cəmiyyət hər bir hesabat tarixinə aktivlərin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa və ya fərdi aktiv üçün illik dəyərsizləşmə üzrə təhlil tələb edilirsə Cəmiyyət aktivin əvəz olunması dəyərini təxmin edir. Aktivin əvəz olunma dəyəri onun digər aktivlərdən müstəqil şəkildə pul vəsaitləri yaratmaq qabiliyyətinin olduğu hallar istisna olmaqla, aktivin və ya pul vəsaiti yaradan vahidin ən yüksək ədalətli dəyərindən satış xərcləri və istifadə dəyəri çıxılması nəticəsində yaranan dəyərə bərabərdir. Aktivin ədalətli dəyəri onun əvəzolunma dəyərindən artıq olduqda aktiv dəyərsizləşmiş hesab edilir və onun qalıq dəyəri müvafiq olaraq azaldılır. İstifadə dəyərini qiymətləndirərkən, pulun zaman dəyəri və aktivə xas olan risklərin cari bazar qiymətləndirməsini əks etdirən vergidən öncə diskont dərəcəsi

istifadə edilərək ehtimal olunan gələcək pul axınları mövcud dəyərinə diskontlaşdırılır. Satış xərcləri çıxılmaqla ədalətli dəyəri müəyyən edərkən, cari bazar əməliyyatları (mövcud olduqda) nəzərə alınır. Bu cür əməliyyatlar müəyyən edilə bilmədikdə, müvafiq qiymətləndirmə modeli istifadə olunur.

Cəmiyyət dəyərsizləşmə üzrə hesablamanı, fərdi aktivin ayrıldığı Cəmiyyətin hər bir nağd yaradan vahidi (CGU) üçün ayrı-ayrılıqda hazırlanan ətraflı büdcələrə və proqnoz hesablamalarına əsaslanır. Bu büdcələr və proqnoz hesablamaları ümumilikdə 5 illik dövrü əhatə edir. Daha uzun dövrlər üçün, uzunmüddətli böyümə sürəti müəyyənləşdirilir və beşinci ildən sonra gələcək pul vəsaitlərinin hərəkəti üçün tətbiq olunur.

***Mal-material ehtiyatlarının qiymətləndirilməsi***

Gəlir hesablama metodu ilə tanınır. Gəlirin tanınması onunla bağlı pul vəsaitinin ödənilməsi heç də əsas şərt deyil. Məhsulların satışından əldə edilən gəlirlər adətən həmin məhsulların yükləndiyi zaman məhsullar üzərində nəzarətin ötürüldüyü anda qeydə alınır. Gəlir ƏDV, aksiz, güzəştlər və satışdan tutulan digər vergilər (əgər mövcuddursa) çıxılmaqla göstərilir.

Gəlir məhsul və ya xidmətlərin müştərinin nəzarətinə verildikdə tanınır. Nəzarət alıcının aktivdən qalan faydaya sahib olma və ondan istifadəyə əsaslanır. Müəssisə kontrakt bağlanarkən məhsul və ya xidmət üzərində nəzarətin dövr üzrə və ya konkret vaxt anında keçdiyini təyin etməlidir.

Cəmiyyət gəliri dövr üzrə aşağıdakı şərtlər daxilində tanıya bilər:

- Cəmiyyət öhdəlikləri icra etdikcə alıcı faydanı qəbul edir və istehlak edir – adətən xidmət müqavilələrinə şamil edilir, məsələn təmizlik xidmətləri
- Cəmiyyət müştərinin nəzarət etdiyi aktivləri yaradır və ya artırır – belə hallar adətən müəssisə məhsulu istehsal etdikcə müştərinin onu əldə etməsi hallarında olur
- Cəmiyyətin yaratdığı aktivin alternativ istifadəsi yoxdur və müəssisə işin görüldüyü tarixə ödənişi almağa hüququ var – bu şərt əməliyyatın yuxarıdakı iki hala uyğun olmadığı halda nəzərdən keçirilir.

Əgər öhdəlik dövr üzrə icra olunmursa müəssisə gəliri konkret vaxt anında tanıyır.

Nəzarətin Cəmiyyətdən alıcıya keçməsini aşağıdakı indikatorlar göstərir:

- Cəmiyyətin ödənişi almaq hüququ yaranıb
- Cəmiyyət aktivin hüquqi titulunu müştəriyə ötürüb
- Aktivin fiziki sahibliyi müştəriyə ötürülüb
- Cəmiyyət əməmiyyətli riskləri və mükafatları müştəriyə ötürüb
- Müştəri aktivi qəbul edib.

Gəlirin tanınması üçün yuxarıdakı meyarların hamısının eyni zamanda yerinə yetirilmiş olması zəruri deyil.
Cəmiyyətdə iş və xidmətlərin göstərilməsi zamanı gəlirlər hazırkı tarixədək çəkilmiş məsrəflərin əməliyyat üzrə qiymətləndirilmiş ümumi məsrəflərə faiz nisbəti metodundan istfadə edərək tanınırlar.

**Xərclər**

***Müqavilə xərclərinin tanınması***
Cəmiyyət müqaviləni əldə etmək üçün çəkdiyi marjinal xərcləri bərpa edəcəyinə əmindirsə onu aktiv kimi tanımalıdır. Artan (marjinal) xərclər müqaivləni əldə etməklə əlaqədar ortaya çıxan xərclərdir. Müqavilədən asılı olmayaraq mövcud olan xərclər isə kapitallaşdırılmamalıdır. Əgər kapitallaşdırılan xərclərin amortizasiya müddəti bir ildən az olarsa Cəmiyyət belə xərcləri yarandıqca silə bilər.

***Xərclərin uçotu***
Xərc gəliri əldə etmək üçün çəkilən məsrəfdir. Xərc ödəmə vaxtından asılı olmayaraq müəssisənin ödəmə öhdəliyi yarandığı və resursların müəssisədən kənara getməsi əminliyi yarandığı anda tanınır.
Müəssisələrdə istehsal xərclərinin uçotu (məhsulun maya dəyərinin kalkulyasiyası) normativ metodu ilə aparılır.
Dolayı (ümumistehsal) xərclər istehsal olunan məhsullar arasında material xərclərinə mütənasib bölünür.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Cəmiyyətin MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatın hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verməsini tələb edir.

Nəticədə biznes fəaliyyətlərinin qeyri-müəyyənliyi nəticəsində MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda bir çox maddələrin dəqiq qiymətləndirilməsi mümkün olmur və yalnız müəyyən ehtimallar irəli sürülə bilər. Ehtimallar MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabat hazırlanarkən ən son məlumatlara əsaslanan mühakimələri nəzərdə tutur. Gələcək hadisələr haqqında mövcud vəziyyət və ehtimallar Cəmiyyətin nəzarətindən kənarda yaranan bazar dəyişiklikləri və ya şəraitə görə dəyişə bilər. Bu cür dəyişikliklər baş verdikləri zaman Cəmiyyət tərəfindən edilən təxminlərdə öz əksini tapır.

Ən əhəmiyyətli təxminlər əmlak və avadanlıqların amortizasiya dövrü, maliyyə və qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi, maliyyə alətlərinin ədalətli dəyəri, köhnəlmiş mal və material ehtiyatları üzrə ehtiyatlar ilə bağlıdır. Faktiki nəticələr həmin təxminlərdən fərqli ola bilər.

**Mülahizələr**

Cəmiyyətin mühasibat uçotu siyasətinin tətbiq edilməsi prosesində rəhbərlik MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatında tanınmış məbləğlər üzrə nəzərə alınmış əhəmiyyətli təsiri olan təxminlərdən başqa aşağıdakı mülahizələri edir.

***Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlər üzrə ədalətli dəyər***

Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin Cəmiyyətə təhvil verildiyi tarixə hesablanmış şərti dəyər olaraq ədalətli dəyərlə ölçülmüşdür.

Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin bazar dəyəri, 13 saylı MHBS-ə əsasən əmlakın, tikili və avadanlıqların ədalətli dəyərinə bərabər olan bənzər əmlak, tikili və avadanlıqlar üçün bazar satış qiymətlərinin təhlilini əhatə edən bazar yanaşması metodu ilə qiymətləndirilmişdir.

***Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti***

Cəmiyyət hər maliyyə ilinin sonunda əmlak, tikili, avadanlıqlar və qeyri-maddi aktivlərin qalan faydalı istifadə müddətini qiymətləndirir. Bu aktivlərin nəzərdə tutulan faydalı istifadə müddəti ötən ilin qiymətləndirilməsindən fərqli olduqda, 8 saylı MUBS "Uçot Siyasətləri, Uçot Qiymətləndirmələrində Dəyişikliklər və Xətalar" standartına müvafiq olaraq uçot təxminlərində dəyişiklik olaraq uçota alınır. Belə təxminlərin əmlak, tikili və avadanlıqların qalıq dəyərlərinin məbləğləri və mənfəət və zərərdə tanınmış amortizasiya üzrə təsirləri olur.

***Əmlak, tikili və avadanlıqların və digər qeyri-maliyyə aktivlərin dəyərsizləşməsi***

Cəmiyyət hər bir hesabat tarixinə aktivlərin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa və ya fərdi aktiv üçün illik dəyərsizləşmə üzrə təhlil tələb edilirsə Cəmiyyət aktivin əvəz olunması dəyərini təxmin edir. Aktivin əvəz olunma dəyəri onun digər aktivlərdən müstəqil şəkildə pul vəsaitləri yaratmaq qabiliyyətinin olduğu hallar istisna olmaqla, aktivin və ya pul vəsaiti yaradan vahidin ən yüksək ədalətli dəyərindən satış xərcləri və istifadə dəyəri çıxılması nəticəsində yaranan dəyərə bərabərdir. Aktivin ədalətli dəyəri onun əvəzolunma dəyərindən artıq olduqda aktiv dəyərsizləşmiş hesab edilir və onun qalıq dəyəri müvafiq olaraq azaldılır. İstifadə dəyərini qiymətləndirərkən, pulun zaman dəyəri və aktivə xas olan risklərin cari bazar qiymətləndirməsini əks etdirən vergidən öncə diskont dərəcəsi

istifadə edilərək ehtimal olunan gələcək pul axınları mövcud dəyərinə diskontlaşdırılır. Satış xərcləri çıxılmaqla ədalətli dəyəri müəyyən edərkən, cari bazar əməliyyatları (mövcud olduqda) nəzərə alınır. Bu cür əməliyyatlar müəyyən edilə bilmədikdə, müvafiq qiymətləndirmə modeli istifadə olunur.

Cəmiyyət dəyərsizləşmə üzrə hesablamanı, fərdi aktivin ayrıldığı Cəmiyyətin hər bir nağd yaradan vahidi (CGU) üçün ayrı-ayrılıqda hazırlanan ətraflı büdcələrə və proqnoz hesablamalarına əsaslanır. Bu büdcələr və proqnoz hesablamaları ümumilikdə 5 illik dövrü əhatə edir. Daha uzun dövrlər üçün, uzunmüddətli böyümə sürəti müəyyənləşdirilir və beşinci ildən sonra gələcək pul vəsaitlərinin hərəkəti üçün tətbiq olunur.

***Mal-material ehtiyatlarının qiymətləndirilməsi***

Mal-material ehtiyatları maya dəyər və ya xalis satış dəyərindən daha az olan məbləğdə qiymətləndirilir. Cəmiyyət uyğun olduqda köhnəlmiş və az istifadə edilən mal-material ehtiyatlarının qalıq dəyərini xalis satış dəyərinə qədər azaldaraq uçota alır. Mal-material ehtiyatlarının silinməsi üzrə yaranan faktiki dəyər xalis satış dəyərindən fərqli ola bilər; istənilən fərqin gələcək əməliyyat nəticələri üzərində əhəmiyyətli təsiri ola bilər.

**ƏDV-nin bərpası**

Hər hesabat tarixində Cəmiyyət mal və xidmətlərin satışından yaranan ƏDV-nin bərpasını qiymətləndirir. Cəmiyyət bu məbləğləri yalnız gələcəkdə yaranacaq ƏDV öhdəliyinin əvəzləşdirilməsi və ya vergi orqanlarından toplanması vasitəsilə ala bilər. ƏDV üzrə alınacaq vəsaitlərin bərpası qiymətləndirilərkən Cəmiyyət planlaşdırılmış ƏDV öhdəliyi, dövlət vergi orqanları ilə yazışmaları və tarixi bərpa təcrübəsi ilə bağlı daxili vergi departamentindən alınan məlumatları nəzərə alır.

ƏDV-nin bərpasının cari məbləği Cəmiyyətin təxminlərindən əhəmiyyətli dərəcədə fərqlənə bilər və bu da öz növbəsində əməliyyat nəticələrinə təsir göstərə bilər.

***Maliyyə alətlərinin ədalətli dəyərinin ölçülməsi***

Cəmiyyətin bir sıra mühasibat uçotu siyasəti və açıqlamaları, maliyyə və qeyri-maliyyə aktivləri və öhdəlikləri üçün ədalətli dəyərin ölçülməsini tələb edir.

Cəmiyyət ədalətli dəyərin ölçülməsi ilə əlaqədar olaraq müəyyən nəzarət çərçivəsinə malikdir.

Aktiv və ya öhdəliyin ədalətli dəyərini ölçərkən, Cəmiyyət mümkün qədər bazarda müşahidə edilə bilən məlumatlardan istifadə edir. Ədalətli dəyərlər aşağıdakı qiymətləndirmə üsullarında istifadə olunan məlumatlara əsaslanaraq ədalətli dəyər iyerarxiyasında müxtəlif səviyyələrdə təsnifləşdirilir.

- *Səviyyə 1* – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- *Səviyyə 2* – aktiv və ya öhdəlik üzrə birbaşa (yəni qiymətlər) və ya dolayı yolla (yəni qiymətlərdən əldə edilir) müqayisə edilə bilən 1-ci düzəlişdə daxil edilmiş qiymətlərdən başqa daxilolmalar;
- *Səviyyə 3* – aktiv və ya öhdəlik üçün müşahidə edilə bilməyən məlumatlar olan ilkin məlumatlardan istifadə edilir.

Bir aktivin və ya öhdəliyin ədalətli dəyərini ölçmək üçün istifadə edilən məlumatlar, ədalətli dəyər iyerarxiyasının müxtəlif səviyyələrində təsnif edilə bilərsə, ədalətli dəyər iyerarxiyasının eyni dərəcəsi bütün ölçmə üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş kimi ədalətli dəyərin ölçülməsi bütünlükdə təsnif edilir.

***Cari vergilər***

Azərbaycanda vergi, valyuta və gömrük qanunvericiliyi tez-tez baş verən şərhlərə və dəyişiklərə məruz qalır. Bundan başqa Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq olunan vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərhi, Cəmiyyətin rəhbərliyinin şərhi ilə uyğun gəlməyə bilər. Nəticədə, vergi orqanları

əməliyyatları yenidən təsnif edə bilər və Cəmiyyətin işçiləri əhəmiyyətli dərəcədə əlavə vergi, cərimə və faiz ödəmələrinə məruz qala bilərlər.

Vergi və gömrük qurumları müəssisənin fəaliyyətinin nəzərdən keçiriləcəyi ildən əvvəlki üç il ərzində vergi öhdəliklərini yoxlaya bilərlər. Cəmiyyətin fəaliyyətinin nəzərdən keçirilməsi müəyyən şərtlər çərçivəsində daha uzun müddətləri də əhatə edə bilər. 1 yanvar 2020-ci il tarixinə rəhbərlik hesab edir ki, onların müvafiq qanunvericiliklə bağlı şərhləri uyğundur və ehtimal olunur ki, Cəmiyyətin vergi, valyuta və gömrüklə bağlı cari vəziyyəti dəyişməyəcək.

***Təxirə salınmış vergilər***

Təxirə salınmış vergi aktivləri istifadə olunmayan vergi zərərləri üçün zərərlərin istifadə oluna biləcəyi vergiyə cəlb olunan mənfəətin olması ehtimalı daxilində tanınır. Gələcək vergi planlaşdırma strategiyaları ilə birlikdə ehtimal olunan vaxt və gələcək vergiyə cəlb olunan mənfəət səviyyəsinə əsaslanaraq, təxirə salınmış vergi aktivlərinin məbləğini müəyyənləşdirmək üçün əhəmiyyətli idarəetmə qərarı tələb olunur.

## 4. YENİ VƏ YENİDƏN İŞLƏNİLMİŞ STANDARTLARIN QƏBUL EDİLMƏSİ

Cəmiyyət, fəaliyyətinə aid olan və 31 dekabr 2019-ci il tarixində başa çatan illik hesabat dövrü üçün qüvvədə olan BMUSŞ və BMUS-un BMHŞK tərəfindən dərc olunmuş və tətbiq olunan bütün yeni və yenidən işlənmiş Standart və Şərhləri qəbul etmişdir. Aşağıdakı standartların 1 yanvar 2020-ci il tarixindən sonra 1 yanvar 2022-ci il tarixinədək qüvvəyə minməsi gözlənilir. Bununla belə, 1 saylı MHBS-ə əsasən, Cəmiyyət bu standartları daha əvvəl qəbul etmişdir.

**3 saylı MHBS Müəssisələrin Birləşməsi. “Müəssisə” tərifinə edilən Düzəliş** – Düzəlişlər şirkətlərə əldə edilmiş aktivlərin müəssisə və ya aktivlər qrupu olduğunu müəyyənləşdirməyə kömək edəcək.

Edilmiş düzəliş biznes xidmətlərinin nəticələrinin müştəriləri məhsul və xidmətlər ilə təmin etmək olduğunu vurğulayır. Halbuki əvvəlki anlayışa əsasən, biznes anlayışı dividend şəklində, daha aşağı xərclərə və ya investorlara və digərlərinə iqtisadi mənfəət təmin etmək məqsədi daşıyırdı. Alınan aktivin biznes və ya aktivlər qrupu olduğunu fərqləndirmək vacibdir, çünki, alıcı qudvili yalnız biznes alarkən tanıyır. Dəyişikliklərə əsasən, “biznes”in yeni tərifi müştərilərə məhsul və ya xidmətlər təqdim etmək, investisiya gəliri yaratmaq (məsələn, dividendlər və faizlər) və ya adi fəaliyyətdən digər gəlirlər yaratmaq məqsədilə aparıla və idarə oluna bilən fəaliyyət və aktivlərin məcmusudur.

Şirkətlərdən “Müəssisə” tərifinə edilən düzəlişi 1 yanvar 2020-ci il tarixində və ya bu tarixdən sonra baş verən satınalmalara tətbiq etmələri tələb olunur. Standartın daha erkən tətbiq edilməsinə icazə verilir. Cəmiyyət bu düzəlişin tətbiqinin təsirlərini qiymətləndirmiş və MHBS əsasında hazırlanmış maliyyə hesabatlarında heç bir dəyişiklik edilməmişdir.

**“Əhəmiyyətlilik” anlayışının yeni tərifi** – MUBSŞ şirkətlərin əhəmiyyətliliklə bağlı qərarları daha asan verməsi üçün əhəmiyyətlilik prinsipinə düzəlişlər dərc etmişdir. Yeni dəyişikliklər 1 saylı BMUS “Maliyyə Hesabatlarının Təqdimatı” və 8 saylı BMUS “Mühasibat Uçotu Qaydaları, Uçot Ehtimallarındakı Dəyişikliklər və Xətalar”a şamil edilir.

Dəyişikliklər əhəmiyyətliliyin tərifini və bu günə qədər MHBS-in digər standartlarında göstərilmiş olan əhəmiyyətlilik prinsiplərinin tətbiqi ilə bağlı təlimatları da hesabat hazırlayanlar üçün aydınlaşdırır. Yeni tərifə əsasən, məlumat o zaman əhəmiyyətli sayılır ki, onun gizlədilməsi, təhrif edilməsi və ya dəyişdirilməsinin maliyyə hesabatını ümumi məqsədlər üçün istifadə edən əsas tərəflərin qərarlarına təsir etməsi ehtimal edilir və bu məlumat hesabat hazırlayan konkret müəssisə üzrə maliyyə məlumatı xarakterinə malikdir.

Dəyişikliklər 1 yanvar 2020-ci ildən qüvvəyə minir. Daha erkən tətbiq olunmasına icazə verilir. Cəmiyyət bu dəyişikliyin tətbiq edilməsinin təsirlərini qiymətləndirmiş və MHBS əsasında maliyyə hesabatlarının hazırlanmasında bu təsirləri nəzərə almışdır.

Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) Banklararası Təklif Olunan Faiz Həddi (“BTFH”) üzrə aparılan islahatların maliyyə hesabatlılığı üzrə yarana biləcək potensial təsirinə cavab olaraq, **“Baza Faiz Dərəcəsi İslahatı”-nı (9 saylı MHBS, 39 saylı BMUS və 7 saylı MHBS-ə edilmiş Düzəlişləri”)** dərc etmişdir. Baza faiz dərəcəsi islahatlarına əsasən:

- islahat nəticəsində müəssisələrin, hedc olunmuş pul axınlarının və hedcinq aləti üzrə pul axınlarının əsaslandığı baza faiz dərəcəsinin dəyişilməyəcəyini ehtimal edərək, tətbiq ediləcək hedcinq uçotu üzrə bəzi tələblər yenidən müəyyənləşdirilir;
- baza faiz dərəcəsi islahatı birbaşa təsir etdiyi bütün hedcinq münasibətləri üçün məcburidir;
- bu islahat, islahat nəticəsində yaranacaq digər nəticələrin həlli üçün nəzərdə tutulmamışdır (əgər hedcinq münasibətləri düzəlişlərdə göstərilməmiş səbəblər nəticəsində, hedcinq uçotu tələblərinə cavab vermirsə, hedcinq uçotunun dayandırılması tələb olunur); və
- düzəlişlərin müəssisələrin hedcinq münasibətlərinə hansı dərəcədə təsir göstərməsi barədə xüsusi açıqlamalar tələb olunur.

Dəyişikliklər 1 yanvar 2020-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq edilməlidir. Erkən tətbiq olunmasına icazə verilir. Cəmiyyət bu dəyişikliyin tətbiq edilməsinin təsirlərini qiymətləndirmiş və MHBS əsasında hazırlanmış maliyyə hesabatlarında heç bir dəyişiklik edilməmişdir.

15 may 2020-ci ildə BMUSŞ icarəçilərə “**COVID-19 ilə əlaqəli İcarə Güzəştləri (16 saylı MHBS-ə edilmiş Düzəliş)”** icarəçilərə COVID-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olub-olmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi düzəlişi edilmişdir.

COVID-19 ilə əlaqəli İcarə Güzəştləri üzrə dəyişikliklər (16 saylı MHBS-ə edilmiş düzəliş) 16 saylı MHBS-ə aşağıdakı düzəlişləri etmişdir:

- icarəçilərə COVID-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olub-olmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi;
- güzəşt tətbiq edən icarəçilərdən, icarə modifikasiyası olmadığı kimi, COVID-19 ilə əlaqəli icarə güzəştlərini hesaba vermələrini tələb etmək;
- güzəşt tətbiq edən icarəçilərdən bu faktı açıqlamalarını tələb etməlidir; və
- icarəçilərdən 8 saylı BMUS-a uyğun olaraq güzəşt tədbirlərini retrospektiv şəkildə tətbiq etmələrini tələb etsələr də, əvvəlki dövr rəqəmlərini yenidən tələb etmələrini tələb etmirlər.

Dəyişikliklər 1 iyun 2020-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir. 28 may 2020-ci il tarixində dərc olunması hələ də təsdiqlənməmiş maliyyə hesabatı da daxil olmaqla, erkən tətbiq olunmasına icazə verilir. Düzəliş aralıq hesabatlar üçün də uyğundur.

## 5. DƏRC OLUNMUŞ, LAKİN, HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Bu maliyyə hesabatlarının təsdiq olunduğu tarixdə, qüvvədə olma tarixindən əvvəl Cəmiyyət tərəfindən qəbul edilmiş Standartlar və Şərhlər istisna olmaqla, aşağıdakı Şərhlər dərc edilmiş, lakin, hazırda qəbul edilməmişdir.

**Öhdəliklərin təsnifatına aydınlıq gətirilməsi ilə bağlı 1 saylı BMUS üzrə Düzəlişlər** – 2020-ci il yanvar ayında BMUSŞ “Cari və Uzunmüddətli olmaqla, Öhdəliklərin Təsnifatı (1 saylı BMUS üzrə Düzəlişlər)” dərc etmişdir. Düzəlişlər öhdəliklərin 1 saylı BMUS-a əsasən, hesabat tarixinə müqavilə razılaşmaları üzrə təsnifatına daha ümumi yanaşma təklif edir. Öhdəliklərin cari və uzunmüddətli olmaqla təsnifatı üzrə

düzəlişlər (1 saylı BMUS üzrə Düzəlişlər) aktiv öhdəlik üzrə gəlirlərin və ya xərclərin tanınma müddətinə və ya məbləğinə, eləcə də bu anlayışlar üzrə müəssisənin təqdim etdiyi açıqlamalara deyil, yalnız öhdəliklərin maliyyə vəziyyəti haqqında hesabatdakı təqdimatına təsir edir. Düzəlişlər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq olunmalıdır. Düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**17 saylı MHBS “Sığorta müqavilələri”** 2017-ci ilin may ayında verilmiş və 4 saylı MHBS “Sığorta müqavilələri”ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə 17 saylı MHBS “Sığorta müqavilələri”ni tətbiq etməlidir.

17 saylı MHBS, 1 yanvar 2023-cü il və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. 15 saylı MHBS “Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir” və 9 saylı MHBS “Maliyyə Alətləri” standartları ilə birlikdə tətbiq olunarsa, erkən tətbiqinə icazə verilir.

**10 saylı MHBS “Konsolidasiya Edilmiş Maliyyə Hesabatları” və 28 saylı BMUS (düzəlişlər):**
**“İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi”** – 10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya edilən əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya edilən assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır.

Düzəlişlərin qüvvəyə minmə tarixi hələ ki, MUBSŞ tərəfindən müəyyən edilməmişdir, lakin, düzəlişlərin erkən tətbiqinə icazə verilir.

## 6. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ QALIQLAR VƏ ƏMƏLİYYATLAR

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar eyni Cəmiyyətin nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətlər nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, istiqsadi məzmununa diqqət yetirilir.

Cəmiyyət dövlət müəssisələri ilə əlaqədar 24 saylı “Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması” adlı MUBS əsasında əlaqəli tərəflə əməliyyatlar və cari qalıqlar, o cümlədən təəhhüdlər ilə bağlı müəyyən məlumatların açıqlanması tələblərindən istisnanı tətbiq etmişdir. Hər bir əlaqəli tərəf ilə bağlı münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir. Cəmiyyətin bilavasitə nəzarətçi tərəfi Azərbaycan Respublikası Hökumətinə məxsus olan “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətidir.

Cəmiyyət dövlət ilə əlaqəli qurumlar üçün açıqlama tələbi ilə əlaqədar 24 saylı MUBS “Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması”nın 25-ci bəndində qeyd olunmuş güzəştdən istifadə etmişdir.

Hesabat təqdim edən müəssisə əlaqəli tərəf əməliyyatları və öhdəliklər daxil olmaqla, qalıq borclarla əlaqəli 24 saylı “Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması” adlı MUBS-un 18-ci bəndinin açıqlama tələblərindən azaddır.

Hesabat təqdim edən müəssisə əlaqəli tərəf əməliyyatları və öhdəliklər də daxil olmaqla, qalıq borclarla əlaqəli 24 saylı “Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması” adlı MUBS-un 18-ci bəndinin açıqlama tələblərindən aşağıdakılar ilə birlikdə azaddır:

(a) hesabat təqdim edən müəssisə nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olan hökumət; və

(b) eyni hökumətin həm təqdim edən müəssisənin, həm də digər təşkilatın nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olduğu üçün əlaqəli tərəf olan başqa bir müəssisə.

Dövlətlə əlaqəli təşkilatlarla əməliyyatlara elektrik enerjisi, qaz, benzin alınması və digər xidmətlərin alınması daxildir.

31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərində əlaqəli tərəflərlə aparılan əməliyyatlar üzrə qalıqlar aşağıdakı kimidir:

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| **Aktiv və öhdəliklər üzrə qalıqlar** | | |
| Debitor borc | - | - |
| Kreditor borc | - | - |
| Təsisçiyə olan borc | - | 200,000 |

31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixləri üzrə əlaqəli tərəflərlə aparılan əməliyyatlardan yaranan gəlir və xərclər aşağıdakı kimidir:

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| **Gəlir və xərclər** | | |
| Gəlirlər | 5,700 | - |
| Xərclər | 61,200 | - |

## 7. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR

| | **Binalar və bənzər tikililər** | **Torpaq** | **Maşınlar və avadanlıqlar** | **Nəqliyyat vasitələri** | **Digər** | **Qeyri-maddi aktivlər** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|
| İlkin dəyər 31 dekabr 2019-cu il | 1,498,347 | 5,652,987 | 2,498,452 | 50,538 | 35,244 | 24,670 | **9,760,239** |
| Yığılmış könəlmə 31 dekabr 2019-cu il | (74,169) | | (217,463) | (12,082) | (7,162) | | **(310,876)** |
| Yığılmış dəyərsizləşmə 31 dekabr 2019-cu il | (42,105) | (167,126) | (67,435) | (1,137) | (830) | | **(278,633)** |
| Xalis qalıq dəyəri 31 dekabr 2019-cu il | 1,382,073 | 5,485,861 | 2,213,554 | 37,319 | 27,253 | 24,670 | **9,170,730** |

31 dekabr 2019-cu il tarixinə, əmlak, tikili və avadanlıqlar kateqoriyasına aid, istifadəsinə məhdudiyyət qoyulmuş və ya öhdəliklərin təminatı olaraq girov qoyulmuş hər hansı bir aktiv mövcud olmamışdır.

## 8. MAL-MATERİAL EHTİYATI

Mal-material ehtiyatlarına daxildir:

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| Xammal | 333,170 | |
| Ehtiyyat hissələri | 141,032 | |
| Hazır məhsul | 174,192 | |
| Digər | 25,664 | |
| **Cəmi mal-material ehtiyatları** | **674,057** | **-** |

## 9. DEBİTOR BORCLARI

31 dekabr 2019-cu il tarixinə debitor borcları 431,136 AZN məbləğində ayaqqabı məhsullarının satışından yaranmış alınacaq vəsaitlərdən ibarətdir.

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| Debitor borclar | 431,136 | |
| **Cəmi** | **431,136** | **-** |

Debitor borcları faiz gəliri yaratmır, adətən 1 aya qədər ödənilir və AZN ilə ifadə olunur. Cəmiyyətin debitor borclarının coğrafi konsentrasiyası Azərbaycan Respublikası olmuşdur.

## 10. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

Pul vəsaitləri və onların ekvivalentlərinə aşağıdakılar daxildir:

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| Banklarda yerləşdirilmiş vəsaitlər (AZN) | 279,822 | 109,696 |
| Banklarda yerləşdirilmiş vəsaitlər (ABŞ dolları) | 17 | |
| Banklarda yerləşdirilmiş vəsaitlər (Avro) | 23 | |
| Banklarda yerləşdirilmiş vəsaitlər (Rubl) | 23 | |
| Cəmi pul vəsaitləri və onların ekvivalentləri | **279,885** | **109,696** |

## 11. DİGƏR CARİ AKTİVLƏR

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| Təchizatçılara verilmiş avans ödənişləri | 21,763 | 65,840 |
| Vergilər üzrə əvəzləşdiriləcək ƏDV | 1,194 | |
| ƏDV depozit hesabı | 12,057 | |
| **Cəmi digər cari aktivlər** | **35,014** | **65,840** |

## 12. KREDİTOR BORCLARI VƏ DİGƏR ÖDƏNİLƏCƏK VƏSAİTLƏR

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| Kreditor borcları | 7,936 | |
| **Cəmi kreditor borcları** | **7,936** | **-** |
| İşçilərlə bağlı ödəniləcək vəsaitlər | 189 | |
| Alınmış avanslar | | |
| Vergilər və digər məcburi ödənişlər üzrə ödəniləcək vəsaitlər | 37,065 | 19,096 |
| **Cəmi digər ödəniləcək vəsaitlər** | **37,254** | **19,096** |
| **Cəmi kreditor borcları və digər ödəniləcək vəsaitlər** | **45,190** | **19,096** |

Kreditor borcları üzrə qalıqlar adətən 1 ayadək olan dövrdə ödənilir və AZN ilə ifadə olunur. Cəmiyyətin kreditor borclarının coğrafi konsentrasiyası Azərbaycan Respublikası ərazisində olmuşdur.

## 13. SAİR QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR

Sair qısamüddətli öhdəliklər olaraq təsnifləşdirilmiş öhdəliyə təsisçidən alınmış qısamüddətli, faizsiz, borc daxildir.

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| Təsisçidən alınmış borc | | 200,000 |
| **Cəmi sair qısamüddətli aktivlər** | **-** | **200,000** |

## 14. NİZAMNAMƏ KAPİTALI

31 dekabr 2019-cu il tarixinə nizamnamə kapitalı 10,845,869 AZN təşkil etmiş və bir səhm üzrə 10,845.869 AZN nominal dəyəri olan 100 paydan ibarətdir.

| | **31 dekabr 2019-cu il** | **31 dekabr 2018-ci il** |
|---|---|---|
| Nizamnamə kapitalı | 10,845,869 | 9,720,786 |
| **Cəmi nizamnamə kapitalı** | **10,845,869** | **9,720,786** |

## 15. ƏLAVƏ KAPİTAL QOYULUŞU

Cəmiyyətin nizamnamə kapitalı Nizamnamə Kapitalı 12.07.2018-ci il tarixində artırılmış və AR Vergilər Nazirliyi tərəfindən 9 720 786, 00 manat həcmində təsdiq edilmişdir. “Azərbaycan Sənaye Korporasiyası” ASC-nin 01-2019-086/1 saylı 26.11.2019-cu il tarixli Əmrinə əsasən 1 125 083,10 manat dəyərində dövriyyə və əsas vəsaitlər “Azərbaycan Sənaye Korporasiyası” ASC-nin balansından çıxarılaraq “ASK Ayaqqabı Fabriki” MMC-nin balansına verilib.

31.12.2019-cu il tarixə Cəmiyyətin nizamnamə kapitalı İqtisadiyyat Nazirliyi yanın Dövlət Vergi Xidməti tərəfindən 9 720 786, 00 manat təsdiq edilmişdir. 2019-cu il ərzində yatırılmış lakin dövlət qeydiyyatına alınmamış nizamnamə kapitalının təsdiqi üçün audit rəyi əldə edilmiş və kapitalın dövlət qeydiyyatına alınması üçün müraciət edilmişdir və 08 dekabr 2020-ci ildə təsdiq edilmişdir.

2019-cu il ərzində Cəmiyyətin nizamnamə kapitalı 1 125 083 manat əmlak formasında artırılaraq 10 845 769 çatdırılmışdır.

| | | |
|---|---|---|
| **31 dekabr 2018-ci il tarixinə nizamnamə kapitalı** | **9,720,786** | **-** |
| Dövr ərzində pul formasında nizamnamə kapitalı artımı | 1,125,083 | 9,720,786 |
| Dövr ərzində əmlak formasında nizamnamə kapitalı artımı | | |
| **31 dekabr 2019-cu il tarixinə nizamnamə kapitalı** | **10,845,869** | **9,720,786** |

## 16. GƏLİRLƏR

Cəmiyyətin 2019-cu il ərzində icmal gəlirləri 3 424 162 manat olmuşdur. Gəlir strukturu və açıqlaması aşağıdakı kimidir:

| | **2019** | **2018** |
|---|---|---|
| Yazlıq uzunboğaz botinka | 2,440,678 | |
| Uzunboğaz botinka | 732,203 | |
| Çəkmə fəhlə üçün | 110,000 | |
| Ayaqqabı mühəndis | 79,620 | |
| Çəkmə dəri qısaboğaz fəhlə üçün | 16,200 | |
| Çəkmə qısaboğaz fəhlə üçün | 9,357 | |
| İşçi bot. burun hissə zərb. davamlı | 5,408 | |
| Uzunboğaz rezin çəkmə | 5,103 | |
| Çəkmə dəridən (uzunboğaz içi xəz.) mühəndis üçün | 4,830 | |
| Fəhlə çəkməsi | 4,200 | |
| Yüksək görüntünü təmin edən siqnal jileti | 4,000 | |
| Çəkmə kəmərdən yuxarı bataqlıq üçün | 3,300 | |
| Çəkmə dəri qısaboğaz mühəndis üçün | 3,000 | |
| Çəkmə kəmərə qədər bataqlıq üçün | 3,000 | |
| Digər | 2,162 | |
| **Cəmi əməliyyat gəlirləri** | **3,423,062** | **-** |
| **Sair gəlirlər** | **1,100** | **18300** |
| **İcmal gəlirlər** | **3,424,162** | **18,300** |

## 17. XƏRCLƏR

Cəmiyyətin 2019-cu il ərzində icmal xərcləri 3 562 061 manat olmuşdur. Xərclərin strukturu və açıqlaması aşağıdakı kimidir:

| | **2019** | **2018** |
|---|---|---|
| Maya dəyəri xərcləri | 2,755,713 | |
| Satış və marketinq xərcləri | | |
| **Ümumi və inzibati xərclər** | | |
| İnzibati işçilərin əmək haqqı | 262,715 | 31217 |
| İnzibati işçilərin əmək haqqına 22% DSMF ayırımları | 57,797 | 6868 |
| İnzibati işçilərin əmək haqqına 0,5 % işsizlikdən sığorta ayırımları | 1,314 | 156 |
| Elektrik enerjisi xərcləri | 15,779 | |
| Mühafizə xərcləri | 61,200 | |
| Əmlak vergisi (inzibat) | 14,723 | 19168 |
| Torpaq vergisi | 2,348 | |
| Yanacaq xərcləri | 1,109 | |
| Bank xidmətləri | 12,359 | 650 |
| Gömrük sənədlərinin rəsmiləşdirilməsi (idxal ilə bağlı basqa sirketin xercleri) | 7,229 | |
| Avtomobillərə texniki xidmət | 3,956 | |
| İcbari və həyat sığortası | 8,518 | 185 |
| Dəftərxana xərcləri, ciddi uçot blankları | 7,679 | |
| Telefon, rabitə və internet xərcləri | 5,543 | |
| Tenderdə iştirak xərcləri | 6,371 | |
| Su və sukanal xərcləri | 1,426 | |
| Ezamiyyə xərcləri | 3,126 | |
| Sertifikatlaşdırma xərcləri | 2,160 | |
| Məişət tullantılarının daşınması, təmizlik işləri | 2,312 | |
| Katriclərin dolumu | 1,560 | |
| Aviabiletlərin alınması | 1,095 | |
| Yanğınsöndürən balonların doldurulması | 875 | |
| Dərman preparatları | 364 | |
| Tərcümə xərcləri | 214 | |
| Qaz sayğacının təmiri | 270 | |
| Qeyri yaşayış obyektinin eskiz layihəsinin hazırlanması | | 2700 |
| Digər xərcər | | 1015 |
| Amortizasiya xərcləri | 45,672 | 118,679 |
| Aktivlərin dəyərsizləşmə testinin nəticəsi üzrə yaranmış dəyərsizləşmə | 278,633 | |
| **Cəmi icmal xərclər** | **3,562,061** | **180,638** |

## 18. MƏNFƏƏT VERGİSİ

Cəmiyyət vergiləri Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hazırlanmış vergi hesabatlarına və qeydlərinə əsasən hesablayır və bu hesablamalar MHBS-dan fərqlənə bilər.
Bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlər vergidən azad olunduğundan Cəmiyyət müəyyən daimi vergi fərqlərinin təsirinə məruz qalır.
Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərin qalıq dəyəri ilə onların vergi hesabatındakı qalıq dəyərləri arasındakı müvəqqəti fərqləein xalis vergi təsirini əks etdirir. 31 dekabr 2018-ci il və 31 dekabr 2019-cu il tarixlərinə müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınmasında müxtəlif üsulların istifadə edilməsinə, eləcə də bəzi aktivlər üzrə bergi uçotunda olan qalıqların maliyyə hesabatlarında olan qalıqlara nisbətən fərqli olması nəticəsində yaranır.

31 dekabr 2019-cu il və 31 dekabr 2018-ci il tarixlərinə başa çatan dövr üzrə vergi gəliri və uçot zərəri arasında münasibətlər aşağıdakı kimi izah olunur:

| | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər** | | |
| Gələn dövrə keçirilmiş vergi zərəri | 653,591 | 417,196 |
| Digər cari aktivlər | | |
| Əmlak, tikili və avadanlıqlar | 278,633 | |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **932,224** | **417,196** |
| **Vergi bazasını artıran müvəqqəti fərqlər** | | |
| Əmlak, tikili və avadanlıqlar | - 618,404 | - 254,858 |
| Debitor borclar və digər qısamüddətli aktivlər | | - |
| Digər cari aktivlər | | |
| **Cəmi vergi bazasını artıran müvəqqəti fərqlər** | **- 618,404** | **- 254,858** |
| **Xalis vergi bazasını azaldan müvəqqəti fərqlər** | **313,820** | **162,338** |
| Vergi dərəcəsi ilə təxirə salınmış xalis təxirə salınmış mənfəət vergi aktivi (20%) | 62,763.95 | 32,467.66 |
| **Xalis təxirə salınmış vergi borcu** | **62,764** | **32,468** |
| **Tanınmayan təxirə salınmış vergi aktivi** | | **- 32,468** |
| **Xalis təxirə salınmış vergi aktivi** | 62,764 | - |

Cəmiyyətin gəlirinə tətbiq edilən mənfəət vergisi 20% dərəcəsi ilə hesablanır. Maliyyə hesabatlılığı məqsədləri üçün aktivlərin və öhdəliklərin balans məbləğləri ilə vergiqoyma məqsədləri üçün istifadə olunan məbləğlər arasındakı müvəqqəti fərqlər nəticəsində 31 dekabr 2019-cu il tarixinə xalis təxirə salınmış vergi aktivi yaranmışdır. Bu təxirə salınmış vergi aktivləri hazırkı maliyyə hesabatlarında tanınmşdır. Gələcək vergi

güzləştləri yalnız o zaman realizasiya olunacaq ki, istifadə olunmayan vergi zərərlərinin istifadə oluna biləcəyi mənfəət mövcud olsun və qanun və qaydalarda Cəmiyyətin gələcək dövrlərdə tutulmalar iddia etmək qabiliyyətinə mənfi təsir edən dəyişikliklər baş verməsin.
Bu gələcək vergi güzəştləri onların realizasiyası ilə bağlı proqnozlar müsbət olduğu ilə əlaqədar olaraq tanınmışdır. Tutula bilən müvəqqəti fərqlər cari vergi qanunvericiliyinə əsasən qüvvədən düşmür. 2018 və 2019-cu ilin zərərləri üzrə növbəti dövrə keçirilən vergi zərəri müvafiq olaraq 2023 və 2024-cü illərdə qüvvədən düşür.

## 19. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

**Məhkəmə prosedurları**
Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Cəmiyyətə qarşı iddialar irəli sürülə bilər. Rəhbərlik hesab edir ki, iddialarla bağlı hazırkı maliyyə hesabatında ayrılmış ehtiyatlardan artıq heç bir əhəmiyyətli zərər olmayacaqdır.

**Vergi qanunvericiliyi**
Azərbaycan Respublikasının vergi qanunvericiliyindəki müddəalara bəzən müxtəlif şərhlər və dəyişikliklər baş verir və bu dəyişikliklər müxtəlif mənalarda şərh edilə bilər və nəticədə vergi orqanları bu müddəaları özləri hesab etdikləri kimi şərh edə bilərlər. Praktikada vergi orqanları belə hallarda adətən vergi ödəyicilərinin əleyhinə qərar çıxarırlar ki, nəticədə vergi ödəyiciləri öz hüquqlarını məhkəmə vasitəsilə müdafiə etməyə məcbur olurlar. Cəmiyyət bütün vergi ödəmələrini artıq həyata keçirdiyinə inanır və bu səbəbdən MHBS üzrə hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatında heç bir vergi öhdəliyi yaratmamışdır. Vergi dövrləri üç il ərzində vergi orqanları tərəfindən təftiş olunması üçün açıq olaraq qalır.

## 20. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Risklərin idarə edilməsi Cəmiyyətin fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir və Cəmiyyət əməliyyatlarının əsas elementini təşkil edir. Cəmiyyətin əməliyyatlarına xas olan əsas risklər aşağıdakılarla bağlıdır:

- Kredit riski;
- Likvidlik riski;
- Bazar riski.

Cəmiyyət effektiv və səmərəli riskin idarə edilməsi prosesinin tətbiqinin önəmli olduğunu qəbul edir. Belə prosesin tətbiqinə imkan yaratmaq üçün Cəmiyyət riskin idarə edilməsi qaydalarını yaratmışdır ki, bunun da əsas məqsədi Cəmiyyəti risklərdən qorumaq və Cəmiyyətin qarşıda qoyulmuş fəaliyyət məqsədlərinə nail olması üçün imkan yaratmaqdır. Risk idarəçiliyi çərçivəsində Cəmiyyət aşağıdakı riskləri idarə edir:

**Kredit riski**

Bir tərəfin maliyyə aləti üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi zaman və maliyyə zərərləri ilə nəticələnə bilən hallarda Cəmiyyət kredit riskinə məruz qalır.

**Maksimal riskə məruz qalma**

Cəmiyyətin kredit riskinə maksimal məruz qalması əhəmiyyətli dərəcədə dəyişir və həm fərdi risklərdən, həm də ümumi bazar iqtisadiyyatı ilə bağlı risklərdən asılıdır

**Coğrafi risk konsentrasiyası**

Aktivlər, öhdəliklər və kreditlə bağlı öhdəliklər qarşı tərəfin yerləşdiyi ölkəyə əsaslanır. Bu ölkələrin faktiki olaraq Azərbaycan Respublikasında yerləşən təmsilçilərinə münasibətdə mövcud olan debitor və kreditor

borcları üzrə qalıqlar isə “Azərbaycan Respublikası” başlığı altında təqdim edilir. Nağd pul, qiymətli metal, əmlak və avadanlıqlar fiziki olaraq məxsus olduğu ölkəyə görə ayrılmışdır.
31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin coğrafi konsentrasiyası müvafiq qeydlərdə göstərilmişdir:

**Likvidlik riski**

Likvidlik riski faktiki olaraq ödəmə tarixi çatdığı zaman, maliyyə alətləri ilə bağlı maliyyə öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər vəsaitlərin mövcudluğunu nəzərdə tutur. Likvidlik riski Cəmiyyətin Mühasibatlıq strukturu tərəfindən idarə olunur. Cəmiyyətin likvidlik mövqeyinin idarə olunması fəaliyyəti öhdəliklərin vaxtı gəldikcə ödənilməsi üçün zəruri likvid aktivlərin səviyyəsinin nəzərə alınmasını, bir sıra maliyyə mənbələrinə çıxışın təmin olunmasını, maliyyələşdirmə üzrə ehtiyat planlarının işlənib hazırlanmasını və maliyyə vəziyyəti üzrə likvidlik nisbətinin izlənməsini tələb edir.

31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin likvidlik riski müvafiq qeydlərdə göstərilmişdir:

**Valyuta riski**

Valyuta riski xarici valyuta mübadiləsi məzənnələrindəki dəyişikliklərin baş verməsi səbəbindən maliyyə alətlərinin dəyərində dəyişikliyin yaranması ilə bağlı riskdir.

31 dekabr 2019-cu il tarixinə şirkətin maliyyə aktivləri və öhdəliklərinin valyuta riski müvafiq qeydlərdə göstərilmişdir:

## 21. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏR

Ədalətli dəyər məcburi satış və ya ləğvetmə xaricində arzu edən tərəflər arasındakı cari əməliyyatda maliyyə alətinin dəyişdirilə biləcəyi və ən yaxşı şəkildə aktiv bazar qiyməti ilə təsdiqlənən məbləğidir.

Maliyyə alətlərinin ehtimal olunan ədalətli dəyəri mövcud bazar məlumatlarını və mövcud qiymətləndirmə metodologiyalarını istifadə edərək Cəmiyyət tərəfindən müəyyən edilmişdir. Habelə, ehtimal olunan ədalətli dəyəri təyin etmək məqsədi ilə bazar məlumatlarını şərh etmək üçün mütləq qərar verilməlidir.

Azərbaycan Respublikası inkişaf etməkdə olan bazarın bəzi xüsusiyyətlərini nümayiş etdirməyə davam edir və iqtisadi şərtlər maliyyə bazarlarındakı fəaliyyət həcmini məhdudlaşdırmağa davam edir. Bazar qiymətləri köhnəlmiş ola və ya satış əməliyyatları zamanı olan çətinliyi əks etdirə bildiyindən, maliyyə alətlərinin ədalətli dəyərlərini təmsil etməyə bilər. Rəhbərlik maliyyə alətlərinin ədalətli dəyərini qiymətləndirərkən mövcud olan bütün bazar məlumatlarını istifadə etmişdir.

MHBS üzrə hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda maya və ya amortizasiya dəyəri ilə uçota alınmış maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyəri aşağıda təqdim olunur:

| | **31 dekabr 2019-cu il** | | **31 dekabr 2018-ci il** | |
|---|---|---|---|---|
| | **Qalıq dəyəri** | **Ədalətli dəyəri** | **Qalıq dəyəri** | **Ədalətli dəyəri** |
| Debitor borcları | 431,136 | 431,136 | - | - |
| Pul vəsaitləri və onların ekvivalentləri | 279,885 | 279,885 | 109,696 | 109,696 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 7,936 | 7,936 | - | - |
| Sair öhdəliklər (Təsisçiyə ödəniləcək vəsaitlər) | | - | 200,000 | 200,000 |
| **Cəmi** | **718,957** | **718,957** | **309,696** | **309,696** |

Aşağıdakı cədvəl ədalətli dəyər ilə ölçülməmiş maliyyə alətlərinin ədalətli dəyərlərini müəyyənləşdirir və onları hər bir ədalətli dəyər ölçüsünün aşağıda təsnif edildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyə ilə təhlil edir.

| | | | **Ədalətli dəyərin ölçülməsi** | | | |
|---|---|---|---|---|---|---|
| | **Maliyyə aləti üzrə təsnifat** | **Qiymətləndirmə tarixi** | **Fəal bazarlardakı kotirovka qiymətləri** | **Əhəmiyyətli müşahidə edilən məlumatlar** | **Əhəmiyyətli müşahidə olunmayan giriş məlumatları** | **Cəmi** |
| | | | **(Səviyyə 1)** | **(Səviyyə 2)** | **(Səviyyə 3)** | |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | | |
| Debitor borcları | Amortizasiya dəyəri | 31.12.2019 | | | 431,136 | 431,136 |
| Pul vəsaitləri və onların ekvivalentləri | Amortizasiya dəyəri | 31.12.2019 | 279,885 | | | 279,885 |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | Amortizasiya dəyəri | 31.12.2019 | | | 7,936 | 7,936 |
| Təsisçiyə ödəniləcək vəsaitlər | Amortizasiya dəyəri | 31.12.2019 | | | | - |

## 22. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

2019-cu ilin sonunda Çinin Uhan şəhərində yeni növ koronavirus aşkarlanmışdır. 31 dekabr 2019-cu il tarixinə xəstəliyin yayılma coğrafiyası və qeydə alınmış xəstə sayı məhdud olduğundan, bu vəziyyət MHBS üzrə hazırlanmış maliyyə hesabatına düzəliş edilməsi üçün təsirə malik olmamışdır. Lakin, 2020-ci ilin yanvar ayından başlayaraq, vəziyyətdə köklü dəyişikliklər qeydə alınmağa başlamış və 2020-ci ilin mart ayında yeni növ koronavirus Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən pandemiya olaraq elan edilmişdir.

Digər dünya ölkələrində olduğu kimi, Azərbaycan Respublikası hökuməti də pandemiyaya qarşı mübarizə üçün müxtəlif tədbirlər, o cümlədən səyahət məhdudiyyəti, karantin, iş yerlərinin və digər yerlərin, eləcə də müəyyən ərazilərin bağlanması üzrə tədbirlər həyata keçirmişdir. Bu tədbirlər qlobal tədarük zəncirinə, həm də mal və xidmətlərə olan tələb səviyyəsinə təsir göstərmiş və aktiv qiymətlərinin və valyuta məzənnələrinin daha çox dəyişkən olmasına, uzunmüddətli perespektivdə faiz dərəcələrinin nəzərə çarpacaq dərəcədə azalması ilə müşahidə olunan biznes əməliyyatlarının əhəmiyyətli dərəcədə pozulmasına və iqtisadi qeyri-müəyyənliyin artmasına səbəb olmuşdur. Hökumətin pandemiyaya qarşı mübarizə tədbirləri və bu tədbirlərin müsbət nəticələri davam etməkdədir.

Dünya iqtisadiyyatında baş verən geriləmə ilə yanaşı, 2020-ci ilin mart ayında OPEC və Rusiyanın iştirak etdiyi görüşlərdə hasilatın azaldılması barədə razılıq əldə oluna bilməməsindən sonra, neftin qiyməti kəskin dərəcədə aşağı düşmüşdür. Baş vermiş hadisələr və mövcud vəziyyət, şirkətlərin əvvəllər üzləşmədiyi və maliyyə hesabatına əhəmiyyətli dərəcədə təsir ola biləcək qeyri-müəyyənlik və risk səviyyələri yaratmışdır.

Cəmiyyət 2020-ci ilin fevral ayının ortalarında insanların sağlamlığını və aktivlərin təhlükəsizliyini qorumaq məqsədi ilə pandemiyanın Cəmiyyətin fəaliyyətinə təsirini azaltmaq üçün təsirli tədbirlərin həyata keçirilməsi üçün Biznesin Davamlılığı üzrə İşçi Qrupu yaratmışdır.

Cəmiyyət pandemiya və neft qiymətlərindəki vəziyyət səbəbindən iş planında və fəaliyyətində ciddi bir pozuntu gözləmir.

**İlham Bağırov**

Direktor

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası

**Mürşüd Cəfərov**

Baş mühasib

11 dekabr 2020-ci il

Bakı, Azərbaycan Respublikası